Xalqın qəzeti!

# Xalq qəzeti

№ 85 (31054) 15 may 2026-cı il, cümə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

## Paraqvay Respublikasının Prezidenti Zati-aliləri cənab Santyaqo Penyaya

**Hörmətli cənab Prezident!**

Paraqvay Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edir, ən xoş arzularımı çatdırıram.

İnanıram ki, Azərbaycan ilə Paraqvay arasındakı dostluq münasibətlərinin inkişafı, əməkdaşlığımızın həm ikitərəfli, həm də çoxtərəfli müstəvidə genişlənməsi istiqamətində birgə səylərimizi bundan sonra da davam etdirəcəyik.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost Paraqvay xalqına əmin-amanlıq və rifah diləyirəm.

Hörmətlə,

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 12 may 2026-cı il**

# Qlobal Cənub QHT Platformasının ilk Baş Assambleyası Azərbaycanda keçirildi



**Mayın 14-də "Bakı Şəhərsalma Həftəsi" çərçivəsində Qlobal Cənub QHT Platformasının ilk Baş Assambleyası keçirilib.**

Məclisə Latın Amerikası, Afrika, Asiya, Sakit okean hövzəsini əhatə edən ümumilikdə 114 ölkədən QHT təmsilçiləri qatılıb.

Əvvəlcə təşkilatın birillik fəaliyyətinə həsr edilmiş videoçarx nümayiş etdirilib.

"AnewZ" Televiziyasının Baş redaktorunun müavini Orxan Amaşovun moderatorluğu ilə keçən tədbirdə çıxış edən Prezidentin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib ki, Qlobal Cənub dünya arenasında mühüm rol oynayır. Azərbaycan özünü Qlobal Cənubun bir hissəsi hesab edir. Biz coğrafi, tarixi, mədəni cəhətdən və həmçinin tale etibarilə Qlobal Cənubun bir hissəsiyik.

O qeyd edib ki, Azərbaycan Qlobal Cənub ölkələrinin üzləşdiyi bütün çətinlikləri və problemləri, o cümlədən tarixi mirası tam və əhatəli şəkildə anlayır. Çünki Azərbaycan da müstəqillik illəri və bütün tarixi boyu bu çətinliklərin və problemlərin hamısından keçib.

Hikmət Hacıyev xüsusilə müstəmləkəçilik və neomüstəmləkəçilik elementlərini vurğulayıb. Nəzərə çatdırıb ki, Qlobal Cənub ölkələri tarixin müxtəlif dövrlərində bundan çox əziyyət çəkiblər. Bu, bəşəriyyətin üzündə bir yaradır, lakin təəssüf edirik ki, bu təcrübə qlobal müstəvidə yeni forma və təzahürlər alaraq davam etməkdədir. Azərbaycan 2019-cu ildən 2022-ci ilə qədər Qoşulmama Hərəkatına sədrlik edərkən neomüstəmləkəçiliyə qarşı mübarizəni əsas prioritetlərindən biri kimi müəyyən edib.

*(ardı 2-ci səhifədə)*

## "Pour toi Armenie"dən Makronun "çörək və tamaşa"sınadək



Səhifə ⇨ 4

## Azərbaycanın şəhərsalma təcrübəsinin qlobal önəmi




Səhifə ⇨ 7

## Qəddarlaşmış işğalçılar meşəmizə, çayımıza da qənim kəsilibmişlər...



Səhifə ⇨ 5

## Nəqliyyatın idarə edilməsində zəruri rəqəmsal keçid



Səhifə ⇨ 8

## Şuşada IX Beynəlxalq "Xarıbülbül" Festivalı




Səhifə ⇨ 9

## ADPU türkologiyanın pedaqoji mərkəzidir

Səhifə ⇨ 9

## Türk dünyasının rəqəmsal gələcəyi



Səhifə ⇨ 3

## Türkiyə – Ermənistan: "pıçıltılı ticarət"in ümid payı və...



Səhifə ⇨ 4

## Ermənistanı fəlakətə sürükləmiş cani "xilaskar" cildində



Səhifə ⇨ 5

## Yeni Cənubi Qafqaz gerçəkliyi



Səhifə ⇨ 6

## "Hörmüz kilidi" və Azərbaycanın artan geoiqtisadi mövqeyi



Səhifə ⇨ 7

# "Bakı Şəhərsalma Həftəsi" çərçivəsində yeni strateji təqdimat

Səhifə ⇨ 3

# Tullantıların idarə edilməsinin təkmilləşdirilməsi sahəsində əlavə tədbirlər haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasında tullantılarla bağlı idarəetmənin təkmilləşdirilməsi məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Tullantıların İdarə Edilməsi üzrə Dövlət Agentliyi (bundan sonra – Agentlik) yaradılsın.

**2.** Müəyyən edilsin ki, Agentlik tullantıların idarə edilməsi (tullantıların əmələ gəlməsi, yığılması, çeşidlənməsi, daşınması, yerləşdirilməsi, emalı, istifadəsi, utilizasiyası, zərərsizləşdirilməsi və basdırılması) və tullantı haqlarının toplanması sahəsində dövlət nəzarətini, tənzimləməni və əlaqələndirməni həyata keçirən Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin strukturuna daxil olan qurumdur.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. aşağıdakılara dair təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin:

3.1.1. iki ay müddətində Agentliyin əsasnaməsinin və strukturunun layihələrinə, habelə işçilərinin say həddinə dair;

3.1.2.dörd ay müddətində bu Fərmanın 2-ci hissəsi, habelə qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla, "Tullantılar haqqında" Azərbaycan Respublikası Qanununun və tullantıların idarə edilməsi ilə bağlı digər normativ hüquqi aktların təkmilləşdirilməsinə dair;

3.1.3.beş ay müddətində "Azərbaycan Respublikasının 2027–2030-cu illərdə sosial-iqtisadi inkişaf Strategiyası" layihəsi ilə əlaqələndirməklə "Azərbaycan Respublikasında bərk məişət tullantılarının idarə edilməsinin təkmilləşdirilməsinə dair 2027–2030-cu illər üçün Milli Strategiya" layihəsinə dair;

3.2. Agentliyin maddi-texniki təminatı məsələlərinin həlli və saxlanılma xərclərinin maliyyələşdirilməsi, inzibati bina ilə təmin edilməsi üçün iki ay müddətində zəruri tədbirlər görsün;

3.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 14 may 2026-cı il**

# B.A.Babayevin 2-ci dərəcəli "Əmək" ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının elektroenergetika sahəsinin inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə Baxış Abutalıb oğlu Babayev 2-ci dərəcəli "Əmək" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 14 may 2026-cı il**

# YAP nümayəndə heyəti Çində



**Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyəti Çinə səfəri çərçivəsində Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, Beynəlxalq əlaqələr şöbəsinin müdiri, nazir Lyu Haysin ilə görüşüb.**

Görüşdə Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev ilə Çin Xalq Respublikasının Sədri, Çin Kommunist Partiyasının Baş katibi Si Cinpinin siyasi iradəsi sayəsində ildən-ilə möhkəmlənərək hərtərəfli strateji tərəfdaşlıq səviyyəsinə yüksələn münasibətlərin hər iki ölkənin maraqlarına cavab verdiyi vurğulanıb.

Azərbaycan ilə Çinin müstəqil siyasət yürüdən dost ölkələr kimi bir-birinin mənafelərinin qorunmasına xüsusi diqqət yetirdikləri bildirilib. Beynəlxalq hüququn təməlində dayanan ərazi bütövlüyü və suverenlik prinsiplərini əsas götürən Azərbaycanın Vahid Çin siyasətinə qətiyyətli dəstəyinin əhəmiyyəti vurğulanıb.

Çinin qlobal əhəmiyyətli "Bir kəmər, bir yol" təşəbbüsünü dəstəkləyən ilk ölkələrdən biri olan Azərbaycanın Asiya ilə Avropa arasında əlverişli coğrafi mövqeyindən və tranzit imkanlarından səmərəli istifadənin Orta Dəhlizin inkişafına təkan verdiyi vurğulanaraq ölkəmizin Zəngəzur dəhlizi layihəsinin yeni platforma kimi Avrasiyada dayanıqlı sülhə, etibarlı təhlükəsizliyə və çoxtərəfli işbirliyinə hədəfləndiyi qeyd olunub.

Çoxqütblü dünya nizamına transformasiya şəraitində Azərbaycan-Çin hərtərəfli strateji tərəfdaşlığının təkcə iki ölkə arasında əlaqələrin inkişafı baxımından əlamətdar olmadığı, eyni zamanda, Avrasiyada, o cümlədən Qlobal Cənub coğrafiyasında davamlı və qarşılıqlı faydalı əməkdaşlığın təşviqi üçün mühüm əhəmiyyət daşıdığı bildirilib.

***XQ***

# Azərbaycan–Xorvatiya mühəndis əməkdaşlığı memorandumu

**Azərbaycan Mühəndislik Akademiyası ENGINEERS EUROPE və Ümumdünya Mühəndislik Təşkilatları Federasiyası (WFEO) vasitəsilə Avropa və qlobal mühəndislik ictimaiyyətinin fəal üzvü kimi beynəlxalq əməkdaşlığın inkişafına hər zaman xüsusi önəm verir. Beynəlxalq əlaqələrin genişləndirilməsi istiqamətində həyata keçirilən fəaliyyətlərin davamı olaraq, Azərbaycan Mühəndislik Akademiyası ilə Xorvatiya Mühəndislər Assosiasiyası arasında əməkdaşlığa dair memorandum imzalanıb.**

Azərbaycan tərəfindən memorandumu Akademiyanın prezidenti akademik Arif Paşayev, Xorvatiya tərəfindən Assosiasiyanın prezidenti Luka Jelic imzalayıblar.

Memorandumun məqsədi mühəndislik sahəsində elmi, texniki və peşəkar əməkdaşlığın inkişaf etdirilməsi, beynəlxalq əlaqələrin gücləndirilməsi, bilik və təcrübə mübadiləsinin təşviq edilməsidir.

Sənədə əsasən tərəflər elmi və texniki informasiya mübadiləsi, beynəlxalq konfranslar, seminarlar və simpoziumların təşkili, mühəndislər və tədqiqatçılar arasında əməkdaşlığın genişləndirilməsi, eləcə də birgə elmi və innovativ layihələrin həyata keçirilməsi istiqamətində fəaliyyət göstərəcəklər.

Tərəflər mühəndislərin qarşılıqlı əməkdaşlıq və təcrübə mübadiləsi vasitəsilə dayanıqlı və innovativ gələcəyin formalaşdırılmasında mühüm rol oynadıqlarını vurğulayıblar.

Memorandum Azərbaycan və Xorvatiya mühəndislik təşkilatları arasında əlaqələrin daha da genişlənməsinə, beynəlxalq təşəbbüs və layihələrin həyata keçirilməsinə töhfə verəcək.

***XQ***

# Milli Məclis Sədrinin Buxara görüşləri



**Milli Məclisin Sədri Sahibə Qafarova mayın 14-də Buxarada Birləşmiş Ərəb Əmirlikləri Federal Milli Şurasının sədr müavini Maryam Majid Bin Zeneya ilə görüşüb.**

Söhbət zamanı ölkələrimiz arasında əlaqələrin qardaşlıq, qarşılıqlı hörmət, etimad və dəstək mühitində inkişaf etdiyi qeyd olunub.

Görüşdə beynəlxalq təşkilatlarda əməkdaşlıq məsələləri barədə də fikirlər ifadə olunub. Diqqətə çatdırılıb ki, ölkələrimiz BMT, İƏT və Qoşulmama Hərəkatı kimi beynəlxalq və regional təşkilatlar çərçivəsində uğurla əməkdaşlıq edir və qarşılıqlı dəstək nümayiş etdirirlər. Milli Məclisin Sədri BƏƏ-nin parlament təmsilçilərinin Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə yaradılmış Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin işində iştirakından məmnunluğunu bildirib.

Söhbət zamanı qanunverici orqanlarda fəaliyyət göstərən dostluq qruplarının parlamentlərarası əlaqələrin inkişafında əhəmiyyəti diqqətə çatdırılıb.

*

**Sahibə Qafarova səfəri çərçivəsində Özbəkistanın Ali Məclisi Senatının sədri Tənzilə Narbayeva ilə də görüşüb.**

Görüşdə dost və qardaş ölkələrimiz arasında münasibətlərin mövcud inkişaf səviyyəsindən məmnunluq ifadə edilib, əlaqələrin dərinləşməsində iki ölkənin dövlət başçılarının rolu xüsusi vurğulanıb.

Söhbət zamanı ölkələrimiz və xalqlarımız arasındakı yüksəksəviyyəli əlaqələrin parlament müstəvisində də uğurla davam etdirildiyi qeyd olunub. Parlamentlərimizin həm ikitərəfli formatda, həm də beynəlxalq parlament təşkilatları çərçivəsində əməkdaşlığı yüksək qiymətləndirilib.

Görüşdə, həmçinin İkinci Asiya Qadınlar Forumunun dost və qardaş ölkə Özbəkistanda yüksək səviyyədə təşkil olunduğu vurğulanaraq, bu tədbirin qadınların siyasi, iqtisadi, ictimai həyatda daha fəal iştirakının təşviqinə yönəlmiş təşəbbüslərin daha geniş platformada həyata keçirilməsinə töhfə verəcəyinə inam ifadə olunub.

*

**Milli Məclisin Sədri Sahibə Qafarova səfəri çərçivəsində Türkmənistan Məclisinin sədri Dünyagözəl Qulmanova ilə də görüşüb.**

Görüşdə Azərbaycan ilə Türkmənistan arasında dostluq və qardaşlıq münasibətlərinin bütün istiqamətlər üzrə uğurla inkişaf etdiyi məmnunluqla qeyd olunub. Parlamentlərarası münasibətlər barədə danışan Milli Məclisin Sədri bu sahədə əməkdaşlığın uğurla inkişaf etdiyini deyib.

Dünyagözəl Qulmanova da ölkələrimiz və parlamentlərimiz arasında münasibətlərin hazırkı yüksək səviyyəsini qeyd edərək, qarşılıqlı səfərlərin və sıx təmasların münasibətlərin daha da dərinləşməsinə töhfələrini vurğulayıb.

***XQ***

# Qlobal Cənub QHT Platformasının ilk Baş Assambleyası Azərbaycanda keçirildi





**(əvvəli 1-ci səhifədə)**

Azərbaycan Prezidentinin iqlim məsələləri üzrə nümayəndəsi Muxtar Babayev deyib ki, bugünkü görüş təkcə institusional bir mərhələ deyil, həm də Azərbaycanda keçirilən COP29 zamanı yaranan həmrəylik, dialoq və əməkdaşlıq ruhunun, Qlobal Cənubun yaradılmasının davamıdır. Eyni zamanda, Azərbaycanın Cənub-Cənub əməkdaşlığının gücləndirilməsi, dialoq və praktiki fəaliyyət üçün inklüziv beynəlxalq platformalar yaratmaq baxımından davamlı öhdəliyidir.

Onun sözlərinə görə, bu platforma dialoq üçün bir məkan olmaqdan daha çoxdur. Bu, fəaliyyət qüvvəsidir. Bu gün Bakıda Baş Assambleyanın keçirilməsi bu vizyonun reallığa çevrildiyinin açıq göstəricisidir.

Milli QHT Forumu İdarə Heyətinin sədri Ramil İskəndərli Qlobal Cənub Platformasının vətəndaş cəmiyyətinin mühüm və qalıcı miraslarından biri kimi qəbul edildiyini deyib. Bildirib ki, platforma artıq beynəlxalq təşkilatlar və nüfuzlu mərkəzlər tərəfindən tanınır.

Tədbirdə, həmçinin BMT-nin Azərbaycandakı müvəqqəti rezident-əlaqələndiricisi İqor Qarafuliç BMT Baş katibinin Qlobal Cənub QHT Platformasının ilk Baş Assambleyasının iştirakçılarına ünvanladığı müraciəti səsləndirib.

Müraciətdə bildirilib ki, Birləşmiş Millətlər Təşkilatı Azərbaycanın çoxtərəflilik, beynəlxalq əməkdaşlıq və qlobal səviyyədə inklüziv iştirakın təşviqi istiqamətindəki davamlı səylərini yüksək qiymətləndirir.

Qeyd edilib ki, Qlobal Cənub QHT Platforması qlobal həmrəylik, dialoq və tərəfdaşlıq üçün mühüm mexanizm rolunu oynayır. Müraciətdə, həmçinin inklüziv inkişafın təşviqi, dayanıqlılığın gücləndirilməsi, effektiv çoxtərəflilik və əməkdaşlığın möhkəmləndirilməsi, xüsusilə Qlobal Cənuba dəstək baxımından qlobal öhdəliklərin yerinə yetirilməsinin və heç kimin diqqətdən kənarda qalmamasının vacibliyi vurğulanıb.

Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi İdarə Heyətinin sədri, WUF13 Təşkilat Komitəsinin üzvü Aygün Əliyeva nəzərə çatdırıb ki, bu gün dünya mürəkkəb geosiyasi böhranlar, iqlim dəyişikliyi, humanitar çağırışlar və artan bərabərsizliklərlə üz-üzədir. Belə bir dövrdə Qlobal Cənubun baxış bucağı daha aydın və daha güclü şəkildə eşidilməlidir.

BMT-nin Cənub-Cənub Əməkdaşlığı üzrə Ofisinin direktoru Dima Al-Khatib tədbirin əhəmiyyətini qeyd edib. O, BMT-nin Cənub-Cənub Əməkdaşlığı üzrə Ofisinin vətəndaş cəmiyyətinin Cənub-Cənub və üçtərəfli əməkdaşlığın inkişafında əvəzolunmaz olduğuna tam inandığını söyləyib.

Birləşmiş Millətlər Təşkilatı Təlim və Tədqiqat İnstitutunun Məsləhət Şurasının sədri Luis Gallegosun sözlərinə görə, bu gün xalqlarımızın və ölkələrimizin üzləşdiyi çoxsaylı çağırışlarla mübarizə aparmaq üçün əvvəlkindən də daha çox birləşməyimiz tələb olunur.

Dağıdıcı hərəkətlərə, parçalanmaya yox deyən Luis Gallegos dialoq, danışıqlar və konsensusun yaradılmasının vacibliyini qeyd edib.

Somali Federativ Respublikası Prezidentinin müşaviri, "Sadar" İnstitutunun təsisçisi və baş icraçı direktoru Mohamed Osman Mohamoud bildirib ki, Azərbaycan bu gün həm regional, həm də sivilizasiyalar arasında bir körpü kimi çıxış edir, dialoqun, sülhün və dayanıqlı inkişafın təşviqi istiqamətində mühüm addımlar atır.

İsveçrənin Qlobal Su, Ətraf Mühit və Sağlamlıq İnstitutunun təsisçisi Nidal Salim qeyd edib ki, Qlobal Cənubda sürətli şəhər transformasiyası dövründə forumun ilk dəfə Cənubi Qafqazda keçirilməsi xüsusilə əhəmiyyətlidir. Bu tədbir beynəlxalq görüşdən daha artığıdır. Bu gün Qlobal Cənub insanlığın əsasən Afrikada, Asiyada, Latın Amerikasında və digər inkişaf etməkdə olan regionlardakı şəhərlərdə yaşayacağı bir dövrə qədəm qoyub.



Tədbir çərçivəsində Qlobal Cənub QHT Platformasının institusional strukturu və fəaliyyət mexanizmlərinə dair çərçivə sənədi qəbul edilib.

Daha sonra Qlobal Cənub QHT Platformasının (GSNP) Baş katibi və regionlar üzrə onun müavinləri seçilib.

Azərbaycan təmsilçisi Fuad Kərimli GSNP-nin Baş katibi seçilib. Beləliklə, qarşıdakı 5 il müddətində təşkilata sədrliyi Azərbaycanın QHT təmsilçisi edəcək. Keniya təmsilçisi Mithika Mwenda GSNP Baş katibinin Afrika regionu, Özbəkistan təmsilçisi Bobur Bekmurodov Asiya regionu, Ekvador təmsilçisi Luis Gallegos Latın Amerikası regionu, Filippindən olan Cecile Guidote-Alvarez isə Sakit okean regionu üzrə müavini seçiliblər.

GSNP-nin rəhbər strukturuna seçilənlər təqdimatlarla çıxış ediblər.

Sonra Baş Assambleya işini panel iclasları ilə davam etdirib.

"Qlobal Cənub: Mövqelərin tənzimlənməsi və strateji əməkdaşlıq" mövzusunda panel iclasa Qlobal Cənub QHT Platformasının Baş katibi Fuad Kərimli moderatorluq edib.

Birləşmiş Millətlər Universitetinin (UPEACE) Vyana və Cenevrədəki BMT ofisləri yanında səfiri David Fernandez Puyana, BMT-nin Məskunlaşma Proqramının İdarə Heyətlərinin keçmiş katibi və Hökumətlərarası Əlaqələr şöbəsinin rəhbəri Christian Mensah, Meksikanın Azərbaycandakı keçmiş səfiri Rodrigo Labardini və Keniyanın Maasai Mara Universitetinin rektoru Peninah Aloo-Obudho Azərbaycanda keçirilən Baş Assambleyanın Birləşmiş Millətlər Təşkilatının xalqlarının dünyanın ən vacib çoxtərəfli və qlobal təşkilatı olan BMT-nin dəyərlərini, ruhunu və məqsədini necə təmsil etdiyinə dair aydın nümunə olduğunu diqqətə çatdırıblar. Çıxışçılar Azərbaycanın yerli aktorlar ilə qlobal çərçivələr arasında körpü rolunu oynayan platformanın gələcəkdə institusionallaşdırılmasına uzunmüddətli inkişaf baxımından yaxşı mövqedə olduğunu qeyd ediblər. Onlar, həmçinin Qlobal Cənubda sosial-iqtisadi bərabərliyin böyük əhəmiyyət kəsb etdiyini vurğulayıblar.

Tədbir çərçivəsində keçirilən ikinci panel iclasın mövzusu isə "Bakı Şəhərsalma Həftəsi: İnklüziv inkişaf və davamlı şəhər modelləri - Qlobal Cənub təcrübəsi" olub.

Qlobal Cənub QHT Platformasının nümayəndəsi Nədimə Rəhimlinin moderatorluğu ilə keçirilən panel iclasda iqlim dəyişikliyi üzrə ekspert İsa Əliyev, Əlilliyi olan şəxslərin hüquqları üzrə "I Am Human" Cəmiyyətinin sədri Asiya Abdel Mutaleb Yaği, "Elm və Texnologiya üçün Bir kəmər, bir yol Alyansı" baş katibinin müavini, professor Renying Li, Qlobal Sülh məzunu, hüquqşünas və qlobal sülh səfiri, İctimai Siyasətlər və Diplomatiya İnstitutunun (IPPDR) regional direktoru Blanca Mujica Acuna Judith çıxış ediblər. Çıxışlarda bildirilib ki, bu mövzu artıq bütün bəşəriyyəti narahat edən strateji bir çağırışdır. Müasir dövrümüzdə dünya əhalisinin yarıdan çoxu şəhərlərdə yaşayır və proqnozlara görə yaxın 20-30 ildə bu rəqəm 70 faizdən çox olacağı gözlənilir. Bu isə artıq şəhərlərin gələcək dünyanın taleyində oynayacağı mühüm roldan xəbər verir. Bu baxımdan şəhərlər yeni-yeni çağırışlar yaradır və davamlı şəhərsalma siyasətinin gələcəkdə vacibliyini aydın şəkildə göstərir. Qeyd edilib ki, inklüziv şəhər tək bir element üzərində deyil, gündəlik həyatı formalaşdıran qarşılıqlı əlaqəli sistemlər üzərində qurulur. Eyni zamanda, inklüziv iqtisadiyyat olmadan inklüziv şəhər mövcud ola bilməz.

Sonda Qlobal Cənub QHT Platformasının ilk Baş Assambleyasının yekun bəyannaməsi qəbul edilib.

***XQ***

# “Bakı Şəhərsalma Həftəsi” çərçivəsində yeni strateji təqdimat

**Tanınmış siyasi icmalçı Orxan Amaşovun moderatorluq etdiyi tədbirdə BMT Baş katibinin Baş Assambleyanın iştirakçılarına ünvanladığı müraciəti BMT-nin Azərbaycandakı müvəqqəti rezident-əlaqələndiricisi İqor Qarafuliç səsləndirdi.**



Daha sonra çıxış edənlər – Prezidentin köməkçisi – Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev, Azərbaycan Prezidentinin iqlim məsələləri üzrə nümayəndəsi Muxtar Babayev, Milli Məclisin deputatı Vüqar Bayramov, Milli QHT Forumu İdarə Heyətinin sədri Ramil İskəndərli, politoloq Fərhad Məmmədov tarix boyu yeni qlobal nizam formalaşanda Qlobal Cənubun masanın arxasında olmamasından, xüsusilə İkinci Dünya müharibəsindən sonra onun səsinin eşidilmədiyindən, hazırda inteqrasiya olunmuş potensialın və dünya əhalisinin 80 faizinin Cənub ölkələrində yaşamasını nəzərə alaraq, yeni dünya nizamının formalaşmasında, sadəcə, müşahidəçi və tamaşaçıya çevrilməməsinin zəruriliyindən danışdılar. H.Hacıyevin “Azərbaycan özünü Qlobal Cənubun bir hissəsi hesab edir” fikri isə diplomatik bəyanatdan daha geniş siyasi məna daşıyırdı.

## “Qlobal Cənub” anlayışı yenidən gündəmdə

Beynəlxalq münasibətlər sistemində son illər müşahidə olunan ən mühüm dəyişikliklərdən biri “Qlobal Cənub” anlayışının yenidən siyasi diskursun mərkəzinə çıxmasıdır. Qlobal Şimalın iqtisadi və texnoloji üstünlüyü fonunda Qlobal Cənub ölkələri əsasən beynəlxalq sistemin periferiyası kimi təqdim olunurdu. Lakin XXI əsrin ikinci onilliyindən etibarən qlobal güc balansında baş verən dəyişikliklər bu anlayışın mahiyyətini ciddi şəkildə transformasiya etməyə başladı.

Çıxışlarda diqqətçəkən əsas məqamlardan biri Azərbaycanın öz tarixi təcrübəsini Qlobal Cənub diskursu ilə əlaqələndirməsi oldu. Azərbaycan uzun illər geosiyasi təzyiqlər, xarici təsirlər, təhlükəsizlik problemləri və beynəlxalq münasibətlərdə ikili standartlarla üzləşmiş dövlət kimi postkolonial siyasi narrativə yaxın mövqe nümayiş etdirir. Bütün bunlar xüsusilə Qoşulmama Hərəkatına sədrliyi dövründə daha aydın görünməyə başladı. Bakı həmin dövrdə inkişaf etməkdə olan ölkələrin beynəlxalq sistemdə daha ədalətli təmsilçiliyi, vaksin bərabərsizliyi, iqtisadi asılılıq və neomüstəmləkəçilik kimi məsələləri fəal şəkildə gündəmə gətirdi.

Əslində, Azərbaycanın Qlobal Cənub ritorikası həm də dəyişən dünya düzənində özünə yeni strateji mövqe müəyyənləşdirmə cəhdidir. Çünki hazırkı beynəlxalq sistemdə orta güclərin manevr imkanları genişlənir. Qlobal rəqabətin dərinləşdiyi şəraitdə region dövlətləri artıq yalnız böyük güclərin təsir zonasında fəaliyyət göstərmək istəmirlər. Onlar eyni zamanda alternativ siyasi platformalarda iştirak etməyə, çoxtərəfli tərəfdaşlıq modelləri qurmağa və öz geosiyasi çəkilərini artırmağa çalışırlar. Azərbaycan da bu prosesdə özünü Şərq ilə Qərb, Şimal ilə Cənub arasında geostrateji bağlantı nöqtəsi kimi təqdim edir.

## Azərbaycan Qlobal Cənubun bir hissəsi kimi

Məsələyə daha dərindən baxdıqda, görünür ki, söhbət dəyişən beynəlxalq sistemdə Azərbaycanın özünə yeni geosiyasi identiklik formalaşdırmaq cəhdindən gedir. Bakı anlayır ki, XXI əsrin beynəlxalq münasibətlər sistemi artıq əvvəlki kimi yalnız böyük güclərin sərt blok siyasəti üzərində qurulmur. Yeni mərhələdə orta güclər, tranzit dövlətlər və regional aktorlar özlərini müxtəlif siyasi platformalar vasitəsilə daha təsirli şəkildə ifadə etməyə çalışırlar. Azərbaycanın Qlobal Cənub diskursuna yaxınlaşması da məhz bu geosiyasi transformasiyanın tərkib hissəsidir. Dünya siyasətində son illərdə müşahidə olunan əsas tendensiya Qərb mərkəzli beynəlxalq idarəetmə modelinin əvvəlki qədər mübahisəsiz qəbul edilməməsidir. Azərbaycanın xarici siyasətində də məhz bu xətt aydın görünür. Bakı eyni zamanda həm Qərblə əməkdaşlıq edir, həm Türk dünyası ilə inteqrasiyanı genişləndirir, həm Çinlə iqtisadi əlaqələri inkişaf etdirir, həm də Qoşulmama Hərəkatı və İslam Əməkdaşlıq Təşkilatı kimi platformalarda fəallığını artırır.

Məhz burada geoiqtisadi amil ön plana çıxır. Qlobal Cənub ölkələri bu gün dünya əhalisinin böyük hissəsini, strateji təbii resursları və inkişaf etməkdə olan bazarları özündə birləşdirir. Asiya və Afrika artıq yalnız ucuz əmək bazarı deyil, həm də qlobal iqtisadi artımın əsas istiqamətlərindən biri hesab olunur. Çin, Hindistan, Körfəz ölkələri və Afrika bazarlarının artan iqtisadi çəkisi dünya ticarət marşrutlarını dəyişdirir. Azərbaycan isə bu prosesdə özünü mühüm tranzit və enerji mərkəzi kimi yerləşdirməyə çalışır.

## “Qlobal Cənub” Qərbə qarşıdırmı?

Azərbaycanın son illər Qlobal Cənub diskursuna daha fəal şəkildə qoşulması və neomüstəmləkəçilik mövzusunu beynəlxalq platformalarda qabartması müəyyən dairələrdə belə bir sual formalaşdırır: Bakı anti-Qərb siyasi xəttinəmi keçir? İlk baxışda bu ehtimal bəzi müşahidəçilər üçün məntiqli görünə bilər. Xüsusilə Fransa ilə münasibətlərdə artan gərginlik, Qərbin bəzi siyasi institutlarına yönələn tənqidlər və postkolonial ritorikanın güclənməsi belə təəssürat yarada bilər ki, Azərbaycan özünü Qərbə qarşı alternativ siyasi platformalarda yerləşdirməyə çalışır. Lakin proseslərə daha dərindən baxdıqda mənzərə fərqli görünür.

Azərbaycan klassik mənada anti-Qərb blok siyasəti formalaşdırmır. Əksinə, Bakı son illərdə xarici siyasətdə daha çevik və praqmatik xətt qurmağa çalışır. Müasir beynəlxalq münasibətlər sistemində bir çox orta güclər artıq “Soyuq müharibə” dövrünün “ya bu tərəf, ya o tərəf” məntiqindən uzaqlaşmağa çalışırlar. Azərbaycan da məhz bu modelə uyğun hərəkət edir. Əslində, Bakının formalaşdırmağa çalışdığı yanaşmanı “strateji avtonomiya” modeli kimi xarakterizə etmək mümkündür. Azərbaycan anlayır ki, dünya siyasətində qütbləşmə dərinləşdikcə, orta dövlətlər üçün balans siyasəti daha həyati əhəmiyyət daşıyır. Buna görə də Bakı nə tam şəkildə Qərb blokuna inteqrasiya olunur, nə də alternativ qlobal güc mərkəzlərinin sərt siyasi xəttinə qoşulur.

Azərbaycan son illər Türk Dövlətləri Təşkilatı çərçivəsində inteqrasiyanı gücləndirməyə çalışır. Bununla yanaşı, Bakı İslam dünyası ilə siyasi əlaqələrini də aktiv saxlayır və xüsusilə İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində öz mövqeyini gücləndirməyə çalışır. Qoşulmama Hərəkatında fəallığın davam etdirilməsi də Azərbaycanın çoxvektorlu siyasətinin mühüm elementidir. Bakı bu platforma vasitəsilə özünü inkişaf etməkdə olan ölkələrin maraqlarını anlayan və onların problemlərinə həssas yanaşan dövlət kimi təqdim edir.

## Bakı neomüstəmləkəçiliyə qarşı

Son illərdə Azərbaycanın xarici siyasət ritorikasında ən diqqətçəkən istiqamətlərdən biri neomüstəmləkəçilik məsələsinin daha aktiv şəkildə gündəmə gətirilməsidir. Əgər əvvəllər bu termin əsasən akademik müzakirələrdə və ya bəzi inkişaf etməkdə olan ölkələrin siyasi çıxışlarında istifadə olunurdusa, indi Azərbaycan da bu mövzunu beynəlxalq platformalarda sistemli şəkildə vurğulayan dövlətlərdən birinə çevrilməkdədir.

Müasir dövrdə neomüstəmləkəçilik anlayışı klassik müstəmləkə idarəetməsindən fərqli məna daşıyır. Xüsusilə Qlobal Cənub ölkələrində belə fikir geniş yayılıb ki, beynəlxalq sistem formal olaraq dəyişsə də, güc münasibətlərinin mahiyyəti tam transformasiya olunmayıb. Bir çox dövlətlər hesab edir ki, böyük güclər və keçmiş müstəmləkə imperiyaları yeni vasitələrlə təsir imkanlarını saxlamağa çalışırlar. Azərbaycanın bu mövzunu xüsusi vurğulamasının əsas səbəblərindən biri siyasi legitimlik faktorudur. Bakı özünü inkişaf etməkdə olan ölkələrin maraqlarını anlayan və müdafiə edən dövlət kimi təqdim etməyə çalışır.

Azərbaycanın postkolonial və neomüstəmləkəçilik mövzularına diqqəti, müəyyən mənada, “diplomatik identiklik” quruculuğu kimi də qiymətləndirilə bilər. Bakı göstərmək istəyir ki, o, beynəlxalq münasibətlərdə eniş siyasi ədalət məsələləri kontekstində də mövqe ortaya qoyur.

Əslində, bu yanaşma Azərbaycanın “orta güc diplomatiyası” strategiyasının mühüm elementlərindən biridir. Çünki beynəlxalq sistemdə orta güclər öz təsir imkanlarını artırmaq üçün adətən müəyyən beynəlxalq mövzular üzərində siyasi təşəbbüs göstərirlər. Bəzi dövlətlər iqlim siyasətində, bəziləri humanitar diplomatiyada, digərləri isə təhlükəsizlik məsələlərində aktiv rol almağa çalışır. Azərbaycan



isə xüsusilə Qlobal Cənub, postkolonial ədalət və çoxtərəfli əməkdaşlıq mövzularında öz diplomatik profilini gücləndirməyə çalışır.

Son olaraq qeyd edək ki, Qlobal Cənub QHT Platformasının ilk Baş Assambleyasında səslənən fikirlər mövcud tendensiyaların bu məkanın beynəlxalq siyasətdə getdikcə daha təsirli və strukturlaşdırıcı rol oynadığını, yeni strateji mövqe qazandığını göstərir. Azərbaycan bu prosesdə öz geosiyasi maraqları çərçivəsində fəal aktor kimi çıxış etməyi hədəfləyir.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Türk dünyasının rəqəmsal gələcəyi

*TDT-nin “Süni intellekt və rəqəmsal inkişaf” sammiti hansı mesajları verir?*

**Türk Dövlətləri Təşkilatı (TDT) artıq Türk dünyasının ortaq siyasi iradəsini formalaşdıran, qarşılıqlı etimadı dərinləşdirən və strateji baxışları vahid məcraya yönəldən mühüm mexanizmə çevrilib. Əgər ilk illərdə TDT-nin təşkil etdiyi görüşlər daha çox tarixi bağların və mədəni yaxınlığın siyasi ifadəsi kimi qiymətləndirilirdisə, bu gün onlar qlobal çağırışlara ortaq yanaşmanın formalaşdırıldığı nüfuzlu beynəlxalq platforma statusu qazanıb.**



Müxtəlif vaxtlarda aktuallaşmış regional məsələlərlə yanaşı, bəşəriyyətin gələcəyini müəyyən edən enerji təhlükəsizliyi, iqlim dəyişiklikləri, rəqəmsal transformasiya, süni intellekt, kibertəhlükəsizlik və yeni iqtisadi model kimi qlobal mövzular da müzakirə edilir. Bu isə TDT-nin coğrafi sərhədləri aşaraq beynəlxalq münasibətlər sistemində yeni güc mərkəzi kimi qəbulundan irəli gəlir.

Bu gün Qazaxıstanda keçiriləcək növbəti qeyri-rəsmi sammit də məhz bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Görüşün Türk dünyasının gələcək inkişaf trayektoriyasını müəyyənləşdirəcək strateji mərhələlərdən biri kimi tarixə düşəcəyi indidən hiss olunur. Çünki sammitin əsas mövzusu kimi müəyyənləşdirilən “Süni intellekt və rəqəmsal inkişaf” məsələsi geniş geosiyasi baxışın təcəssümüdür. XXI əsrin əsas üstünlüyü informasiyaya nəzarət, rəqəmsal imkanlar və texnoloji innovasiyalar üzərində qurulur. Mövcud reallığı düzgün qiymətləndirən TDT yeni dövrün çağırışlarına uyğun strateji xətt formalaşdırmağa çalışır. Son illər təşkilata üzv dövlətlər arasında nəqliyyat-logistika xətlərinin genişləndirilməsi, enerji əməkdaşlığının dərinləşdirilməsi, iqtisadi inteqrasiyanın gücləndirilməsi ilə paralel şəkildə rəqəmsal transformasiya istiqamətində də ciddi addımlar atılıb. Proses mərhələli şəkildə inkişaf edərək artıq yeni mərhələyə qədəm qoyur. İndi məqsəd vahid rəqəmsal məkan formalaşdırmaqdır.

Süni intellekt transformasiyanın əsas hərəkətverici qüvvəsi hesab olunur. Dünyanın aparıcı dövlətləri artıq milyardlarla dollar vəsaiti bu sahəyə yönəldir, yeni texnoloji üstünlüklər uğrunda səssiz rəqabət aparırlar. Belə bir şəraitdə TDT-nin də ortaq rəqəmsal gələcək barədə düşünməsi strateji zərurətdən irəli gəlir. Çünki texnologiya yarışından geri qalmaq gələcəkdə iqtisadi və siyasi proseslərdə təsir imkanlarını itirməyə səbəb ola bilər.

Son illər ölkəmiz innovasiya və rəqəmsal inkişaf sahəsində həyata keçirdiyi təşəbbüslərlə regionun aparıcı dövlətlərindən birinə çevrilib. Azərbaycan indidən postneft mərhələsinin prioritetlərini müəyyənləşdirərək iqtisadiyyatın innovativ əsaslar üzərində qurulmasına xüsusi önəm verir. Dövlət səviyyəsində qəbul olunan rəqəmsal inkişaf strategiyaları göstərir ki, texnologiya sahəsində əldə edilən nailiyyətlər uzunmüddətli və sistemli siyasətin nəticəsidir. Bu baxımdan “Süni İntellekt Strategiyası 2025–2028” xüsusi əhəmiyyət daşıyır. Strategiya Azərbaycanın gələcək inkişaf modelində süni intellekt texnologiyalarının əsas sütunlardan birinə çevriləcəyini açıq şəkildə nümayiş etdirir. Burada əsas məqsəd milli intellektual potensialı gücləndirmək, rəqabətqabiliyyətli rəqəmsal iqtisadiyyat qurmaq və dövlət idarəçiliyində səmərəliliyi artırmaqdır. Süni intellektin səhiyyədən təhsilə, kənd təsərrüfatından sənayeyə qədər müxtəlif sahələrdə tətbiqi Azərbaycanın yeni iqtisadi modelinin əsas istiqamətlərindən biri hesab olunur.

2025-ci ilin 8 sentyabr tarixində Bakıda istifadəyə verilən Süni İntellekt Akademiyası həmin strateji baxışın praktik ifadəsidir. Akademiyada hazırlanan layihələr və innovativ həllər Azərbaycanla yanaşı, bütövlükdə Türk dünyası üçün yeni imkanlar yaradır. Orada yetişən gənc mütəxəssislər rəqəmsal gələcəyin memarları kimi formalaşır, süni intellekt texnologiyalarının müxtəlif istiqamətlərdə tətbiqi üzrə mühüm layihələr üzərində çalışırlar. Dövlət idarəçiliyində çevik qərarvermə mexanizmlərinin qurulması, iqtisadi səmərəliliyin artırılması, informasiya təhlükəsizliyinin gücləndirilməsi və rəqəmsal xidmətlərin genişləndirilməsi istiqamətində hazırlanan alqoritmlər Azərbaycanın texnoloji inkişaf potensialını aydın şəkildə nümayiş etdirir.

Ölkəmizin əldə etdiyi sözügedən istiqamətdə qazandığı təcrübə artıq Türk Dövlətləri Təşkilatı çərçivəsində ortaq model kimi diqqət mərkəzinə çevrilməkdədir. Bu məqsədlə vahid türk süni intellekt institutunun yaradılması ideyası xüsusi aktuallıq qazanır. Belə bir institutun formalaşdırılması ortaq elmi potensialın birləşdirilməsi baxımından mühüm əhəmiyyət daşıyacaq. Türk dövlətlərinin universitetləri, texnologiya mərkəzləri və tədqiqat institutları arasında əməkdaşlıq dərinləşəcək, ortaq innovasiya ekosistemi formalaşacaq. Təşəbbüs eyni zamanda intellektual resursların vahid platformada cəmləşdirilməsinə xidmət edəcək.

***Nəzrin ELDARQIZI***
***XQ***

### *Ekspert rəyi*

**Qafar ÇAXMAQLI,**
**Türkiyənin Erciyes Universitetinin professoru**



TDT beynəlxalq bir qurum kimi ortaya çıxandan və siyasi birlik platforması kimi özünü təsdiq edəndən sonra ona qarşı cəbhə açan qüvvələrin dinc durmayacağı bəlli idi. Bu birliyin qarşısında duran ən önəmli problem elə bu gün də, gələcəkdə də təhlükəsizlik məsələlərini həll etmək olacaqdır. Təşkilata daxil olan hər bir ölkə hücumlardan sığortalanmayıb və buraya daxil olan ölkələrə qarşı kiber hücumların olacağı təqdirdə onları dəf etmək məsələsi aktualdır. Məhz bu səbəbdən TDT üzvləri üçün birgə təhlükəsizlik tədbirləri almaq zərurəti yaranmışdır. Hesab edirəm ki, təşkilatın Türküstan toplantısının keçirilməsində məqsəd bundan qaynaqlanır.

Etiraf edək ki, kiberhücumlar müasir dövrümüzdə daha çox süni intellekt ilə aparıldığından TDT-nin budəfəki toplantısı bu məsələnin müzakirəsinə həsr olunub. Dünyada gedən prosesləri izləmək və deyərdim ki, onun birbaşa iştirakçısı və oyun qurucusu olmaq üçün müasir texnologiyaları mənimsəmək və onu inkişaf etdirmək lazımdır. TDT-yə daxil olan dövlətlər də texnoloji baxımdan müasir trendlərdən geri qalmamalıdır. Müzakirələr nəticəsində hansı qərarların veriləcəyindən asılı olmayaraq TDT dövlətlərinin çağdaş texnoloji yeniliklərə hakim olması üçün atılan hər addım önəmli nəticə sayıla bilər.

### *Ekspert rəyi*

**Toğrul VƏLİXANLI,**
**politoloq**



Türk dövlətləri süni intellekt sahəsində həm böyük imkanlara, həm də ortaq risklərə malikdirlər. Bu səbəbdən məsələyə strateji təhlükəsizlik, iqtisadi inkişaf, təhsil və mədəni əməkdaşlıq prizmasından yanaşmaq önəmlidir. Xüsusilə TDT çərçivəsində koordinasiyalı yanaşma ciddi nəticələr verə bilər. Birinci istiqamət ortaq hüquqi və etik çərçivənin yaradılmasıdır. Süni intellektin istifadəsi ilə bağlı məlumat təhlükəsizliyi, şəxsi məlumatların qorunması, “deepfake” texnologiyaları, dezinformasiya kimi risklər bütün türk dövlətləri üçün aktualdır. Türk dövlətləri ayrı-ayrılıqda qlobal texnologiya nəhəngləri ilə rəqabətdə çətinlik çəkə bilərlər, lakin birgə məlumat mərkəzləri, bulud texnologiyaları və regional AI platformaları yaradılarsa, həm xərclər azalar, həm də texnoloji müstəqillik güclənər. Xüsusilə türk dilləri üçün vahid dil modellərinin hazırlanması strateji əhəmiyyət daşıyır. Bu da qlobal səviyyədə AI sistemlərinin türk dillərində zəif nəticə verməsinin və informasiya asılılığının qarşısını ala bilər. Digər istiqamət təhsil və insan kapitalıdır. Ortaq universitet proqramları, AI laboratoriyaları, tələbə mübadiləsi və birgə tədqiqat fondları yaradılmalıdır. Məsələn, “Türk AI Akademiyası” formatında regional platformalar nəzərdən keçirilə bilər. Əlavə olaraq, risklərdən qorunmaq üçün kibertəhlükəsizlik əməkdaşlığı xüsusi önəm daşıyır. Süni intellekt vasitəsilə həyata keçirilən kiberhücumlar müasir dövrdə hibrid təhdidləri, informasiya manipulyasiyası və rəqəmsal casusluq gələcəkdə daha ciddi təhlükə yaratmaq imkanına sahibdir.

# “Pour toi Armenie”dən Makronun “çörək və tamaşa”sınadək

*Fransa başda olmaqla, Avropa Ermənistanı rahat buraxmalıdır, çünki...*

**“Bu gün biz sülh şəraitində yaşayırıq və sülhün müəllifi də bizik. Biz istəməsəydik, sülh olmayacaqdı. Biz istəsəydik, istənilən hərbi əməliyyatı istənilən yerdə keçirə bilərdik. Bunu Ermənistan rəhbərliyi də bilir, onun arxasında duranlar da bilirlər. Nə qədər onun arxasında dururlar dursunlar, bilirlər ki, bizim gücümüzə qarşı onların heç bir şansı yoxdur, onlar acizdirlər. Gücləri var idisə, elə 2020-ci ildə kömək edərdilər də Ermənistana. Bu gün Ermənistana gəlib özünü saxta qəhrəman kimi göstərən bəzi xarici liderlər 2020-ci ildə elə həmin liderlər idi də öz ölkələrində hakimiyyət başında, gəlib yiyə duraydılar da Ermənistana. Boşboğazlıqdan başqa heç nə yoxdur. Onların da işi-gücü boşboğazlıqdır, ona görə öz ölkələrində onların dəstək əmsalı 10-15 faizdir. İndi, guya, Ermənistanı bizim əlimizdən onlar çıxarıb xilas ediblər. Bizim Ermənistanı məhv etmək niyyətimiz yox idi, Ermənistanın müstəqilliyini onun əlindən almaq niyyətimiz yox idi”. Bu fikirləri Prezident İlham Əliyev mayın 10-da Zəngilan sakinləri ilə görüşündə deyib. O zaman diqqət yetirək və görək dövlətimizin başçısı vurğunu, konkret olaraq, nəyin üzərinə qoymuşdu.**



Əlbəttə ki, məsələ Fransa prezidenti Emmanuel Makron başda olmaqla, bəzi Avropa liderlərinin saxta hay təəssübkeşliyindədir. Onların ritorikaları yolverilməzdir. Ona görə ki, belələrinin dedikləri erməni xalqında son dövrlər yaranmış müsbət stereotipləri sıradan çıxarmaq potensialındadır.

Məlum olduğu kimi, hay cəmiyyətindəki ənənəvi xəstə baxışa görə, dünya erməniləri qorumağa borcludur. Bu baxış nəticəsində ermənilər, məşhur atalar sözündə deyildiyi kimi, arabanın kölgəsini öz kölgələri zənn ediblər. Ermənistanda Birinci Qarabağ müharibəsi zamanı qazanılmış uğur sonrası yaşanmış və uzun müddət davam etmiş eyforiya hissi fikrimizin sübutudur. Lakin indi başqa zamandır. Prezident İlham Əliyevin, əslində, vurğuladığı məhz budur.

Bəli, zaman başqadır, amma Azərbaycan-Ermənistan sərhədində Avropanın dırnaqarası müşahidəçiləri keşik çəkir, özlərini erməni xalqının hamisi qismində aparırlar. Halbuki belə “ampluaya” ehtiyac yoxdur. Elə Prezident İlham Əliyevin vurğuladığı da budur: “Mən o vaxt da demişəm, biz bir dənə güllə atsaq, onların dabanları parlayacaq, heç izi-tozu da qalmayacaq orada. Amma özlərini belə göstərirlər, guya ki, onlar Ermənistanı bizdən qoruyurlar. Bizdən Ermənistanı qorumaq lazım deyil. Biz istədiyimizə nail olmuşuq. Özünü Ermənistandakı tədbirdə yenə də yalançı qəhrəman kimi göstərmək ki, guya, onlar Azərbaycanın qabağını alıblar, yoxsa bu aqressiv, təcavüzkar Azərbaycan Ermənistanı məhv edəcəkdi. Hamısı cəfəngiyyatdır”.

Prezident İlham Əliyev Azərbaycanın Ermənistanı yer üzündən silmək planlarının olmadığını bildirərkən, qarşı tərəfdən hansısa təxribat əməlinin törədilməməsinin vacibliyi üzərində dayanıb. Çünki Avropanın, xüsusən Fransanın erməni təəssübkeşliyi, bir qayda olaraq, qızışdırıcı təxribat motivlərinə əsaslanıb. Yəni Paris eynilə Moskva kimi, Cənubi Qafqazda yaramaz “Qarabağ kartı” üzərində oyun oynayıb və Avropa Parlamentinin sərsəm qətnamələri fikrimizin sübutudur. Axı qurum Fransanın dirijor çubuğu ilə idarə olunur. Dirijor çubuğu ilə idarə olunanlar iddia edirlər ki, guya, Azərbaycan-Ermənistan sərhədində gərginlikdir, hər an müharibə alovlana bilər. Buna cəfəngiyyat deməyəsən, nə deyəsən?

Dövlətimizin başçısı fikirləri ilə belə məkrli oyunlara artıq meydan verilməyəcəyini bəyan edib: “Biz bilirik ki, Ermənistanın siyasi müstəvisində Azərbaycan xalqına, dövlətinə nifrətlə yaşayan kifayət qədər dairələr var və onlar hakimiyyətə gəlsə, bax, o zaman Ermənistan xalqının başı dərddə olacaq”.

Bəli, Azərbaycan daim ayıqdır və buna görə Makron kimi xarici ölkə liderlərinin fikirlərindəki ayrı-ayrı cəhətlərə həssas yanaşır. Ölkəmiz Cənubi Qafqazda böyük çətinliklər hesabına formalaşmış sülh və barış mühitini pozmaq təmayüllərinin mövcudluğundan ehtiyatlanmaqda haqlıdır. Necə deyərlər, göz gördüyündən qorxar. Amma biz qorxmur, sadəcə, Ermənistan daxilində son dövrlər yaranmış müsbət stereotiplərin sıradan çıxmasını istəmirik. Çünki sülh təəssübkeşiyik və onun region üçün çox böyük nemət olduğunun fərqindəyik.

Ermənistandakı müsbət stereotiplərə gəlincə, ölkənin Baş naziri Nikol Paşinyanın və komandası üzvlərinin apardıqları təbliğat ölkənin müstəqil dövlət imicini yaratmağa və sadə ermənilərin şüurlarına bu düşüncəni yeritməyə hesablanıb. Hər halda, indilik belə bir ovqat var. Bu düşüncə isə heç bir xarici qüvvələrə güvənməmək, onların regional siyasi alətlərinə çevrilməmək müqaviməti aşılamalıdır. Ən əsası, bu düşüncə qonşularla sülh və əmin-amanlıq şəraitində yaşamağı daha əzmlə təlqin etməlidir. Təlqin etməlidir ki, makronlar boğazdanyuxarı fikirləri ilə alqış qazanmasınlar. Çünki Emmanuel sifətlilər üçün səmimiyyət və sevgi tamamilə yad anlayışlardır...

Əlqərəz, Makronun Ermənistanda səsləndirdiyi fikirlər şübhə yaradır. O zaman görək Fransa lideri bu ölkədə olarkən nələrdən söz açmışdı. Bəri başdan bildirək ki, Makronun dediklərində müsbət məqamlar istisna deyil. Məsələn, o, Cənubi Qafqazın imperiyaların rəqabət meydanı olmasının yolverilməzliyini söylədi və vurğuladı ki, region Avropa, Asiya və Yaxın Şərq arasında körpüyə çevrilə bilər. Fransa lideri, həmçinin Azərbaycan və Türkiyə ilə sərhədlərin açılmasının vacibliyini qeyd etdi və Cənubi Qafqazda sülh, demokratiya və iqtisadi əməkdaşlıq çağırışı səsləndirdi. Çox gözəl. Məsələ ondadır ki, region klassik imperializmin, o cümlədən bu imperializmin daşıyıcısı olan fransız ritorikasının daşnak xislətli təzahür buxovundan qurtulmalıdır. Əgər Makronun bildirdiyi kimi, Ermənistan Avropaya üz tutubsa, bunun strateji seçim mahiyyəti, heç bir başqa niyyət güdmədiyi ciddi şəkildə əsaslandırılmalıdır. Əsaslandırmanı isə Makron yox, erməni iqtidarı etməlidir. Axı Fransa liderinə inam yoxdur.

Hətta öz ölkəsində belə inamı sarsılmış Yelisey sarayının hazırkı şefinin dilə gətirdiklərinin təhrik, Ermənistanın daxili işlərinə qarışmaq kimi qiymətləndirilmə ehtimalı böyükdür və bu, rəsmi İrəvan üçün zərərli tendensiyadır. Zərərin “ayaq səsləri”ni Rusiya rəsmilərinin yanaşmalarında eşitdik. Halbuki “Avropa Siyasi Birliyi”nin İrəvanda keçirilən VIII Zirvə toplantısında erməniləri müdafiə yüklü dramatizm yaradılmaya bilərdi. Amma yaradıldı və durumun ən böyük səbəbkarı elə Makronun özüdür. Fransa prezidenti izdiham önündə Rusiyanın Ermənistanı 2020 və 2023-cü illərdə tək qoyduğunu bağırdı və Moskvanın təhlükəsizlik zəmanətlərinin etibarlı olmadığını vurğuladı. Bu, nə deməkdir? O deməkdir ki, Ermənistan üçün Fransanın timsalında Qərbin təhlükəsizlik zəmanətləri daha faydalıdır. O zaman sual olunur: Erməniləri kimdən qorumaq lazımdır? Əlbəttə, ağla ilk gələn Azərbaycandır. Prezident İlham Əliyev də məhz buna görə yuxarıda diqqətə çatdırdığımız fikirləri səsləndirdi.

Əslində, Makronun erməni təəssübkeşliyi çox primitivdir. Məsələn o, uzaq 1988-ci ili yada salır. Məlum olduğu kimi, həmin il dekabrın 7-də Ermənistan SSR-də güclü zəlzələ olmuşdu. Təbii fəlakət əsasən Spitak və Leninakan, yəni hazırkı Gümrünü və ətraf bölgələri dağıtmışdı. Zəlzələ nəticəsində on minlərlə insan həlak olmuş, yüz minlərlə insan evsiz qalmışdı. Həmin vaxt Fransadan xilasedicilər, yanğınsöndürənlər və həkim briqadaları Ermənistana göndərilmiş, humanitar yardım kampaniyaları təşkil olunmuş, fransız-erməni əsilli müğənni Şarl Aznavur beynəlxalq yardım toplamaq istiqamətində aktiv fəaliyyət göstərmişdi. Makron çıxışında məhz bunları xatırladaraq, Fransanın Ermənistanla münasibətlərini emosional və tarixi kontekstdə təqdim etməyə çalışmışdı. Yəqin elə buna görədir ki, onun Ermənistana dövlət səfəri çərçivəsində Gümrüdə keçirilmiş tədbir “Musiqi körpüsü: Ermənistan–Fransa” konserti adlandı, vurğu Aznavurun fəallığı üzərinə qoyuldu.

Amma Fransa prezidentinin zəlzələ vaxtı ölkəsinin Ermənistana dəstəyi xüsusunda dedikləri o qədər də yerinə düşmür. Çünki o dönəmdə Qarabağda separatizmin baş qaldırmasına baxmayaraq, Azərbaycandan da Ermənistana yardımlar göndərilmişdi. Hərçənd, o dövrün şahidləri bildirirlər ki, əgər güclü zəlzələ olmasaydı, Ermənistanda azərbaycanlılara daşnaklar tərəfindən hazırlanmış qırğın planları qəddarlıqla reallaşacaq, onsuz da həyata keçirilmiş kütləvi deportasiya faciələrlə yadda qalacaqdı.

Yəqin, hay millətçilərinin Qarabağ məkri səbəbindən o dövrün Azərbaycanında Şarl Aznavur kimi “Pour toi Armenie” (“Sənin üçün, Ermənistan”) adlı xeyriyyə mahnısı bəstələyən tapılmadı. Halbuki əvvəlki mərhələdə “Kür, Araz, Ararat, gözəldir bu həyat” sözlü mahnılar olmuş və həmin vaxt ermənilərin yadına Fransa düşməmişdi. Yəni azərbaycanlılarla dinc şəraitdə ömür sürən hayları qorumaq kimi bədnam vəzifə müəyyənləşməmişdi.

Digər tərəfdən, Makrona 1988-ci ilin zəlzələsini yada salmasına görə, müəyyən mənada, haqq vermək mümkündür. Axı Fransanın Ermənistana real dəstəyi məhz onda olmuşdu. Əlbəttə, sonradan Qarabağ üzrə danışıqlar platformasına çevrilmiş və hazırda canını tapşırmış ATƏT-in Minsk qrupunun həmsədri kimi Fransanın Ermənistana dəstəyindən, rəsmi Parisin Azərbaycan torpaqlarının işğalda qalmasına çalışmasından xəbərdarıq.

Bəli, hazırda Fransa liderinin “1988-ci ilin dekabrında necə sizin yanınızda idiksə, indi də yanınızdayıq” deməsində məntiq yoxdur. O səbəbdən ki, indi Ermənistan faciəli durumda deyil. Müvafiq olaraq haylar üçün fəlakət qondarmağa ehtiyac yoxdur. Hərçənd, 2020-2025-ci illərdə Parisdə və Fransanın təhriki ilə “köhnə qitə”nin bir çox yerlərində yeni saxta soyqırımı uydurmalarına cəhdlərin göstərildiyini unutmur və belə cəhdləri Qarabağ avantürasını, obrazlı şəkildə desək, süni nəfəs aparatında saxlamaq istəyi sayırıq.

Sonda onu da deyək ki, Ermənistana rahat yaşamaq imkan verilməli, onun başı avantürizmlə doldurulmamalıdır. Yəni Makron ucuz sentimentalizmini özünə saxlasa, daha faydalı olar. Çünki erməni xalqına nə sentimental yüklü boş vədlər lazımdır, nə də çörək və tamaşa. Hay cəmiyyəti müstəqillik illərində boşboğazlıqları çox görüb.

Ermənistan üçün şərt olan real inkişaf və rifahdır. Bunun yolu isə sülhdən keçir. O sülhdən ki, onun da makronların dilindən səslənməsinə ehtiyac yoxdur. Çünki ötən müddət göstərir ki, onlar səmimi deyillər, fikirlərinin arxasında bəlli məkr dayanır. Buna görə də erməni xalqı keçmişin, hətta ən yaxın keçmişin dərslərindən nəticə çıxarmalıdır. Nəticə çıxarmalı və boşboğazların dediklərini bir kənara qoyub, səmimi şəkildə yalnız sülhə köklənməlidir.

*Əvəz CAHANGİROĞLU*
*XQ*

# Türkiyə – Ermənistan: “pıçıltılı ticarət”in ümid payı və...

*Yaxud Ankara üçün Bakı – İrəvan münasibətləri ardıcıllığı*

**Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanın seçicilərlə görüşdə əlinə səsgücləndirici götürüb çıxışa hazırlaşan ölkənin Baş naziri Nikol Paşinyanın qulağına pıçıldadığı, ətrafın da təfərrüatlarına az-maz vaqe olduğu məsələ bu idi: Türkiyənin Ermənistanla birbaşa ticarətin başlanması üçün hazırlıq işlərini başa çatdırması. Əlbəttə, bu, Türkiyə–Ermənistan normallaşması ilə bağlı çox yaxşı xəbərdir. Yəni Mirzoyanın bu xəbəri Paşinyana tələsik çatdırması məsələnin vacibliyindən qaynaqlanır.**

Bəli, həm Türkiyənin, həm də Ermənistanın Xarici İşlər Nazirliyinin məlumat mətnləri təsdiqlədi ki, Mirzoyanın Paşinyanın qulağına pıçıldadığı doğrudur. Amma məsələyə dair rəsmi Ankara tərəfindən yayılmış bəyanatın məxsusiliyi var. Birbaşa ticarətlə əlaqədar zəruri bürokratik prosedurların tamamlandığını açıqlayan Türkiyə XİN-dən bildirilib ki, iki ölkə arasında ümumi sərhədin açılması ilə bağlı işlər davam edir. Ən başlıcası: “Yeni qaydalara əsasən, artıq üçüncü ölkələr vasitəsilə Türkiyədən Ermənistana göndərilən mallar təyinat məntəqəsi və ya mənşə ölkəsi kimi Ermənistanı və ya Türkiyəni göstərə biləcək”. Türkiyənin xarici diplomatiya idarəsinin bəyanatında o da vurğulanıb ki, Ankara regionun bütün ölkələrinin və xalqlarının rifahı naminə Cənubi Qafqazda iqtisadi əlaqələrin və əməkdaşlığın inkişafına dəstək verməyə davam edəcək. Hesab edirik ki, sənəddəki ən mühüm məqam məhz budur və onun üzərində dayanacağıq. Hələlik isə Ermənistan XİN-in müvafiq məlumatına nəzər salaq. Axı Mirzoyan Paşinyanın qulağına pıçıldayanda məhz bu məlumatı hazırlamaq və yaymaq üçün icazə istəmişdi.



Beləliklə, Ermənistan XİN-in mətbuat katibi Ani Badalyan Türkiyənin Ermənistanla ikitərəfli ticarət yolundakı maneələri aradan qaldırması məsələsinə toxunaraq bildirib ki, bu, iki ölkənin tamhüquqlu və normal münasibətlərin inkişafı istiqamətində mühüm addımdır. “Türkiyənin Ermənistan Respublikası ilə ikitərəfli ticarət yolundakı maneələri aradan qaldırmaq qərarını alqışlayırıq. Bu qərar Ermənistan və Türkiyə arasında münasibətlərin normallaşması prosesinin növbəti nəticəsidir”, - deyən A.Badalyan əlavə edib ki, Ankaranın qərarı iki ölkənin ticarət və işgüzar əlaqələrinin genişləndirilməsi, regionda iqtisadi qarşılıqlı bağlılığın təşviqi, sülh və rifahın təmin edilməsi baxımından mühüm əhəmiyyət daşıyır. A.Badalyan, həmçinin hadisələrin məntiqi davamının sərhədin açılması və diplomatik münasibətlərin bərpası ola biləcəyini də xatırladıb.

Göründüyü kimi, Ermənistan sərhədlərin tam açılmasına can atır. Yəni rəsmi İrəvan qonşusu ilə ticarətin üçüncü ölkələr vasitəsilə deyil, birbaşa həyata keçirilməsində maraqlıdır. Türkiyə XİN-in bəyanatı ilə bağlı yuxarıda vacib məqam olaraq qeyd etdiyimiz “Cənubi Qafqazda iqtisadi əlaqələrin və əməkdaşlığın inkişafına dəstək verməyə davam” tezisinə gəlincə, bu, Türkiyə–Ermənistan normallaşmasının mərhələli xarakter daşıdığının göstəricisidir. Bütün mərhələlərin geridə buraxılması isə Bakı–İrəvan münasibətlərinin dinamikasından asılıdır. Baxın, Azərbaycan Ermənistanla üçüncü dövlət, yəni Gürcüstan vasitəsilə ticarəti gerçəkləşdirir, Türkiyə də eyni addımı atır. Yəni hələlik birbaşa təmas yoxdur və Ankara ardıcıllığı qoruyur. Nəzərə alaq ki, Türkiyəyə ehtiyac duyan Ermənistandır. Çünki ikinci birinci vasitəsilə dənizə çıxış imkanı qazanır. Ankaranın böyük marağı isə Cənubi Qafqazdır. Daha doğrusu, regionda ticarət. Hərçənd, məsələni sırf ticarət amili üzərində qurmaq düzgün sayılmaz. Türkiyə regional kommunikasiyaların dinamik fəaliyyət məcrasına qədəm qoymasında, ümumən, Orta Dəhlizin işə düşməsində maraqlıdır. Ona görə də ölkə rəsmiləri, bir qayda olaraq, Zəngəzur dəhlizi ideyası üzərində dayanırlar. Yəni Ankara üçün Azərbaycanla Ermənistan arasında ötən ilin avqustunda Vaşinqtonda imzalanmış Birgə Bəyannamədə əksini tapmış “Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu”, yaxud qısaca TRIPP məntiqi yox, bilavasitə Zəngəzur dəhlizi seqmenti önəmlidir. Çünki başlıca məqam Naxçıvana maneəsiz yoldur. O yol ki, açılması Ermənistanın 2020-ci ildən bəri üzərinə götürdüyü, amma yerinə yetirmədiyi öhdəlikdir. O yol ki, ideoloji planda, bütövlükdə, Türk dünyasının birləşdirilməsi ideyasını rəhbər tutur. Hazırkı dövrdə vaxtilə bir-birindən ayrı düşmüş coğrafi məkanın sırf iqtisadi zəmindəki vəhdəti əsasdır və bu, Ermənistan üçün də sərfəlidir. Qalır ölkənin mövcud reallığın dərkindən irəli gələn gerçək fəaliyyəti reallaşdırması.

Sonda ümumiləşdirmə apararaq belə qənaətə gəlmək mümkündür ki, Ankara xoş niyyətini son dərəcə aydın mesajı və prinsipial yanaşması ilə ortaya qoydu və şübhəsiz, bu yanaşmadan qaynaqlanmış digər addımların atılması mümkündür. Ermənistanla üçüncü ölkələr vasitəsilə də olsa, qarşılıqlı ticarət dövriyyəsinə başlanılmasına dair Türkiyə dövlətinin tarixi qərarının məntiqi davamının olub-olmaması isə məhz rəsmi İrəvandan asılıdır. Nəzərə alaq ki, Ermənistanla sərhədin açılması zərurətində haqqında söz açdığımız Zəngəzur dəhlizi amilinə söykənmiş Türkiyənin qonşusunun ucuz işçi qüvvəsinə, yaxud konyakına, əriyinə ehtiyacı yoxdur.

*Ə.RÜSTƏMOV*
*XQ*

# Qəddarlaşmış işğalçılar meşəmizə, çayımıza da qənim kəsilibmişlər...

## *Hayların Qarabağda törətdikləri ekosid təbiətin ürəyinə sancılmış paslı xəncərdir*

**Ermənistanın 30 illik işğalı nəticəsində Qarabağ və ətraf rayonlarda meşələr qırılıb, yanğınlar törədilib, mədən sənayesi genişlənib və su hövzələri çirkləndirilib. Bu proseslər bir-biri ilə bağlı şəkildə həm təbii landşaftı, həm də bioloji və su sistemlərini dəyişdirib. Proseslər təkcə təbii resurs itkisi ilə məhdudlaşmır, eyni zamanda, regionun uzunmüddətli ekoloji sabitliyini də ciddi şəkildə zəiflədib.**

Rəsmi ekoloji qiymətləndirmələrə görə, Qarabağ bölgəsi Azərbaycanın ən zəngin meşə zonalarından biridir. Bu ərazilərdə, təxminən, 260 min hektar meşə fondu mövcud olub və bunun da 25 faizi məhv edilib. Azərbaycan Prezidenti İlham Əliyev işğal dövründə törədilən bu ekoloji terroru xarakterizə edərək bildirib: “İşğal dövründə ermənilər bizim 60 min hektardan çox meşə fondumuzu, o cümlədən Avropanın ən böyük çinar meşəsi olan Bəsitçay qoruğunu məhv etmişlər. Ekosid, talançılıq, düşmənçilik, qəddarlıq törətmişlər”. Meşə örtüyünün süni şəkildə azaldılması təkcə iqtisadi mənfəət məqsədi daşımayıb, həm də torpaq, su və bioloji sistemlərin paralel deqradasiyası – məqsədyönlü ekosiddir.



2012–2016-cı illərdə meşələrin qırılmasının intensivliyi Ermənistandakı göstəricilərdən 2,3 dəfə yüksək olub, 2014–2018-ci illərdə 404 min 800 kubmetr, 2017-ci ildə isə təkcə 102 min 488 kubmetr meşə ehtiyatı məhv edilib. Bu, artıq lokal deyil, sistematik ekoloji təzyiq modelini ortaya qoyur.

Topxana meşəsi və Şuşa ətrafındakı meşə massivləri ekoloji vəhşiliyin qurbanı olub. Burada 2 mindən artıq qiymətli ağac növləri kütləvi şəkildə qırılıb, müxtəlif məqsədlərlə istifadə edilib.

Bəsitçay Dövlət Təbiət Qoruğu da Azərbaycanın nadir təbiət sərvətlərindən biridir və Şərq çinarı meşələrinin qorunması məqsədilə yaradılıb. Bu qoruq uzun illər təkcə ölkə daxilində deyil, həm də regional miqyasda unikal ekosistem sayılıb. Xüsusilə Bəsitçay çayı vadisi boyu formalaşmış çinar meşələri öz sıxlığı və ekoloji dəyərinə görə “Avropanın ən böyük çinar meşəsi” kimi təqdim edilib. Uzun illər nəzarətsiz qalan qoruq ərazisində çinar meşələrinin çox hissəsi məhv edilib. Bu isə təbii regenerasiya proseslərinin zəifləməsinə səbəb olub.

**AMEA Coğrafiya İnstitutunun torpaq ehtiyatları coğrafiyası şöbəsinin müdiri İsmayıl Quliyev** XQ-yə bildirdi ki, Bəsitçay qoruğunun əsas dəyəri onun çinar ekosistemi ilə birbaşa bağlılığıdır: “Şərq çinarı uzunömürlü və geniş kök sistemi olan ağac növüdür və bu tip meşələr yalnız fərdi ağaclardan ibarət deyil, bütöv hidroloji və torpaq balansına əsaslanan mürəkkəb ekosistemlərdir. Qoruqda bu balansın pozulması, çinarların seyrəkləşməsi və bəzi sahələrdə meşə örtüyünün parçalanması ekoloji sabitliyə birbaşa təsir göstərib. Nəticədə, torpaq eroziyası riski artıb, çay vadisinin təbii su rejimi zəifləyib və biomüxtəlifliyin strukturunda dəyişikliklər yaranıb”.

Onun sözlərinə görə, su balansındakı ən kiçik dəyişiklik belə onların inkişafına və davamlılığına birbaşa təsir göstərir: “Bu səbəbdən qoruqda müşahidə olunan deqradasiya uzunmüddətli ekoloji nəticələr doğurub”.

Ağdam rayonu da işğal dövründə ciddi ekoloji itkilərlə üzləşib. Burada yüzillik Şərq çinarları məhv edilib, 732 hektar püstə meşəsi sıradan çıxarılıb, geniş otlaq sahələri yandırılıb. Nəticədə, həm landşaft dəyişib, həm də fauna üçün yaşayış mühiti zəifləyib. Xocavənd və Füzuli rayonlarında da oxşar vəziyyət müşahidə olunub. Ağdərə rayonunda mədən istismarı ilə bağlı yüzlərlə hektar meşə sahəsi məhv edilib. “Dəmirli” dağ-mədən kompleksinin tikintisi zamanı təxminən 82 hektar meşə örtüyü sıradan çıxıb. Bununla paralel olaraq, işğal dövründə genişmiqyaslı meşə yanğınları törədilib. Bu yanğınlar 110 min hektara yaxın ərazini əhatə edib. Ümumiyyətlə, meşələrin qırılması, ağac kəsimi və tikinti və mədənçilik yolu ilə çirklənməsi Azərbaycanda 500-dən çox vəhşi təbiət növünü risk altında qoyub.

* * *

Ermənistan ərazisindən gələn çirklənmiş sular Araz hövzəsinin əsas ekoloji risk mənbəyidir. Bu çirklənmənin əsas hərəkətverici qüvvəsi Ermənistanın Meğri, Qacaran və Qafan zonalarında intensiv fəaliyyət göstərən dağ-mədən sənayesidir. Həmin müəssisələrdən təmizlənmədən axıdılan sənaye tullantı suları Oxçuçay vasitəsilə birbaşa Araz sisteminə qarışır və nəticədə kimyəvi çirklənmə çayın aşağı axını boyu geniş bir coğrafiyaya yayılır. Oxçuçaydan Araz hövzəsinə daxil olan sənaye tullantılarında mis, molibden, sink, qurğuşun, arsen və digər toksiki ağır metalların yüksək konsentrasiyası qeydə alınır. Aparılan rəsmi monitorinqlər bəzi hallarda suda misin miqdarının normadan 25–50 dəfə, zəhərli fenolların isə 6–15 dəfə artıq olduğunu müəyyən edib. Bu fəlakətli göstəricilər su ekosisteminin bioloji balansının ciddi şəkildə pozulduğunu və ərazidə artıq yalnız təbii aşınma deyil, dərin kimyəvi deqradasiya prosesinin getdiyini göstərir.

Bu destruktiv proses çayın aşağı axınında yerləşən Azərbaycan ərazilərində kənd təsərrüfatı və suvarma üçün istifadə olunan suyun keyfiyyətinə də birbaşa, dağıdıcı təsir göstərir. Çirklənmiş su ilə



suvarma nəticəsində torpaq qatında ağır metalların kütləvi toplanması baş verir ki, bu da ekosistemdə uzunmüddətli toksikoloji risklər formalaşdırır. AMEA Radiasiya Problemləri İnstitutunun əməkdaşları beynəlxalq layihə çərçivəsində İmişli və Saatlı rayonlarında, eləcə də Arazboyu yerləşən Qaravəlli, Bəcirəvan, Qaralar və digər kəndlərdə torpaq, su və kənd təsərrüfatı məhsullarını ekogenetik baxımdan geniş tədqiq ediblər. Laborator analizlərin nəticələrinə əsasən, Araz çayı suyunda, dib çöküntülərində, qrunt sularında və əkin sahələrində dəmir, manqan və molibden kimi elementlərin konsentrasiyasının normadan kəskin dərəcədə artıq olduğu sübut edilib. Xüsusilə yerli əhalinin gündəlik məişətdə istifadə etdiyi quyu sularında molibdenin miqdarının normadan 50–100 dəfə çox olduğu aşkarlanıb ki, bu da insan və heyvan orqanizmində metabolik proseslərin pozulması üçün birbaşa patoloji risk yaradır.

Torpaq və otlaq sahələrindəki ağır kimyəvi çirklənmə dərəcəsi ilə paralel olaraq, həmin regionlarda aparılan tibbi-ekoloji monitorinqlər zamanı yerli əhali arasında mədə-bağırsaq, ürək-damar və onkoloji xəstəliklərin artması müşahidə edilib. Çünki ağır metallar və radionuklidlər torpaqdan bitkiyə, oradan isə heyvan və insan orqanizminə keçərək qida zəncirində akkumulyasiya olunur. Bu elementlərin bioloji zəncirdə uzunmüddətli toplanması isə gələcək nəsillərdə genetik mutasiyalar və ağır xroniki patologiyalar yaradır. Araz hövzəsində yaranmış bu ekoloji və sağlamlıq riskləri problemin artıq lokal deyil, regional təhlükəsizlik xarakteri daşıdığını göstərir.

Beləliklə, bütün bu amiləri bir araya gətirdikdə, Qarabağ və ətraf bölgələrdə baş verən proseslərin lokal ekoloji pozuntular deyil, sistemli ekosid xarakterli fəaliyyətlər olduğu görünür. İşğalçılar meşələrimizə, çaylarımıza qarşı da düşməncəsinə, qəddarlıqla davranmışlar. Bu, biomüxtəlifliyin sürətlə azalması və meşə landşaftının deqradasiyasına, su resurslarının kimyəvi, sənaye və potensial radioaktiv çirklənməsinə səbəb olub. Araz çayı və Qarabağ ekosistemində yaşananlar sübut edir ki, təbiətə edilən dağıdıcı müdaxilələr coğrafi sərhədləri aşaraq regional və qlobal fəsadlar doğurur. Qlobal iqlim dəyişikliyi və şirin su ehtiyatlarının məhdudlaşdığı müasir şəraitdə bu problemlər artıq yalnız lokal ekoloji məsələ deyil, milli və strateji təhlükəsizlik problemidir.

Sonda onu da qeyd edək ki, Ermənistanın təbiətimizə və biomüxtəlifliyə vurduğu ekoloji ziyanın həcmi 244,4 milyard dollar səviyyəsində ölçülür.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Ermənistanı fəlakətə sürükləmiş cani “xilaskar” cildində

## *Məğlubların qisas cəhdi cəmiyyətdə müharibə vahiməsi yaradıb*

**Ermənistanın ikinci prezidenti, “Hayastan” blokunun hazırda baş nazir postuna namizədi Robert Koçaryan mayın 13-də Şirak vilayətinin Artik şəhərinin sakinləri ilə görüşdə bildirib ki, Baş nazir Nikol Paşinyanın təqdim etdiyi sülh yalnız qarşı tərəf, yəni Azərbaycan üçün sərfəli olduğu vaxta qədər davam edəcək. Paşinyanın 2018-ci ildə verdiyi vədlərin heç birini yerinə yetirmədiyini deyən Koçaryanın sözlərinə görə, verilən vədlərin qarşılığı müharibə, itkilər və insan faciələri olub.**

“Vəziyyət o qədər absurddur ki, daha məntiq çərçivəsinə sığmır. Hakimiyyət bütün məsuliyyəti keçmiş rəhbərlərin və başqa şəxslərin üzərinə atmağa çalışır, lakin o özü – Paşinyan günahkar deyil. Siz bu yolla getməyə hazırsınızmı? Mən hazır deyiləm. Bizim komandamız mübarizəyə qoşulub və verdiyimiz vədlərin hamısını yerinə yetirmişik”. Daha sonra eks-prezident xatırladıb ki, 2021-ci ildə İrəvandakı Fransa meydanında keçirilən etiraz aksiyaları baş nazirin Qarabağ məsələsində güzəşt zərurətindən danışmasından sonra başlayıb. Koçaryanın sözlərinə görə, onlar prosesin hansı nəticələrə gətirib çıxaracağını anlayaraq mübarizəyə başlayıblar, lakin kifayət qədər dəstək ala bilməyiblər: “Daha sonra o getdi (Koçaryan bunu deyərkən Ermənistan və Azərbaycan liderlərinin 2022-ci il oktyabrın 6-da Praqada “Avropa Siyasi Birliyi”nin ilk sammiti çərçivəsində keçirilmiş görüş zamanı Alma-Ata Bəyannaməsi əsasında qarşılıqlı olaraq ölkələrin ərazi bütövlüyünü tanımasını nəzərdə tutur–S.H.) və “Dağlıq Qarabağı” Azərbaycanın tərkib hissəsi kimi tanıdı. Bununla da yeni geriçəkilmə mərhələsi başladı. Əgər Paşinyan 2026-cı ildə yenidən seçilərsə, artıq Sünik məsələsi sual altında olacaq. Onların danışdığı sülh əsl sülh deyil, zəmanətlər olmadan bu vəziyyət yalnız qarşı tərəf üçün sərfəli olduğu müddətcə davam edəcək. Biz bununla razılaşa bilmərik və ümid edirik ki, xalq da üçüncü belə mərhələ ilə razılaşmayacaq və kiminlə üz-üzə olduğunu anlayacaq”. Onun sözlərinə görə, əgər insanlarda qürur hissi və övladlarının gələcəyi ilə bağlı narahatlıq varsa, Paşinyanın qarşısını almaq lazımdır.

* * *

Qarabağdakı etnik separatizm ocağını körükləyənlərdən biri, haqlı olaraq, Xocalı cəlladı adlandırılan R.Koçaryanın seçkiqabağı təşviqat kampaniyası çərçivəsində etdiyi bu çıxışı Ermənistan daxilində uzun illərdir davam edən siyasi qarşıdurmanın növbəti təzahürü kimi qiymətləndirilə bilər. Onun nitqində əsas xətt hakimiyyətin təhlükəsizlik siyasətini tənqid etmək və cəmiyyətdə qorxu atmosferi yaratmaq üzərində qurulub. Bununla belə, səsləndirilən ittihamların böyük hissəsi emosional siyasi ritorika xarakteri daşıyır və konkret faktlarla əsaslandırılmır.

Heç kəsə sirr deyil ki, Koçaryan Ermənistan siyasətində keçmişin qalıqlarından biri hesab olunur. O, 1998-ci ildə ölkənin birinci prezidenti Levon Ter-Petrosyanı istefaya məcbur edib Ermənistanda hakimiyyəti qəsb etdikdən sonra onu 10 il öz əlində saxladı. Sonra isə əlaltısı, Qarabağ klanının digər üzvü Serj Sarkisyana təhvil verdi. Onların 20 illik idarəçiliyi korrupsiya, oliqarxiya sistemi, iqtisadi monopoliyalar və sosial bərabərsizliklə yadda qalıb. Ermənistan cəmiyyətində onun hakimiyyəti illəri azad rəqabətin məhdudlaşdırılması, siyasi repressiyalar və iqtisadi resursların dar çevrələrin nəzarətinə keçməsi ilə assosiasiya edilir. Yada salmaq yerinə düşər ki, məhz həmin dövrdə Ermənistanın bir sıra iri sənaye müəssisələri müxtəlif sxemlərlə forpostuna çevirdikləri dövlətin nəzarətinə keçmişdi. “Hrazdan” istilik elektrik, “Metsamor” atom elektrik stansiyalarının, ölkənin elektronika sahəsində ən böyük sənaye müəssisələrindən biri olan “Mars” zavodunun, Ermənistan Elektrik Şəbəkəsinin, Ermənistan Dəmir Yollarının, “ArmRosQazprom” şirkətinin, “Alaverdi” metallurgiya kompleksinin, Zəngəzur mis-molibden kombinatının və digər strateji müəssisələrin 2001-ci ildə Ermənistanın Rusiyaya olan dövlət borcunu ödəmək üçün hökumətlərarası “Borc üçün əmlak” müqaviləsi çərçivəsində Rusiyaya təhvil verilməsi iqtisadçılar tərəfindən böyük səhv hesab olunur. Bu məsələ ölkənin iqtisadi müstəqilliyi ilə bağlı ciddi müzakirələr yaradıb və Ermənistan daxilində tez-tez dövlət maraqlarının zəiflədilməsi kimi qiymətləndirilir.

Koçaryanın siyasi bioqrafiyasının ən qara səhifələrindən biri isə 2008-ci il martın 1-də baş verən hadisələr hesab olunur. Həmin dövrdə seçkinin nəticələrinə din etirazlarının güc yolu ilə dağıdılması nəticəsində 10-dan çox insanın ölümü ilə nəticələnən hadisələr Ermənistan tarixində dərin iz buraxıb. Bu məsələ illər boyu həm beynəlxalq təşkilatlar, həm də Ermənistan daxilində hüquqi və siyasi müzakirələrin predmetinə çevrilib. Yeri gəlmişkən, mayın 14-də jurnalistlər üçün brifinq keçirən N.Paşinyan 2008-ci il martın 1-də baş verən hadisələrlə bağlı bütün faktların mövcud olduğunu bildirib və təqsirkar şəxslərin məsuliyyətə cəlb edilməsinin vacibliyini vurğulayıb. Baş nazir deyib: “Avropa İnsan Hüquqları Məhkəməsinin qərarı var və həmin qərarda açıq şəkildə göstərilir ki, 2008-ci il 1 mart hadisələri dövlət tərəfindən təşkil olunub. Buna müvafiq reaksiya verilməlidir”. Paşinyanın sözlərinə görə, cəmiyyətdə bu iş üzrə təqsirkarların cəzalandırılması ilə bağlı ciddi gözlənti mövcuddur: “İnsanlar məndən cavab tələb edir və cəmiyyətdə belə təəssürat yaranır ki, guya mən hansısa pərdəarxası razılaşmalar səbəbindən Robert Koçaryan



və Qaqik Sarukyana qarşı yumşaq mövqe sərgiləyirəm. Mən isə deyirəm ki, ədalət bərqərar olmalıdır”.

Belə bir siyasi keçmişə malik şəxsin bu gün yenidən cəmiyyət qarşısında xilaskar obrazında çıxış etməsi Ermənistan daxilində birmənalı qarşılanmır. Ermənistanla azçox maraqlanan analitiklər hesab edirlər ki, ölkənin mövcud problemlərinin təməli məhz əvvəlki hakimiyyətlər dövründə qoyulub. Bu səbəbdən Koçaryanın bugünkü ittihamları bir çox hallarda ictimaiyyət tərəfindən siyasi revanş cəhdi kimi qəbul edilir. Ermənistan cəmiyyətində yeni siyasi yanaşmalar, daha şəffaf idarəçilik və gələcəyə hesablanan proqramlara ehtiyac olduğu barədə fikirlər geniş yayılıb. Keçmiş hakimiyyət nümayəndələrinin yenidən eyni ritorika ilə gündəmə qayıtması isə ölkədə siyasi böhranın davam etdiyini göstərən amillərdən biri kimi qiymətləndirilir.

Onu da bildirək ki, Koçaryanın Paşinyanı gözdən salmaq, özünü isə necə deyərlər, təmizə çıxarmaq üçün etdiyi bütün cəhdlərə baxmayaraq, onun reytinqi aşağı olaraq qalır. Məsələn, “Respublika naminə” partiyasının sədr müavini Ruben Mehrabyan parlament seçkilərində hakim “Mülki müqavilə” partiyasının uğur qazanacağını, Koçaryan blokunun isə fiaskoya uğrayacağını proqnozlaşdırır. Mehrabyan deyib ki, ümumiyyətlə, R.Koçaryan haqqında danışmağa dəyməz: “Çünki o, nəinki deputat mandatına layiq deyil, ümumiyyətlə, bugünkü Ermənistanda yaşamağa belə layiq deyil, onu harasa, məsələn, Rusiyaya göndərmək lazımdır”.

Bununla belə, Mehrabyan qeyd edib ki, seçkiqabağı kampaniya çox dinamik prosesdir və iyunun 7-dək siyasi mənzərənin necə dəyişəcəyini dəqiq söyləmək mümkün deyil: “Biz yalnız sosioloqların istifadə etdiyi yanaşma ilə danışa bilərik: əgər seçkilər yaxın günlərdə keçirilsəydi, insanlar necə səs verərdilər? Mən bir neçə sorğu ilə tanış olmuşam. Bəli, şübhəsiz ki, hazırda lider mövqedə “Mülki müqavilə” dayanır. Samvel Karapetyanın partiyası (“Güclü Ermənistan”), Qaqik Sarukyanın partiyası (“Çiçəklənən Ermənistan”) da keçir. Bir sıra partiyalar isə keçid həddinin sərhədindədir və onların parlamentə düşüb-düşməyəcəyi hələ dəqiq deyil. Elə partiyalar da var ki, ümumiyyətlə, keçməyəcək. Məsələn, Koçaryanın rəhbərlik etdiyi siyasi qüvvə blok formatındadır və bu o deməkdir ki, onlar üçün keçid baryeri 4 deyil, 8 faizdir. Məncə, bu amil onun iyunun 7-də parlamentə düşmək şanslarını ciddi şəkildə azaldır. Amma bu, seçici meyillərinin dinamikası ilə bağlı şəxsi qənaətimdir”.

***Səxavət HƏMİD***
***XQ***

# Yeni Cənubi Qafqaz gerçəkliyi

**II MƏQALƏ**



## Qafqazda sülh gündəliyi

Məsələnin geosiyasi mahiyyəti dərindir. Çünki müasir tarixi mərhələdə qalıcı (davamlı) sülhə real əsaslarla nail olmaq mütləq şərtdir. Ən güclü dövlət belə təməli sağlam olmayan üsulla regional sülhü təmin edə bilməz. Maksimum, müvəqqəti sakitlik yarana bilər, ancaq o da daxili "regional siyasi fluktuasiyalar" (regional təlatümlərin sinergetik ifadəsi) sayəsində sona çata bilər. Cənubi Qafqazın son 300 ildə tarixi bunu tam təsdiq edir.

Deməli, regional sülhün təmini özlüyündə sistemlilik, əsaslılıq və ədalətlilik tələb edən siyasi-diplomatik "elm"dir. Məhz bu baxımdan Cənubi Qafqazın sülh gündəliyində bu coğrafiyada yerləşən hər bir dövlətin təcrübəsinin əhəmiyyəti vardır. Onun 2 aspekti hazırda çox aktualdır.

Birincisi, Cənubi Qafqazda yerləşən dövlətlərin dövlətçilik ənənəsinin başlıca geosiyasi və siyasi özəllikləri.

İkincisi, həmin dövlətlərin kənardan xüsusi məqsədlərlə edilən təsirlərə qarşı dayanıqlılıq səviyyəsi.

Bu iki aspektin vəhdəti fövqəladə siyasi anlama malikdir. Çünki son yüzillərdə bu region o dərəcədə kənar sifarişlərin meydanı olmuşdur ki, real mənzərəni müəyyən etmək asan deyildir. İmperialist qüvvələr öz maraqlarını region xalqlarının milli maraqları pərdəsi altında buradakı cəmiyyətlərə sırımışlar. Bunun fonunda isə region xalqlarının ənənəsinə yuxarıdan baxmışlar. Nəticədə hələ də Cənubi Qafqaz xalqları bir güvənsizlik sindromunu yaşayırlar. Onun aradan qaldırılması isə yalnız yerli dövlətlərin regionun sülh gündəliyini siyasi təcrübə əsasında müəyyən etməsi sayəsində qalıcı olaraq baş tuta bilər.

Bu tezisin semantik gücü işığında Azərbaycanın təcrübəsinə baxaq.

## Azərbaycan təcrübəsi: regional sülhün baza faktorları

Azərbaycan Prezidenti İlham Əliyev, faktiki olaraq, Cənubi Qafqazda davamlı sülh mühitinin formalaşdırılmasının konseptual xüsusiyyətləri ilə praktiki reallaşmasının vəhdətini yaratmışdır. Bizcə, onun üç əsas istiqaməti mövcuddur.

Birincisi, Azərbaycan Prezidenti tərəfindən sülh gündəliyinin geosiyasi səviyyədə konseptual aspektdə müəyyən edilməsi. Bununla bağlı dövlət başçısı "Keçid dövründə olan dünyada fikir ayrılıqlarının aradan qaldırılması" mövzusunda keçirilmiş XIII Qlobal Bakı Forumunda ifadə etdiyi aşağıdakı fikirlər istiqamətverici rol oynayır. Prezident İlham Əliyev demişdir: "Regional təhlükəsizlik Azərbaycan üçün hər zaman bir nömrəli məsələ olub. Çünki mən Bakıda bir çox forumlardakı çıxışlarımda qeyd etmişəm ki, işğal dövründə bizim üçün sülh və suverenliyimizin bərpası hər zaman gündəliyimizin əsas prioriteti olub".

Bu qiymətli fikirlərdən iki nəticə çıxara bilərik. Birincisi, Azərbaycan özünün real təcrübəsi əsasında regional sülh məsələsinə nəzəri-konseptual yanaşmanın baza prinsiplərini müəyyən etmişdir. Öncəki mərhələlərdən bu yanaşmanın fərqi ondan ibarətdir ki, ilk dəfədir region dövlətlərindən biri yaşadığı acı təcrübəni regional miqyasda sülh mühitinin yaranması kontekstində konseptual səviyyədə dərk etməyə çalışmışdır.

İkincisi, praktiki aspektə proyeksiyada Azərbaycan təcrübəsində sülh suverenliyin mütləq surətdə təmini bağlantısı kontekstində reallaşdırılmağa çalışılmışdır. Yəni regionun lider dövləti sülhü özünün milli maraqları (suverenliyi, ərzi bütövlüyü, müstəqilliyi) təməli üzərində bərqərar etmək kursunu seçmişdir.

Bu artıq Cənubi Qafqazın "geosiyasi ruhu" ilə yanaşı, praktiki geosiyasi dinamikasını və ümumi geosiyasi mənzərəsini yeniləşdirmək deməkdir. Onların sintezi ümumilikdə regiona yeni düzən, geosiyasi, siyasi və iqtisadi dəyər gətirir. İndi regionun yenidən qurulmasından bəhs edənlər bilməlidirlər ki, Azərbaycanın vurğuladığımız mənada sistemli, düşünülmüş nəzəri-konseptual əsasda sülh gündəliyi olmasa idi, vəziyyət tamamilə başqa cür olardı. Onun siyasi iradə, liderlik cəsarəti və sülhə sadiqlik aspektlərinin əhəmiyyəti vurğulanan son tezisin semantik işığında aydın görünür. Bununla bağlı Azərbaycan dövlət başçısının aşağıdakı fikirləri tam yerindədir. Prezident İlham Əliyev demişdir: "Xoşbəxtlikdən, biz artıq sülh şəraitində yaşayırıq, hələlik cəmi yeddi aydır. Bu, bir daha göstərir ki, sülh və ədalət uğrunda güclü siyasi iradə, cəsarət və sadiqlik nümayiş etdirmək kifayətdir ki, məqsədə nail olunsun. Bizə gəldikdə, suverenliyimizin və ərazi bütövlüyümüzün bərpası illər, təqribən 30 il çəkdi. Bunu BMT Nizamnaməsi, onun 51-ci maddəsində nəzərdə tutulmuş özünümüdafiə hüququ çərçivəsində həyata keçirdik".

Buradan İlham Əliyevin regional miqyasda sülh gündəliyinin çox mühüm konseptual və praktiki cəhətinin dərkinə keçid edə bilərik. Həmin keçidin semantik və məntiqi anlamı "Azərbaycanın siyasi təcrübəsi" ifadəsi ilə bağlıdır.

## Siyasi təcrübə regional sülhyaradıcı faktor kimi

Cənubi Qafqaz üçün məsələnin bu cür qoyuluşunu XXI əsrdə geosiyasi, siyasi və diplomatik praktikaya Prezident İlham Əliyev gətirmişdir. Onun başlıca anlamı Cənubi Qafqazda davamlı (qalıcı) sülh mühitinin formalaşmasında əsas təminedici faktorun yerli dövlətlərin siyasi təcrübəsinin olması ilə əlaqəlidir. Lakin Azərbaycan dövlət başçısının mühüm hesab etdiyi bir şərti mütləq surətdə nəzərə almaq gərəkdir.

Məsələ onunla bağlıdır ki, yerli dövlətlərin sülh təcrübəsi əsaslı sülhyaradıcı təcrübə olmalıdır. Yəni hər bir sülh təcrübəsi davamlı regional sülh mühiti yaratmaya da bilər. Nəzəri olaraq həmin təcrübə mükəmməl təsiri bağışlayar. Ancaq praktikada müsbət nəticə verməyən siyasi təcrübə real sülhyaradıcı rolunu oynaya bilməz.

Belə alınır ki, Azərbaycan Prezidentinin regional sülhyaradıcı siyasi təcrübə anlamı yüksək nəzəri-konseptual sistemliliklə yanaşı, praktiki müsbət nəticə almağa imkan yaradan işlək və realpolitikaya uyğun feili səmərəliliyi də ehtiva etməlidir.

Vurğuladığımız məqamların prizmasında onun semantik strukturuna və funksional imkanlarına baxaq.

## İşğal şəraitində yaşamaq təcrübəsi

Regional sülhün təməlini hansı faktor təşkil edir? Bu sualın universal cavabı mövcud deyildir. Cənubi Qafqaz üçün isə ayrıca mənası vardır. Çünki regional sülhə başlıca maneə kənar dəstəklə regionun bir dövlətinin digərinin ərazisini işğal etməsindən ibarət idi. Avtomatik belə bir nəticə alınır: Cənubi Qafqazda sülhü təmin etmək üçün öncə həmin işğal faktını aradan qaldırmaq lazım gəlir. Burada beynəlxalq hüquq əsasında müəyyən beynəlxalq təşkilatın fəaliyyəti aktuallaşırdı. Lakin təcrübə göstərdi ki, Ermənistanın işğal etdiyi Azərbaycan torpaqlarından çıxmaq niyyəti yoxdu və hətta yeni torpaqlar zəbt etmək iddiası vardı. Vasitəçilik edənlər də gizli surətdə məhz işğalçını dəstəkləyirdilər.

Belə bir vəziyyətdə yeganə çıxış yolu kimi Azərbaycanın öz gücünə ərazi bütövlüyünü bərpa etmək variantı qalırdı. Bu prosesin siyasi təcrübə səviyyəsinə yüksəldilməsi artıq Azərbaycan liderinin fəaliyyətinin mühüm bir aspektini ifadə edir. Onu dolğun şəkildə Prezident İlham Əliyev aşağıdakı məzmunda ifadə etmişdir: "Biz işğal olunmuş əraziləri güc vasitəsilə azad etdik və sülhə siyasi yollarla nail olduq. Beləliklə, biz dünya miqyasında nadir bir təcrübəyə malikik - milyonlarla insanın etnik təmizləməyə məruz qaldığı işğal şəraitində yaşamaq təcrübəsi".

Buradan çıxarıla biləcək siyasi nəticə maraqlıdır.

Birincisi, aydın olur ki, Azərbaycan işğal olunmuş əraziləri güc tətbiq etmək yolunu sülh naminə və məcburən seçmişdir. Gücü başqa əraziləri işğal etmək niyyəti ilə deyil, öz ərazi bütövlüyünü bərpa etmək məqsədilə tətbiq etmişdir.

İkincisi, bu kursun fundamentini 3 səviyyəli fəaliyyət təşkil edir – birincisi, güc tətbiqi sayəsində ərazi bütövlüyünü bərpa etmək, ikincisi, güc tətbiqi faktorundan əldə edilən nailiyyətlər kontekstində məğlub olmuş təcavüzkarla sülhə nail olmaq üçün xüsusi siyasi-diplomatik "addımlar alqoritmini" hazırlamaq, üçüncüsü, iki mərhələdə əldə edilən nəticələri "milyonlarla insanın etnik təmizləməyə məruz qaldığı işğal şəraitində yaşamaq təcrübəsi" səviyyəsində sistemləşdirib vahid konseptual formaya salaraq, ona konkret siyasi məzmun vermək.

## Sülhə keçid ikinci təcrübə kimi

Bu prosesin öncədən bütün detallarının Azərbaycan Prezidenti tərəfindən siyasi təcrübə səviyyəsində müəyyən edildiyi dövlət başçısının aşağıdakı fikirlərindən tam aydın olur.

Dövlət başçısı XIII Qlobal Bakı Forumunda ifadə etmişdir: "Daha sonra 2020-ci ilin 44 günlük Vətən müharibəsi zamanı ərazilərimizi güc vasitəsilə azad etmək təcrübəsini qazandıq və düşünürəm ki, bu da mühüm göstəricidir. Əgər sülh yolu ilə həll üçün bütün ümid itir, ancaq həqiqət və ədalət, beynəlxalq hüquq sizin tərəfinizdədirsə, sülhə nail olmaq üçün gücdən istifadə etmək zəruridir. Məhz belə də oldu. Biz əvvəlcə güc tətbiq etməklə, daha sonra isə siyasi yollarla Ermənistanla sülhə nail olduq. Bu da müasir tarixdə, - müasir dedikdə son onillikləri nəzərdə tuturam, - nadir bir təcrübədir - ölkə özü güc tətbiq edərək suverenliyini və ərazi bütövlüyünü bərpa etdi".

Azərbaycan həqiqət, ədalət və beynəlxalq hüquqa əsaslanaraq güc tətbiqində əldə etdiyi nailiyyətləri uğurla sülh əldə etməyə proyeksiya edə bildi. Bu, həm nadir, həm də çox qiymətli təcrübədir.

Bununla milyonlarla insanın işğal altında yaşamaq kimi acı təcrübəsindən təcavüzkarı sülhə məcbur etmək mərhələsinə keçidin bütün siyasi komponentləri aydınlaşmış olur. Bu nadir təcrübədən isə Azərbaycanın başqa bir siyasi təcrübəsi yaranır ki, onun regional sülhü təmin etməkdə prinsipial rolu vardır.

## Üçüncü sülh təcrübəsi

Azərbaycan lideri üçüncü təcrübəni, yəni sülh şəraitində yaşamaq təcrübəsini aşağıdakı kimi ifadə etmişdir: "Üçüncü təcrübə isə sülh təcrübəsidir – sülhə necə nail olmaq olar. Bu isə asan iş deyil. Biz görürük ki, uzunmüddətli münaqişələr davam edir və qlobal xəritədə yeni gərginlik nöqtələri yaranır. Azərbaycan və Ermənistan arasında sülhün bərqərar olması da nadir bir vəziyyətdir: 2023-cü ilin sentyabrında baş verən son qanlı toqquşmadan 2025-ci ilin avqustunda sülhün əldə edilməsinə qədər müddət iki ildən az çəkdi".

Əlbəttə, sülhə necə nail olmağı aydınlaşdırmaq üçün Azərbaycanın ilk iki siyasi təcrübə növündən çıxış etmək gərəkdir. Həmin iki siyasi təcrübədə işğal altında yaşamaqdan güc tətbiqi ilə ərazini bərpa etmək mərhələsinə ardıcıl olaraq keçidə nail olunmuşdur və onun əsasında məğlub olmuş tərəfi sülhə məcbur etmək əsas vəzifə kimi qarşıya çıxmışdır. Çünki sirr deyildir ki, Ermənistanda revanşistlər həmişə olmuşdur və indi də onlar dinc durmaq istəmirlər. Hətta son zamanlar indi hakimiyyətdə olanlar sırasında "gizli revanşistlər"in mövcudğulu hiss edilir. Buna görə də üçüncü təcrübənin sülh təcrübəsi olması aşan məsələ deyildi.

Ermənistandakı müəyyən dairələrə anlatmaq lazım idi ki, münaqişələrdən sülh, dinc-yanaşı yaşamaq mərhələsinə keçid tarixi fürsətdir. Bu, hər şeydən öncə, Ermənistanın dövlət kimi mövcud olmasının fundamental şərtlərindən biridir. Bu prizmada Azərbaycan Prezidentinin aşağıdakı fikirləri tarixi əhəmiyyət kəsb edir. Fikirlərinə davam edərək Prezident İlham Əliyev demişdir: "Hesab edirəm ki, bu, normallaşmanın görünməmiş sürətidir və güclü siyasi iradənin mövcudluğu və düşmənçiliyin əbədiyyətə qədər davam edə bilməyəcəyinin, müharibənin sona çatmalı olduğunun dərk edilməsi sayəsində mümkün oldu. Bu, iki ölkə tərəfindən verilmiş bir qərar idi və indi biz, qeyd etdiyim kimi, yeddi aydır sülh şəraitində yaşayırıq. Biz artıq sülhün üstünlüklərini görürük. Mən bunu dəfələrlə demişəm və bir daha təkrar edəcəyəm: sülhdən daha yaxşı heç nə yoxdur".

*(ardı var)*

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

*Replika*

# Haysayağı "qısaqapanma"

**Deyirlər COVID-19-dan sonra insanların əksəriyyəti hafizəsində problem yaşamaqdadır. Huşsuzluğun əlaməti kimi, iki-üç gün əvvəl getdiyi yeri, yediyi yeməyi xatırlaya bilməmələri göstərilir. Amma 10, 20, 30 il əvvəl baş verənlər onların yaddaşında olduğu kimi qalıb, təfərrüatına qədər danışa bilirlər.**

Mümkün deyil ki, Ermənistan Respublika Partiyası idarə heyətinin üzvü Artak Zakaryan məlum bəyanatı yayarkən tam anlaqlı vəziyyətdə olsun. Ən azı, yaddaşının pozulmasından əziyyət çəkdiyi göz qabağındadır. Əgər belə olmasaydı, məzmunu hətta ermənilərin özlərini belə heyrətə gətirəcək bəyanat verməzdi: "Almaniya İsraillə diplomatik əlaqələri müharibənin bitməsindən iyirmi il sonra və Holokost təzminat ödənişlərinin başlanmasından on iki il sonra – 1965-ci ildə qurub. Hətta bu soyqırımı tanındıqdan və təzminat ödənildikdən illər keçsə də, siyasi və mənəvi baxımdan bu fakt hər iki tərəf üçün həssas məsələ olaraq qaldı. İsrail cəmiyyətinin əhəmiyyətli bir hissəsi Almaniya dövləti ilə istənilən münasibətə qəti şəkildə qarşı çıxdı. Almaniyanın mühafizəkar dairələri də buna müqavimət göstərdilər". Əslində, biz bu bəyanatın müəllifinin huşsuzluğundan deyil, ağlına rəxnə yetməsindən, bədəninin yuxarı orqanında vacib detalları düşürüb itirməsindən danışmalıyıq.

...Görəsən, ermənilərin Azərbaycan ərazisində törətdikləri cinayətlərə görə Bakının İrəvandan üzr istəməsini, təzminat ödəməsini iddia edən Zakaryan II Dünya müharibədindən sonra Almaniya – İsrail münasibətləri ilə Ermənistan – Azərbaycan sülh prosesi ətrafında mövcud vəziyyət arasında paralellər aparanda tarixi hadisələrin identikliyi fikrini daşnak epidemiyasına yoluxmuş beyninin hansı hüceyrəsindən qoparıb? Bunu deyərkən o, doğrudanmı torpaqları işğal edənin, dinc əhaliyə divan tutanın, yurdumuzu xarabazara çevirənin, "DQMV" ətrafındakı 7 rayonumuzda maddi-mədəni hər şeyi söküb xaricə satanın, daşı daş üstə qoymayanın onun soydaşları deyil, azərbaycanlılar olduğunu düşünür? Əgər belədirsə, onda söhbət ağıldan deyil, onun gətirdiyi bəladan gedə bilər.

Axı ortada gözə girən həqiqət, danılması mümkün olmayan reallıq var. Kim kimdən üzr istəməli, hansı tərəf qarşı tərəfə təzminat ödəməlidir? Bu sualların cavabı bütün dünyaya, o cümlədən ağlı yerində olan haylara da məlumdur. Azərbaycan bədənindəki "dqr" adlı çibanı kəsib atdıqdan, beynəlxalq hüquqa tam uyğun şəkildə halal torpaqlarında suverenliyini bərpa etdikdən sonra da Qarabağda yaşayan erməni əhaliyə qalıb yaşaması üçün şərait təklif etdi, onlara şans verdi. Onların hansı seçimi etdiklərinə isə bütün dünya şahid oldu.

...Bəli, müdriklər belə məqamı nəzərdə tutub deyiblər: "meymun baxar güzgüyə, adını qoyar özgəyə". Həm də xoruzun quyruğu göründü. Bu bəyanat Respublika Partiyasının Paşinyan iqtidarına qarşı seçkiqabağı dezinformasiya və gözdənsalma kampaniyası, elektoratın mövqeyi və rəyi ilə manipulyasiya taktikasıdır. Bəyanatdakı tezis məhz bu məkrli niyyətdən xəbər verir: "Mülki Müqavilə partiyası və onun tərəfdarları istisna olmaqla, Ermənistanda insanların sülhün real perspektivinə inanması üçün Azərbaycan irəliyə doğru bir addım atmalı və ya vahid etimad təməli yaratmalıdır. Hələ münasibətlərin tam şəkildə normallaşmasını bir tərəfə qoyuruq".



...İndi isə bəyanatın ən zil yerinə gələk: "Azərbaycanın daxili və xarici siyasətinə diqqət etsəniz, aydın olar ki, o, sülhə yox, yeni müharibəyə hazırlaşır". Zakaryanın sızlaya-sızlaya bəyan etdiyi "Yerablurun yaralarının hələ sağalmadığı", "Artsaxdan olan məcburi köçkünlərin hələ də daimi yaşayış yeri tapmadığı", "hakimiyyətin erməni xalqının psixoloji durumuna məhəl qoymadığı" kimi tezislər tarixi, siyasi və mənəvi aspektdən şərhə yaramadığı bir tərəfə, partokratik dələduzluğun məhsuludur. Paşinyan komandasını "Azərbaycanda artan ermənifobiya mühiti fonunda Ermənistanda xarici maraqların uzunmüddətli canişini rolunu öz üzərinə götürməyə çalışmaqda" suçlayan Kazaryanın boz hüceyrələrində, doğrudan da, "qısaqapanmanın" baş verdiyinə şübhə yeri qalmır. Beləsinə cavab verməyin nə qədər çətin olduğunu yəqin oxucular da duydular.

***İ.HƏSƏNQALA***
***XQ***

# FHN-də WUF13 ilə əlaqədar dəyirmi masa



**Bakıda keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) ilə əlaqədar Fövqəladə Hallar Nazirliyi tərəfindən "Şəhərsalma fəaliyyətində tikinti, yanğın, texniki və radiasiya təhlükəsizliyinin təmin olunmasında dövlət nəzarəti" mövzusunda dəyirmi masa təşkil edilib.**

Mərasimdə Fövqəladə Hallar Nazirliyinin və müvafiq tabeli qurumlarının, həmçinin Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi, "AzərEnerji" ASC və "Azərişıq" ASC, "Azəriqaz" İB, Enerji Məsələlərini Tənzimləmə Agentliyi və WUF13 Təşkilat Komitəsinin rəsmiləri iştirak ediblər.

Tədbirin keçirilməsində əsas məqsəd şəhərsalma fəaliyyəti zamanı vətəndaşların təhlükəsizliyinin etibarlı şəkildə təmin edilməsinə dair müzakirələrin aparılması və bu istiqamətdə qarşıda duran vəzifələrin müəyyənləşdirilməsindən ibarət olub.

***XQ***

# Xətai Rayon Prokurorluğunda "Açıq qapı" günü



**Mayın 14-də Xətai Rayon Prokurorluğunun inzibati binasında "Açıq qapı" günü təşkil olunub.**

Əvvəlcə inzibati binada Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin büstü önünə güllər düzülüb. Ulu öndərin əziz xatirəsi dərin ehtiramla yad edilib.

Mərasimi giriş sözü ilə açan Xətai rayon prokuroru Sərdar İmanov iştirakçıları salamlayaraq bu cür görüşlərin dövlət-vətəndaş münasibətlərinin möhkəmləndirilməsi, hüquqi biliklərin artırılması və ictimai etimadın gücləndirilməsi baxımından mühüm əhəmiyyət daşıdığını bildirib. O, rayon prokurorluğunun fəaliyyəti, cinayətkarlığa qarşı aparılan mübarizə tədbirləri, vətəndaş müraciətlərinə baxılması və insan hüquq və azadlıqlarının müdafiəsi istiqamətində görülən işlər barədə ətraflı məlumat verib.

Baş Prokurorluğun Mətbuat xidmətinin böyük prokuroru Kənan Zeynalov çıxışında prokurorluq orqanlarında son illərdə həyata keçirilən islahatlar, rəqəmsallaşma prosesi, "Elektron prokurorluq" informasiya sistemi və ictimaiyyətlə əlaqələrin inkişafı barədə danışıb. O, fəaliyyətin prioritet istiqamətlərinin şəffaflıq, operativlik və vətəndaş məmnunluğunun təmin olunması olduğunu diqqətə çatdırıb.

Mərasimdə media nümayəndələri, qeyri-hökumət təşkilatlarının təmsilçiləri və ictimai fəallar iştirak ediblər.

***Q.YUSİFOĞLU***
***XQ***

# Azərbaycanın şəhərsalma təcrübəsinin qlobal önəmi

## *Regional festivallarda 115 mindən çox adam iştirak edib*

**Mayın 17-22-də Bakıda keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyası (WUF13) çərçivəsində ilk dəfə olaraq Yeni Şəhərsalma Proqramına həsr edilmiş nazirlər görüşü təşkil ediləcək.**




WUF13 Azərbaycan Əməliyyat Şirkətindən bildirilib ki, təşəbbüs Yeni Şəhərsalma Proqramının icrasının 20 illik dövrünün orta mərhələsinə təsadüf edir və indiyədək əldə olunmuş nəticələrin qiymətləndirilməsi, mövcud çətinliklərin müəyyənləşdirilməsi, eləcə də qarşıdakı mərhələ üzrə əsas istiqamətlərin formalaşdırılması baxımından mühüm platforma hesab olunur.

Mayın 17-də Azərbaycanın sədrliyi ilə keçiriləcək görüşdə müxtəlif ölkələrin hökumət nümayəndələri bir araya gələrək proqramın icra vəziyyətini müzakirə edəcək, 2036-cı ilədək nəzərdə tutulan fəaliyyət prioritetlərini nəzərdən keçirəcəklər. WUF13-ün "Hər kəs üçün yaşayış yerləri: təhlükəsiz və dayanıqlı şəhərlər və yaşayış məskənləri" mövzusuna uyğun olaraq müzakirələrin əsas diqqət mərkəzində mənzil məsələsi dayanacaq. Bu istiqamət inklüzivlik, dayanıqlı inkişaf və davamlı urbanizasiya üçün mühüm amil kimi qiymətləndirilir.

Nazirlər görüşü iştirakçı ölkələr üçün təcrübə mübadiləsi aparmaq, mövcud boşluqları müəyyənləşdirmək və Yeni Şəhərsalma Proqramı üzrə öhdəlikləri daha da gücləndirmək baxımından geniş imkan yaradacaq. Tədbirin, həmçinin 2026-cı ildə BMT Baş Assambleyasında keçiriləcək yüksək səviyyəli icmal ərəfəsində siyasi dialoqun aktivləşməsinə töhfə verəcəyi vurğulanır.

Müzakirələr zamanı mənzil təminatının sosial inklüzivliyin genişləndirilməsi və yoxsulluğun azaldılması, iqtisadi rifah və imkanların artırılması, eləcə də ekoloji dayanıqlılıq və iqlim dəyişikliklərinə davamlı şəhərlərin qurulması baxımından rolu diqqət mərkəzində olacaq. Bununla yanaşı, ölkələrin bu istiqamətdə həyata keçirdiyi milli yanaşmalar və növbəti mərhələ üzrə hədəflər də nəzərdən keçiriləcək.

Tədbirin açılışı Azərbaycan hökuməti, BMT-nin Məskunlaşma Proqramı (UN-Habitat) və BMT rəsmilərinin iştirakı ilə yüksək səviyyəli dialoq formatında baş tutacaq. Daha sonra üzv dövlətlərin nümayəndələri öz ölkələrinin nailiyyətləri və prioritetləri barədə bəyanatlarla çıxış edəcəklər.

Günün ikinci hissəsində isə 3 əsas mövzu üzrə panel müzakirələri keçiriləcək. Panellərdə sosial inklüzivliyin və yoxsulluğun azaldılması üçün mənzil siyasəti, urbanistik rifah və bərabər imkanların təmin olunması, həmçinin ekoloji baxımdan dayanıqlı və iqlimədavamlı şəhərlərin formalaşdırılması məsələləri müzakirəyə çıxarılacaq.

Sessiyalar çərçivəsində hökumət nümayəndələri ilə yanaşı, BMT qurumları, yerli idarəetmə orqanları və vətəndaş cəmiyyəti təmsilçiləri də iştirak edərək praktiki yanaşmalar və effektiv həll mexanizmləri barədə fikir mübadiləsi aparacaqlar.

Nazirlər görüşünün yekununda "Sədrin xülasəsi" sənədi qəbul ediləcək. Həmin sənəddə əsas tövsiyələr öz əksini tapacaq və bu material həm qlobal hesabatlılıq proseslərinə, həm də WUF13 çərçivəsində hazırlanacaq yekun sənədlərə, o cümlədən "Bakı Fəaliyyətə Çağırış" sənədinə töhfə verəcək.

WUF13 proqramının mühüm hissəsi hesab olunan bu görüş dayanıqlı urbanizasiya sahəsində fəaliyyətin sürətləndirilməsinə, dövlət siyasəti ilə yerli icra mexanizmləri arasında daha effektiv uyğunlaşmanın yaradılmasına və forumun qlobal dialoq, əməkdaşlıq və fəaliyyət platforması kimi rolunun gücləndirilməsinə xidmət edəcək.

***

Forum öncəsi ictimaiyyətin məlumatlandırılması və tədbirə marağın artırılması məqsədilə Azərbaycanın bir sıra şəhərlərində WUF13 Festivalı da keçirilib.

Tədbirlər Quba, Lənkəran, Qəbələ, Şəki, Mingəçevir, Gəncə, Xankəndi və Sumqayıtda təşkil olunub, yekun proqram isə Bakıda baş tutub. Ümumilikdə 9 şəhəri əhatə edən festival çərçivəsində 115 mindən artıq insan müxtəlif tədbirlərə qatılıb.

Festival proqramı iki əsas istiqamət üzrə təşkil edilib. Günün ilk hissəsində tədbirlərin keçirildiyi şəhərlərin ali təhsil müəssisələrində maarifləndirici sessiyalar baş tutub. Həmin görüşlərdə iştirakçılara forumun əsas məqsədləri, dayanıqlı urbanizasiya prinsipləri və Azərbaycanın şəhərsalma sahəsində müəyyən etdiyi prioritetlər barədə geniş məlumat təqdim olunub.

Günün ikinci yarısında isə açıq məkanlarda ictimai proqramlar reallaşdırılıb. Axşam saatlarında təşkil olunan tədbirlər çərçivəsində interaktiv layihələr, maarifləndirici oyunlar, təqdimatlar və ictimai müzakirələr keçirilib. Proqramlarda dayanıqlı şəhər inkişafı, inklüziv urban mühit, innovativ şəhər həlləri və gələcəyin şəhər modeli kimi mövzular geniş auditoriyanın diqqətinə çatdırılıb.

Festival iştirakçıları, həmçinin WUF13-ün beynəlxalq əhəmiyyəti və əsas mesajları ilə daha yaxından tanış olmaq imkanı əldə ediblər. Müxtəlif yaş kateqoriyalarını əhatə edən tədbirlər şəhər sakinlərinin böyük marağına səbəb olub və iştirakçılarda gələcəyin yaşayış məkanlarına dair yeni təsəvvür formalaşdırıb.

WUF13 şəhər festivalları ölkə miqyasında geniş ictimai iştirakçılığın təmin edilməsinə xidmət etməklə yanaşı, dayanıqlı və inklüziv şəhərlərin təşviqi istiqamətində maarifləndirmə işinin gücləndirilməsinə də mühüm töhfə verib.

Qeyd edək ki, Dövlət Miqrasiya Xidməti WUF13 vizası ilə və ya vizasız qaydada BMT-nin Məskunlaşma Proqramının qeydiyyatından keçərək Azərbaycana gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycanda olduğu yer üzrə qeydiyyatdan keçmək tələbindən azad olduqlarını bildirib. Belə ki, bu qayda 30 gün müddətini əhatə edir.

Xatırladaq ki, forumda iştirak etmək üçün qeydiyyatdan keçmiş şəxslərə 14 may tarixindən etibarən Akkreditasiya və Qeydiyyat Mərkəzində akkreditasiya kartlarının verilməsinə başlanılıb. Tədbirin keçirildiyi məkan - Bakı Olimpiya Stadionunda yerləşən mərkəz WUF13 iştirakçılarının qeydiyyatı, akkreditasiyası və məlumatlandırılması prosesinin vahid və operativ şəkildə həyata keçirilməsini təmin edir.

Onlayn qeydiyyatdan keçmiş şəxslər WUF13 akkreditasiya kartlarını əldə etmək üçün elektron poçtlarına göndərilən unikal qeydiyyat nömrəsi ilə yanaşı, qeydiyyat zamanı istifadə etdikləri etibarlı şəxsiyyətini təsdiq edən sənədi də özləri ilə gətirməlidirlər. Azərbaycan Respublikasının vətəndaşları şəxsiyyəti təsdiq edən sənəd, xarici ölkə vətəndaşları isə etibarlı pasport təqdim etməlidirlər.

***Nurlan ABDALOV***
***XQ***

**Fevralın 28-də İranda başlayan müharibə fonunda Hörmüz boğazında yaranan blokada müxtəlif sahələr üzrə ağır nəticələrini hər keçən gün daha qabarıq şəkildə göstərir. Belə ki, İranın bu strateji keçidi, faktiki olaraq, nəzarətə götürməsi qlobal enerji təhlükəsizliyi üçün ciddi təhdid yaradan əsas amillərdən birinə çevrilib. Bu baxımdan, Fars körfəzini Hind okeanı ilə birləşdirən Hörmüz boğazı qlobal enerji sisteminin həyati əhəmiyyət daşıyan əsas arteriyalarından biri hesab olunur. Məhz bu səbəbdən boğazın faktiki bağlanması dünya enerji bazarında ciddi təlatümə səbəb olub. Qlobal neft daşımalarının əsas marşrutlarından biri üzrə ixracın məhdudlaşması Yaxın Şərqdən milyonlarla barel neftin bazara çıxışını çətinləşdirib və bu da, öz növbəsində, yanacaq qiymətlərinin kəskin artımına gətirib çıxarıb.**

# "Hörmüz kilidi" və Azərbaycanın artan geoiqtisadi mövqeyi

Bununla yanaşı, qiymət artımları həm istehlakçılar, həm də biznes sektoru üzərində əlavə təzyiq formalaşdırmaqla yanaşı, bir sıra hökumətləri enerji ehtiyatlarından daha qənaətli istifadə tədbirlərinə yönəldir. Eyni zamanda, mövcud gərginlik bir daha göstərir ki, enerji bazarlarında ciddi qiymət volatilliyi yalnız hərbi əməliyyatların genişlənməsi ilə deyil, həm də siyasi bəyanatlar və qarşılıqlı təhdidlər fonunda da yarana bilir. Məsələn, ötən gün İran parlamentinin sədri Məhəmməd Qalibafın "İran müharibəyə hazırlaşır" məzmunlu bəyanatı bazarlarda əlavə qiymət artımına səbəb olub.

Davam edən dinamikanın fonunda, mayın 14-nə olan məlumata görə, Londonun ICE birjasında Brent markalı neftin bir barelinin qiyməti 0,51 dollar artaraq 106,14 dollar təşkil edib. Eyni zamanda, Nyu-York birjasında "Light" markalı neft 0,52 dollar artaraq 101,54 dollar olub. Bununla paralel olaraq, Azərbaycanın "Azeri Light" markalı neftinin qiyməti isə 0,41 dollar və ya 0,4 faiz azalaraq 115,52 dollar səviyyəsində qeydə alınıb. Ümumilikdə isə, müharibənin başlanmasından indiyədək Azərbaycan neftinin qiyməti 37,25 ABŞ dolları, yəni 51,2 faiz bahalaşıb.

Qeyd edək ki, enerji bazarında vəziyyət xüsusilə neft sektorunda daha kəskin hiss olunur. Belə ki, son aylarda Brent markalı neftin qiyməti bəzi dövrlərdə 120 dolları da keçib. Bundan əlavə, OPEC 2026-cı il üçün qlobal neft tələbi üzrə proqnozunu aşağı salıb ki, bu da əsasən yüksək qiymətlər və zəifləyən tələb dinamikası ilə izah olunur.

Dünya üzrə istehlak edilən neftin təxminən beşdə biri, Körfəz ölkələrindən ixrac olunan mayeləşdirilmiş təbii qazın (LNG) təxminən 30 faizi, Avropanın aviasiya yanacağı idxalının təqribən 40 faizi və dizel yanacağının 10 faizdən çoxu, eləcə də Asiyanın gündəlik neft idxalının təxminən 2 milyon bareli birbaşa bu marşrutdan asılıdır. Eyni zamanda, İraqın neft ixracının 97 faizi, Səudiyyə Ərəbistanının 89 faizi, Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) 66 faizi, həmçinin İran, Küveyt və Qətərin qlobal bazarlara çıxardığı neftin böyük hissəsi məhz bu boğaz vasitəsilə dünya bazarlarına daşınır.

Bu asılılıq fonunda, ən çox təsirlənən regionlar Cənubi və Şərqi Asiya (xüsusilə Çin, Hindistan, Yaponiya və Cənubi Koreya) ilə Avropa regionudur. Xüsusilə Avropada təsirlər daha çox təbii qaz və aviasiya yanacağı təchizatında özünü göstərir. Bu kontekstdə, "Reuters" agentliyinin məlumatına görə, Beynəlxalq Enerji Agentliyi (BEA) Avropanın Yaxın Şərqdən aviasiya yanacağı idxalının kəskin azalması fonunda bu itkiləri kompensasiya etməkdə çətinlik çəkdiyini bildirib.

BEA-nın aylıq hesabatına əsasən, Yaxın Şərqdən Avropaya aviasiya yanacağı tədarükü mart ayında gündəlik 330 min barel olduğu halda, aprel ayında bu göstərici cəmi 60 min barelə qədər geriləyib. Buna səbəb kimi İran müharibəsi və Hörmüz boğazının faktiki bağlanması nəticəsində Fars körfəzi regionundan enerji tədarükünün kəskin azalması göstərilir.

Bununla yanaşı, Agentliyin qiymətləndirməsinə görə, Avropa kimi idxaldan asılı regionlar yay aylarında yanacaq qıtlığının qarşısını almaq üçün itirilmiş Yaxın Şərq tədarükünün ən azı 80 faizini, ideal halda isə 90 faizini alternativ mənbələr hesabına əvəz etməlidir. Lakin mövcud göstəricilər göstərir ki, Avropanın aviasiya yanacağı üzrə xalis idxalı aprel ayında mart ayı səviyyəsinin cəmi 70 faizinə çatıb. Eyni zamanda, Avropa bu boşluğu doldurmaq məqsədilə ABŞ və Nigeriyadan aviasiya yanacağı idxalını artırsa da, bu artım Yaxın Şərqdən itirilən həcmi tam kompensasiya etməyə kifayət etməyib. "Kpler" məlumatlarına əsasən, həmin ölkələrdən Avropaya aviasiya yanacağı axını aprel ayında gündəlik 221 min barel təşkil edib.

Bu proseslərin davamı olaraq, hesabatda xüsusi olaraq vurğulanır ki, Avropadakı ehtiyatların sürətlə azalması və Yaxın Şərqdən tədarükün hələ də əsasən dayanmış vəziyyətdə qalması mövcud logistika zəncirlərinə ciddi təzyiq yaradır. Hazırda isə əsas yükü daşıyan ABŞ-ın Körfəz sahili və Nigeriya marşrutları əvvəlkindən daha böyük boşluğu doldurmağa çalışır. Bununla belə, Agentlik qeyd edir ki, Hörmüz boğazı ilə bağlı vəziyyət qısa müddətdə həllini tapmasa, bazarda tarazlığın bərpası zaman tələb edəcək.

Digər tərəfdən, Yaxın Şərqdə davam edən münaqişə Asiya ölkələri üçün enerji təchizatının şaxələndirilməsini strateji prioritetə çevirib. Bu şəraitdə Azərbaycan alternativ enerji mənbəyi kimi önəmini daha da artırır. Məhz bu kontekstdə Tokio artıq praktiki addımlar atmağa başlayıb. Belə ki, ölkənin ENEOS şirkəti Azərbaycandan 283 min barel neft idxal edib və Azərbaycan neftinin ilk partiyasını daşıyan tanker mayın 12-də Yaponiyaya çatıb.

Ümumilikdə isə, hazırkı şəraitdə dünya bazarında müşahidə olunan əsas problem zəncirvari təsirdir. Yəni Körfəz regionundan enerji daşımalarının bahalaşması, ilk növbədə, nəqliyyat xərclərini artırır. Ardınca enerji qiymətlərinin yüksəlməsi gübrə sənayesinə birbaşa təsir edir, çünki azot gübrələrinin əsas xammalı təbii qazdır. Bununla əlaqədar olaraq, Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı və Dünya Bankı kimi beynəlxalq qurumlar xəbərdarlıq edir ki, əgər Hörmüz boğazındakı risklər uzunmüddətli xarakter alsa, 2026-cı ilin ikinci yarısında ərzaq inflyasiyası daha da sürətlənə bilər.



Ən böyük risk isə xüsusilə buğda, düyü, qarğıdalı və yem bazarlarında görünür. Bundan əlavə, Ümumdünya Ərzaq Proqramının hesablamalarına görə, Yaxın Şərqdəki münaqişənin yaratdığı domino effekti nəticəsində əlavə 45 milyon insanın kəskin ərzaq çatışmazlığı riski ilə üzləşəcəyi, bunun isə artıq qida təhlükəsizliyindən əziyyət çəkən 318 milyon insanın sırasını daha da genişləndirəcəyi ehtimal olunur.

Belə bir mürəkkəb beynəlxalq vəziyyətdə Azərbaycanın makroiqtisadi dayanıqlılığı və böhranlara qarşı müqavimət qabiliyyəti aparıcı beynəlxalq reytinq agentliklərinin hesabatlarında diqqətçəkən əsas məqamlardan biri kimi qiymətləndirilir. Eyni zamanda, son aylarda Fitch Ratings, Moody's Ratings və S&P Global Ratings kimi aparıcı beynəlxalq qurumların açıqlamaları göstərir ki, qlobal qeyri-müəyyənliklərə baxmayaraq, Azərbaycan iqtisadiyyatı regional miqyasda daha dayanıqlı modellərdən biri hesab olunur.

Azərbaycan enerji ixracatçısı ölkə kimi qlobal enerji bazarlarında mühüm mövqeyə malikdir. Dünyada enerji qiymətlərinin artdığı və təchizat zəncirlərində qeyri-müəyyənliyin gücləndiyi şəraitdə bu amil ölkəyə əlavə gəlir imkanları yaradır və onun strateji əhəmiyyətini artırır. Eyni zamanda, ərzaq təhlükəsizliyi istiqamətində həyata keçirilən siyasət daxili istehsalın gücləndirilməsinə yönəlib. Qarabağ və Şərqi Zəngəzur bölgələrində kənd təsərrüfatı potensialının yenidən dövriyyəyə qaytarılması, suvarma infrastrukturunun genişləndirilməsi və aqrar subsidiyaların tətbiqi daxili bazarın dayanıqlılığını artıran əsas amillər kimi çıxış edir.

Azərbaycanın geoiqtisadi mövqeyi həm də logistika və tranzit imkanlarının genişlənməsi ilə daha da güclənir. Orta Dəhliz kimi layihələr ölkəni regional ticarət axınlarında alternativ marşrut mərkəzinə çevirir və qlobal təchizat zənciri problemləri fonunda strateji üstünlük yaradır.

Daxili siyasi sabitlik və ictimai təhlükəsizlik amili də iqtisadi dayanıqlılığın mühüm komponentlərindən biridir. Bir çox regionlarda sosial gərginliklərin artdığı və inflyasiya təzyiqlərinin gücləndiyi şəraitdə Azərbaycanda mövcud idarəetmə və sosial müdafiə mexanizmləri bazar şoklarının təsirini nisbətən yumşaltmağa imkan verir. Beynəlxalq reytinq agentliklərinin yanaşmasına görə, Azərbaycanın makroiqtisadi dayanıqlılığı əsasən güclü fiskal mövqe, aşağı dövlət borcu və kifayət qədər valyuta ehtiyatları ilə dəstəklənir.

***Musa BAĞIRLI***
***XQ***

# Ölkəmizin neft hasilatı proqnozları yenilənib

**Azərbaycanın neft hasilatının 2026-cı ildə günə orta hesabla 0,57 milyon barel təşkil edəcəyi gözlənilir. Bu barədə məlumat Beynəlxalq Enerji Agentliyinin (BEA) neft bazarı üzrə may hesabatında yer alıb. Xatırladaq ki, qurumun əvvəlki hesabatında bu göstərici günə 0,58 milyon barel səviyyəsində proqnozlaşdırılırdı.**

BEA-nın məlumatına görə, cari ilin birinci rübündə Azərbaycanda neft hasilatı günə, təxminən, 0,57 milyon barel təşkil edib. Bu göstəricinin növbəti rüblərdə də eyni səviyyədə qalacağı gözlənilir.

Yeri gəlmişkən, Azərbaycan Energetika Nazirliyinin məlumatına əsasən, 2026-cı ilin yanvar-mart aylarında kondensat da daxil olmaqla ümumi neft hasilatının həcmi 6,6 milyon tona çatıb. Hasilatın 3,9 milyon tonu "Azəri-Çıraq-Günəşli"nin, 0,9 milyon tonu "Şahdəniz"in, 0,1 milyon tonu isə "Abşeron" yatağının payına düşüb. Hesabat dövründə SOCAR üzrə neft (kondensatla birlikdə) hasilatı 1,7 milyon ton təşkil edib.

Nazirliyin məlumatında bildirilib ki, cari ilin ilk 3 ayında 5,2 milyon ton neft (kondensatla birlikdə) ixrac olunub. Bunun 4,8 milyon tonu konsorsiumların, 0,3 milyon tonu SOCAR-ın, 0,1 milyon tonu isə JOCAP-ın payına düşüb. Bütövlükdə isə, bu ilin birinci rübündə ölkəmizdə xam neft hasilatı orta hesabla gündəlik 61 min ton (450 min barel), kondensat hasilatı 13 min ton (105 min barel) təşkil edib.

Bu arada, ABŞ-ın Enerji İnformasiyası Administrasiyası (EİA) da ölkəmizddə 2026-2027-ci illər üzrə neft hasilatına dair proqnozlarını təqdim edib. Qurumun qısamüddətli enerji proqnozuna əsasən, növbəti 2 ildə Azərbaycanda neft və digər maye karbohidrogenlərin orta gündəlik hasilatının 0,54 milyon barel təşkil edəcəyi gözlənilir.



Proqnoza görə, bu göstərici 2025-ci il üçün qiymətləndirilən günə 0,57 milyon barel səviyyəsi ilə müqayisədə azalacaq. Rüblər üzrə bölgüyə gəldikdə isə, EIA Azərbaycanda maye karbohidrogen hasilatını 2025-ci ilin birinci və ikinci rüblərində sutkada 0,57 milyon barel səviyyəsində qiymətləndirmişdi. Daha sonra göstəricinin üçüncü və dördüncü rüblərdə sutkada 0,56 milyon barelə enəcəyi proqnozlaşdırılmışdı.

EIA-nın qiymətləndirməsinə əsasən, 2026-cı ildə hasilat birinci rübdə orta hesabla günə 0,55 milyon barel təşkil etsə də, ikinci rübdə günə 0,54 milyon barelə, üçüncü və dördüncü rüblərdə isə günə 0,53 milyon barelə qədər azalacaq.

Oxşar dinamikanın 2027-ci ildə də davam edəcəyi proqnozlaşdırılır. Belə ki, hasilatın birinci rübdə sutkada 0,55 milyon barel, ikinci rübdə günə 0,54 milyon barel, ilin ikinci yarısında isə günə 0,53 milyon barel səviyyəsində olacağı gözlənilir. Bu da illik orta göstəricinin günə 0,54 milyon barel təşkil edəcəyi deməkdir.

Neft İxrac Edən Ölkələr Təşkilatının (OPEC) aylıq hesabatında isə bildirilir ki, 2025-ci ildə Azərbaycanda orta gündəlik xam neft hasilatı 461 min barel olub. Bu da 2024-cü ilin göstəricisi ilə müqayisədə 20 min barel azdır. Hesbata əsasən, bu ilin aprel ayında ölkəmizdə orta gündəlik xam neft hasilatı 460 min barel təşkil edib. Martda isə göstərici 456 min barel olub. Məlumata əsasən, ilin birinci rübündə qeyd olunan göstərici 454 min barel təşkil edib.

Qeyd edək ki, "OPEC plyus " ölkələri nazirlərinin əldə etdiyi razılığa görə, 2026-ci ilin sonunadək Azərbaycanın hasilat kvotası gündəlik 551 min barel səviyyəsində müəyyənləşdirilib.

***XQ***

*Yeniliyin ünvanı*

# Nəqliyyatın idarə edilməsində zəruri rəqəmsal keçid

## *Paytaxtda quraşdırılan “ağıllı” radarlar və işıqforlar şəhərdə hərəkətin ahəngdarlığını təmin edəcək*

**Son illər bir sıra ölkələrdə yol hərəkəti təhlükəsizliyinin gücləndirilməsi məqsədilə müasir texnologiyaların – “ağıllı” radarlar və “ağıllı” işıqforların tətbiqi sürətlə genişlənir, yol kameralarına inteqrasiya olunan süni intellekt modelləri sürücülərin davranışlarını real vaxt rejimində təhlil edə bilir. Bu sistemlər vasitəsilə sükan arxasında mobil telefondan istifadə olunması, təhlükəsizlik kəmərinin taxılmaması kimi hallar yüksək dəqiqliklə müəyyənləşdirilir. Belə innovativ yanaşma ilə həm qayda pozuntuları azalır, həm də yol qəzalarının qarşısı xeyli alınır.**

Daxili İşlər Nazirliyi Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzinin məlumatına görə, artıq Bakıda da xarici ölkə mütəxəssisləri ilə birlikdə pilot layihəyə – nəqliyyat axınının fasiləsiz hərəkətinə şərait yaradan “ağıllı” işıqforların quraşdırılmasına başlanılıb. İlkin olaraq paytaxtın Binəqədi rayonu ərazisində, Azadlıq prospekti ilə Cəfər Xəndan, Məsud Davudoğlu küçələrinin kəsişməsində, 115 nömrəli tam orta məktəbin qarşısında (piyada işıqforu), eləcə də Cəfər Xəndan küçəsi ilə Əhməd Rəcəbli, Anar Şükürov, İbrahimpaşa Dadaşov, Şövkət Məmmədova və Əlişir Nəvai küçələrinin kəsişməsində quraşdırılan belə işıqforlar sınaq müddətində işə salınıb.

Mütəxəssislərin sözlərinə görə, “ağıllı” işıqforlar yol üzərində yerləşdirilən sensorlar, kameralar və bəzən isə radarlar vasitəsilə hərəkət intensivliyini ölçür. Toplanan məlumat mərkəzi idarəetmə proqramına ötürüldükdən sonra orada real vaxt rejimində işıqforun yaşıl işığının müddətinin hansı istiqamətdə artıb-azalması ilə bağlı qərar verilir. Yeri gəlmişkən, nəqliyyatın sıx olduğu pik saatlarda nəqliyyat axını sürətlə artır. Ənənəvi işıqforlar bu artımı nəzərə almır, nəticədə, uzun növbələr yaranır. “Ağıllı” sistem isə avtomatik olaraq həmin istiqamətə daha çox yaşıl işıq ayırır. Qəza halında və ya yol bağlandıqda isə sistem dərhal vəziyyəti analiz edir, istiqamətlərin prioritetini dəyişir və yükün balanslaşdırılmasına şərait yaradır. Başqa sözlə, “ağıllı” sistem yolda nəqliyyat sıxlığı olmadığı vaxtlarda işıqforların yaşıl işığı daim yanmaqla vaxt itkisini aradan qaldırır.

**Nəqliyyat eksperti Əsəd Abdullayev** XQ-yə bildirdi ki, yol hərəkəti təhlükəsizliyi məsələsi artıq təkcə inzibati nəzarət və yol polisinin fiziki iştirakı ilə tənzimlənən sahə deyil. Son illər bu istiqamətdə dünyada əsas trend rəqəmsal nəzarət sistemlərinin tətbiqinin genişlənməsi və yol hərəkətinin idarə edilməsində süni intellekt texnologiyalarının rolunun artmasıdır. Bu yanaşma qayda pozuntularının qeydə alınması ilə bərabər, eyni zamanda, qəza riskinin proqnozlaşdırılması, sürücülərin davranışlarının analiz edilməsi və yol infrastrukturunun daha təhlükəsiz şəkildə idarə olunması üçün yeni imkanlar açır. Azərbaycan da bu prosesdən kənarda qalmır və artıq ölkəmizdə “ağıllı” radarlar və işıqforların, eləcə də qayda pozuntularını vaxtında dəqiq qeydə alan kameraların təbiqi mərhələli şəkildə genişlənir.

Əsəd Abdullayev bildirir ki, yol-nəqliyyat hadisələrinin əsas hissəsi insan amili ilə bağlıdır. Yəni sürət həddinin aşılması, təhlükəsizlik kəmərinin taxılmaması, sükan arxasında mobil telefondan istifadə edilməsi, diqqətsizlik və yorğunluq kimi halların yaşanması dünya üzrə qəzaların əsas səbəbləri sırasında yer alır. Bu amillərin qarşısını almağın ən səmərəli yolu isə cəzaların sərtləşdirilməsi deyil, nəzarət mexanizmlərinin daha sistemli və davamlı həyata keçirilməsidir. Süni intellekt burada məhz “davamlı nəzarət” konsepsiyasını formalaşdırır. Çünki insan nəzarəti məhdud vaxt və resurslarla həyata keçirilir, rəqəmsal nəzarət isə fasiləsiz işləyir və hərəkət iştirakçılarına psixoloji olaraq daim izlənildiyi mesajını verir.



Məhz bu məqamda Rusiya və bir sıra digər ölkələrin təcrübəsi diqqət çəkir. Belə ki, Rusiya Federasiyasında yol kameralarına inteqrasiya olunmuş süni intellekt modelləri artıq sürücülərin davranışını real vaxt rejimində analiz etməyə imkan verir. Bu sistemlər mobil telefondan istifadəni, təhlükəsizlik kəmərinin taxılmamasını, yol nişanlarının pozulmasını, hətta bəzən sürücünün idarəetmə davranışında qeyri-adi hərəkətləri müəyyənləşdirərək avtomatik şəkildə inzibati tədbirin tətbiqinə şərait yaradır. Burada əsas üstünlük isə sürət və obyektivliyə verilir. Başqa sözlə, insan amili minimuma endirilir, selektiv yanaşma və subyektiv qiymətləndirmə ehtimalı azalır. Bu da vətəndaşların qanuna inamının artması, dövlətin nəzarət mexanizminin səmərəliliyinin daha da gücləndirilməsi ilə nəticələnir.

**Nəqliyyat eksperti Şamil Ələsgərov** isə dedi ki, dünya təcrübəsində bu istiqamətdə xüsusi nümunələr mövcuddur. Məsələn, Böyük Britaniyada avtomatlaşdırılan sürət və qırmızı işıq kameraları uzun illərdir ki, tətbiq olunur və nəticədə şəhər mərkəzlərində yol qəzalarının sayı əhəmiyyətli dərəcədə azalıb. Sinqapurda isə rəqəmsal nəzarət sistemləri təkcə qayda pozuntularını qeydə almır, eyni zamanda, nəqliyyat axınını optimallaşdırmaq üçün istifadə olunur.

Bir sıra inkişaf etmiş dövlətlərdə şəhər nəqliyyatını real vaxt rejimində izləyən, təhlil edən və optimallaşdıran sistemin (süni intellekt, kamera və sensorlar) tətbiqi ilə işıqforlar avtomobil sıxlığını analiz edir, eləcə də işıq rejimini dinamik şəkildə dəyişir. Bu yanaşma həm tıxacları azaldır, həm də qəza riskini minimuma endirir. ABŞ və Avropa ölkələrinin bir çoxunda isə sürücünün yorğunluğunu müəyyənləşdirən sistemlər artıq yük avtomobillərində və ictimai nəqliyyatda da tətbiq olunur.

Azərbaycan üçün bu təcrübələrin öyrənilməsi xüsusi əhəmiyyət kəsb edir. Çünki yol hərəkəti təhlükəsizliyi yalnız şəhər daxilində deyil, magistral yollarda da ciddi çağırış olaraq qalır. Regionlararası yolların uzun məsafəli olması, bəzi sürücülərin sürət həddini aşması, diqqətsizlik və yorğunluq kimi amillər magistral yollarda ağır nəticəli qəzaların baş verməsinə gətirib çıxarır. Bu baxımdan “ağıllı” kameraların təkcə şəhər mərkəzlərində deyil, ölkənin bütün əsas magistral xətlərində tətbiqi ölüm və xəsarət statistikasına ciddi təsir göstərə bilər.

Texnologiyanın imkanları isə yalnız təhlükəsizlik kəmərinin və telefon istifadəsinin qeydə alınması ilə məhdudlaşmır. Süni intellektin inkişafı göstərir ki, yaxın gələcəkdə bu sistemlər vasitəsilə sürücünün üz ifadəsi, gözqırpma tezliyi və baş hərəkətləri əsasında yorğunluq dərəcəsi asanlıqla müəyyən ediləcək.

Avropanın bir sıra ölkələrində test mərhələsində olan bu cür texnologiyalar vasitəsilə avtomobilin hərəkət coğrafiyasında qeyri-adilik, zolaqdan kənara çıxma, ani sürət dəyişməsi kimi amillər təhlil edilərək riskli sürücülük davranışı öncədən müəyyənləşdirilir. Beləliklə, sistem pozuntunu qeydə almaqla yanaşı, qəzanın başvermə ehtimalını da qabaqcadan proqnozlaşdıran “preventiv nəzarət” mexanizminə çevrilir.

Bu yanaşmanın üstünlüklərindən biri də odur ki, insan amilindən qaynaqlanan səhvlər minimuma enir. Ənənəvi nəzarətdə polis əməkdaşının diqqətsizliyi, subyektiv yanaşması və ya hadisəni tam qeydə almaması mümkündür. Süni intellekt isə standart alqoritmlərlə işləyir və bütün sürücülərə eyni meyarlarla yanaşır. Bu isə ictimai etimadı artırır, yol nəzarətinin daha şəffaf və obyektiv müstəviyə keçməsinə şərait yaradır. Nəticədə cəmiyyət daxilində “qanun hamı üçün eynidir” prinsipi güclənir.

Burada digər mühüm məsələ yol polisinin iş yükünün azalmasıdır. Rəqəmsal nəzarət sistemləri genişləndikcə, hər hansı bir polis əməkdaşının fəaliyyəti daha çox profilaktik tədbirlərə, yol təhlükəsizliyi ilə bağlı maarifləndirməyə və ağır yol-nəqliyyat hadisələrinin araşdırılmasına yönəldilir. Yəni texnologiya polis əməkdaşını əvəz etmir, onun imkanlarını daha səmərəli nöqtəyə istiqamətləndirir. Bu da, bütövlükdə, dövlətin idarəetmə səmərəliliyini artırır.

Lakin texnologiyanın tətbiqində müəyyən çağırışlar da mövcuddur. Beynəlxalq təcrübə göstərir ki, süni intellektə əsaslanan nəzarət sistemləri düzgün qurulmadıqda yanlış cərimələmə halları da müşahidə edilə bilər. Buna görə də bir sıra ölkələrdə tətbiq olunan sistemlər mütləq insan nəzarəti əsasında işləyir: sistem pozuntunu qeydə alır, lakin yekun təsdiq müəyyən hallarda operator tərəfindən verilir. Bu, səhv qərarların qarşısını almaq və vətəndaşların hüquqlarını qorumaq baxımından zəruridir. Azərbaycan üçün də bu məsələ önəmlidir, çünki texnologiyaya inamın formalaşması üçün şəffaflıq və etibarlılıq əsas şərtdir.

Bu məsələdə məlumat təhlükəsizliyi və şəxsi məlumatların qorunması da diqqətdən kənarda qalmamalıdır. Çünki süni intellekt sistemləri çox böyük həcmdə məlumat – avtomobil nömrələri, sürücülərin görüntüləri, hərəkət marşrutları və s. toplayır. Bu məlumatların qorunması, onların üçüncü tərəfə sızmasının qarşısının alınması və yalnız qanunvericiliyin müəyyənləşdirdiyi çərçivədə istifadəsi mühüm prinsip olmalıdır.

Avropa İttifaqında bu istiqamətdə ciddi qaydalar tətbiq edilir və texnoloji nəzarət sistemləri məhz şəxsi məlumatların qorunması standartlarına uyğun şəkildə fəaliyyət göstərir. Azərbaycan da bu təcrübədən yararlanaraq sistemin həm səmərəli, həm də hüquqi baxımdan təhlükəsiz modelini qurmağı önəmli vəzifə hesab edir.

Digər tərəfdən, texnologiyanın tətbiqi təkcə nəzarət məqsədi daşımamalıdır. Müasir “ağıllı” şəhər konsepsiyasında yol kameraları və radarlar həm də nəqliyyat axınının idarə edilməsində analitik vasitə rolunu oynayır. Toplanan məlumatlar əsasında tıxacların yaranma səbəbləri müəyyənləşdirilir, yol infrastrukturu yenidən planlaşdırılır, işıqfor rejimləri optimallaşdırılır və qəza riskinin yüksək olduğu ərazilərdə əlavə tədbirlər görülür. Yəni texnologiya sadəcə “cərimə sistemi” deyil, ümumi şəhər planlamasına xidmət edən bir idarəetmə vasitəsidir.

Beləliklə, bu gün süni intellektə əsaslanan rəqəmsal yol nəzarəti sistemləri XXI əsrin yol təhlükəsizliyi strategiyasının ayrılmaz hissəsinə çevrilir. Azərbaycanın bu istiqamətdə atdığı addımlar ölkənin nəqliyyat infrastrukturunun modernləşməsi baxımından mühüm mərhələdir. “Ağıllı” radarlar, kameralar və işıqforlar yalnız qayda pozuntularının aşkarlanmasına deyil, ümumilikdə, yollarda nizam-intizamın formalaşmasına xidmət edir. Ən vacibi isə bu yanaşma yol hərəkətində insan həyatını qorumaq, qəza riskini minimuma endirmək və təhlükəsiz nəqliyyat mühitini gerçəkləşdirmək üçün ən real və səmərəli mexanizmlərdən biri hesab olunur.

***Vaqif BAYRAMOV***
***XQ***

***Ekspert rəyi***

**Aslan ƏSƏDOV,**
**nəqliyyat üzrə ekspert**



Bakının küçə və prospektlərində nəqliyyatın daha səmərəli idarə olunması məqsədilə müasir texnologiyalara əsaslanan “ağıllı” işıqfor sisteminin tətbiqinə başlanılıb. Süni intellekt texnologiyası ilə işləyən bu qurğular yol hərəkətinin real vaxt rejimində sıxlığını analiz edərək siqnalların müddətini avtomatik tənzimləyir və nəqliyyat axınının daha rahat hərəkət etməsinə imkan yaradır.

Pilot layihə çərçivəsində şəhərin müxtəlif ərazilərində yerləşən 8 yol qovşağında quraşdırılan yeni sistem daha çox pik saatlarda və qəza hallarında nəqliyyatın hərəkətini optimallaşdıraraq tıxacların azalmasına və sürücülərin vaxt itkisinin minimuma enməsinə kömək edir.

Qeyd edim ki, “ağıllı” işıqfor sisteminin tətbiqi yalnız respublikamızda deyil, dünyanın bir çox ölkələrində də geniş istifadə olunan müasir texnoloji yanaşmadır. Bu sistem nəqliyyatın daha səmərəli və çevik şəkildə tənzimlənməsinə xidmət edir. Adi işıqfor sistemlərində vaxt intervalı sabit olur. Məsələn, nəqliyyat vasitələri bir istiqamətdə 10 saniyə, digər istiqamətdə isə 90 saniyə gözləyir. Lakin 90 saniyə ərzində yoldan cəmi 20 avtomobil keçdiyi halda, qalan vaxtın boş yerə gözlənilməsi əlavə sıxlığa səbəb olur.

Eyni zamanda, qısa vaxt intervalında çoxlu sayda avtomobilin toplanması da tıxacların yaranmasına gətirib çıxarır. “Ağıllı” işıqfor sistemi isə nəqliyyat axınının intensivliyini nəzərə alaraq siqnal müddətlərini avtomatik şəkildə tənzimləyir. Bu isə tıxacların azalmasına, yol hərəkətinin daha rahat və səmərəli təşkilinə imkan yaradır.

Bəzi ölkələrdə tətbiq edilən digər bir texnologiya isə ondan ibarətdir ki, müəyyən yol sahələrində nəqliyyat vasitələrinin hərəkəti müşahidə edilmədiyi halda işıqfor sistemi aktiv olmur və sürücü həmin ərazidən rahat şəkildə keçib gedir. Bu, həm vaxt itkisini azaldır, həm də nəqliyyatın daha sərbəst hərəkətinə şərait yaradır. Ümumilikdə, bu cür texnoloji həllər gələcəyə hesablanmış layihələrdir və yol hərəkətinin idarə olunmasında mühüm rol oynayır.

# Zəngilanda torpaq yenidən canlanır

**İşğaldan azad olunmuş torpaqlara həyat yenidən qayıdıb. Minalardan təmizlənmiş sahələr uzun illərin sükutundan sonra yenidən nəfəs alır. Dövlət qayğısı və kənd sakinlərinin zəhməti sayəsində bu torpaqlarda yeni ümidlər cücərir. Vaxtında əkilən və hazırda suvarılan sahələr yüksək məhsuldarlığa böyük ümidlər yaradır.**

Zəngilan rayonunda müxtəlif şirkətlərlə yanaşı, doğma yurduna – “Ağıllı kənd”ə qayıdan fermerlər də bu münbit torpaqlarda fəaliyyətə başlayaraq zəhmətlərinin bəhrəsini görməyə çalışırlar. Bir vaxtlar “susmuş” bu torpaqlar indi yenidən zəhmətin və dirçəlişin dili ilə “danışır”. Kənddə fermerlərin qayğıları və problemləri ilə yaxından tanış olmaq üçün onlarla çay süfrəsi arxasında həmsöhbət olduq. Torpağa bağlılığı ilə seçilən **Vəsfi Buludlu** doğma yurda qayıtdığı gündən sevdiyi sahədə çalışır. Deyir ki, yurda qayıdan hər kəs kimi onun da arzu və istəkləri öyrənilib, işlə təmin olunub.

Həmsöhbətim bildirir ki, asudə vaxtlarında ailəsinə dəstək olmaq üçün həyatyanı sahədə çalışır. Uşaq vaxtı böyüklərindən görüb-götürdüyü torpaq sevgisi, halal zəhmət onu əməyə alışdırıb: “Atam Birinci Qarabağ müharibəsinin iştirakçısı olub, birinci dərəcəli əlil idi. O artıq dünyasını dəyişib. İki bacımın tək qardaşı kimi kəndə qayıdan gündən dolanışıq üçün torpağa daha çox bağlandım və indi bunun bəhrəsini görürəm”.

**Hazırda Minayə Mahmudovanın rəhbərlik etdiyi “Barış” fermer kooperativinin üzvü kimi çalışan Vəsfi söhbətinə davam edərək deyir:**



– Hazırda təsərrüfatımızın 10 hektar torpağı var. Bu il ilk dəfə olaraq arpa əkmişik. Kooperativin 6 üzvündən biri kimi bol məhsul əldə etmək üçün sahəmizdə bütün aqrotexniki qaydalara əməl edirik. Bunun da bəhrəsini görürük. Yaşayış şəraitimiz də ürəyimizcədir – 4 otaqlı, tam şəraitli evlə təmin olunmuşuq. İndi əsas məqsədimiz təsərrüfatı inkişaf etdirmək və dövlətin qayğısını əməli fəaliyyətimizlə doğrultmaqdır.

Zəngilan rayonunun ənənəvi təsərrüfatlarından olan heyvandarlıq da yenidən inkişaf mərhələsinə qədəm qoyub. Geniş örüş sahələrinə nəzər saldıqda mal-qaranın artdığı aydın hiss olunur. “Yazı düzü” kimi tanınan ərazilərdə yeni yaradılan təsərrüfatlar, Sarıl və Xumarlı kəndlərinin ətrafındakı geniş sahələr yeni inkişafın müjdəçisidir. Uzaq Uruqvaydan gətirilən yüksək məhsuldar “Aberdin Anqus” cinsli mal-qara təsərrüfatlarda heyvandarlıq məhsulları istehsalının artmasına səbəb olub.

**Fermer Roman Orucov** isə bildirir ki, əvvəlcə işlər bir qədər çətin olsa da, indi hər şey qaydasına düşüb: “Otlaqlarımız yaxşı vəziyyətdədir. Müraciətimizə əsasən, dövlət tərəfindən bizə 25 hektar sahə ayrılıb. Təsərrüfatımızda indi 250 baş xırda və 14 baş iribuynuzlu heyvan var. Hazırda rayonda süd və ət məhsullarına olan tələbatı, demək olar ki, tam ödəyirik. Bununla yanaşı, təsərrüfatımızı genişləndirməyə çalışırıq. Çünki köç artdıqca, bu məhsullara tələbat da yüksəlir”.

Atası **Fazil Səlimov** torpaqlar işğal olunana – 1993-cü ilə qədər uzun müddət təsərrüfatda çalışıb, ferma müdiri işləyib.



Köçkünlük dövründə bu sahə ilə məşğul olmağın mümkünsüzlüyünü dilə gətirən həmsöhbətim deyir ki, indi dövlət tərəfindən onlar üçün hər cür şərait yaradılıb: “Müasir, tam təchizatlı evlə təmin olunmuşam. Övladlarımın üçü də kəndimizin müasir məktəbində təhsil alır. Kənd təsərrüfatı naziri rayona səfəri zamanı təsərrüfatımıza da baş çəkərək problemlərimizlə maraqlandı və onların həlli üçün müvafiq tapşırıqlar verdi. Hazırda Zəngilan Hava Limanında sürücü işləməklə yanaşı, asudə vaxtlarımda təsərrüfatımı inkişaf etdirməyə çalışıram”.

***Mikayıl NƏRİMANOĞLU,***
***XQ-nin bölgə müxbiri***

# Bakıda türkoloji araşdırmalar məclisi





**Dünən Azərbaycan Dövlət Pedaqoji Universitetində (ADPU) "I Türkoloji Qurultayın 100 illiyi: Dil məsələləri" Beynəlxalq elmi konfransı işə başlayıb. Ali məktəbin TÜRKSOY, Yunis Əmrə İnstitutu, Daşkənd Beynəlxalq Universiteti ilə birgə təşkil etdiyi ikigünlük elmi məclisdə Türkiyə, Özbəkistan, Qazaxıstan, Qırğızıstan, Koreya, Rusiya, Ukrayna, Moldova, Estoniya, Əfqanıstan və digər ölkələrdən nüfuzlu tədqiqatçıları iştirak edirlər. Onlayn qoşulmalar müzakirələrin çevrəsini xeyli genişləndirir.**

Konfransın açılış mərasimində dövlət qurumlarında çalışan alimləri, ölkənin elm və təhsil ictimaiyyəti nümayəndələrini, Azərbaycanın və xarici ölkələrin tanınmış türkoloqlarını salamlayan ADPU-nun rektoru, professor Cəfər Cəfərov bildirdi ki, Bakı Türkoloji Qurultayı 1 əsrdən sonra yalnız dilçilik hadisəsi deyil, Türk dünyasının elmi və mədəni birliyinin formalaşmasında xüsusi rol oynamış tarixi platforma kimi dəyərləndirilir. 100 il əvvəl Bakıda əsası qoyulan ortaq dil, ortaq əlifba, ortaq terminologiya və ortaq gələcək ideyaları bu gün də öz aktuallığını qoruyur və artırır.

Rektor xatırlatdı ki, 1926-cı il martın 2-də qurultay iştirakçıları milli dil, ədəbiyyat və tarix kadrları hazırlığı aparılan Ali Pedaqoji İnstitutun qonağı olublar. O zaman institutun direktoru olmuş Cəlil Məhəmmədzadə, ayrı-ayrı vaxtlarda ali məktəbə rəhbərlik etmiş Şərif Manatov, Pənah Qasımov və Hüseyn Musayev, burada müəllim işləmiş Bəkir Çobanzadə, Nikolay Aşmarin, Vasili Vladimiroviç Bartold, Aleksandr Nikolayeviç Samoyloviç, Hənəfi Zeynallı, Abdulla Tağızadə qurultayın təşkilində, aparılmış müzakirələrdə və önəmli qərarların qəbul edilməsində fəal iştirak ediblər.

Professor Cəfər Cəfərov daha sonra söylədi ki, bu gün yeni türkoloji layihələr, rəqəmsal lüğətlər, milli korpuslar və ortaq terminoloji platformalar ümumtürk elmi-mədəni birliyinin möhkəmlənməsinə xidmət edir. Pedaqoji Universitet tarixi missiyasını davam etdirərək, "rəqəmsal türkologiya" dövründə ortaq elmi terminologiyanın, süni intellekt əsaslı dil texnologiyalarının və türk dövlətləri arasında təhsil inteqrasiyasının inkişafına töhfələr verməyi davam etdirir. Pedaqoji Universitet 100 il əvvəl olduğu kimi, indi də türkologiyanın pedaqoji mərkəzi kimi tanınır.

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti akademik İsa Həbibbəyli I Türkoloji Qurultayın türk xalqlarının elmi-mədəni fikir tarixində epoxal mərhələ təşkil etdiyini vurğuladı O qeyd etdi ki, 1926-cı ildə Bakıda keçirilən bu mötəbər elmi toplantı ortaq dil, əlifba, milli-mədəni dəyərlərin qorunması və türkologiya elminin sistemli inkişafı baxımından xüsusi əhəmiyyət daşıyıb. Qurultayın 131 iştirakçısının 126 nəfəri sonradan repressiya qurbanı olsa da, onların möhtəşəm irsi və açdıqları yol tarixi miqyasına görə türkologiyanın əsas istiqamətlərini müəyyənləşdirib.

ADPU-nun beynəlxalq əlaqələr üzrə prorektoru, professor Mahirə Hüseynova universitetin Türk dünyasının ali təhsil və elm müəssisələri ilə əməkdaşlığının genişləndirilməsindən, ortaq türkoloji layihələrin önəmindən, Bakı Türkoloji Qurultayının yaratdığı əsasların birgə araşdırmalara ciddi məzmun və aydın yön verməsindən geniş söhbət açdı. O belə beynəlxalq elmi platformaların akademik əlaqələrin inkişafına mühüm töhfə verdiyini söylədi.

Filologiya fakültəsinin dekanı dosent Könül Həsənova I Türkoloji Qurultayın elmi irsinin gənc nəslə çatdırılması, ana dilinə sevginin gücləndirilməsi və milli-mənəvi dəyərlərin təbliğinin önəmini diqqətə çatdırdı, ali məktəbdə bu yöndə aparılan ardıcıl və sistemli fəaliyyət barədə məlumat verdi.

Mərasimdə çıxış edən Milli Məclisin Elm və təhsil komitəsinin sədri Anar İsgəndərovv, Elm və təhsil nazirinin müavini Firudin Qurbanov, Türkiyənin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Birol Akgün, AMEA Dilçilik İnstitutunun direktoru Nadir Məmmədli, Bakı Slavyan Universitetinin rektoru Anar Nağıyev, Milli Aerokosmik Agentliyinin Elmi-Tədqiqat İnformatika İnstitutunun direktoru Elçin İsgəndərzadə, Qafqaz Universitetinin professoru Səlcuq Ural, Özbəkistan Asiya Beynəlxalq Universitetinin prorektoru Əzəmət Əkbərov, Azərbaycan Dillər Universitetinin professoru Adil Babayev Bakı türkoloji məclisinin tarixi önəmindən, bu zəngin irsin çağdaş araşdırmalar üçün də ümumi əsas olmasından, ümumtürk birliyinin yüksəlişində türkologiyanın oynadığı elmi-məfkurəvi roldan söz açdılar, konfransın işinə uğur arzuladılar.

İkigünlük beynəlxalq türkoloji məclis bölmə iclasları ilə davam etdi. Konfrans iştirakçıları müzakirələri bu gün ADPU Şamaxı filialında davam etdirirlər.

*Tahir AYDINOĞLU*
*XQ*

# Şuşada IX Beynəlxalq "Xarıbülbül" Festivalı



**Heydər Əliyev Fondunun və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə mayın 14-də Şuşada "Xarıbülbül" IX Beynəlxalq Musiqi Festivalı başlayıb.**

Tədbirdə Azərbaycan Prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov, tanınmış mədəniyyət xadimləri və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Festivalda təkcə yerli incəsənət nümayəndələri deyil, həm də bir sıra xarici ölkələrdən gələn musiqi kollektivləri və solo ifaçılar bir araya gəlib. Belə ki, ABŞ, Qazaxıstan, Özbəkistan, Türkmənistan, Türkiyə, Yaponiyadan incəsənət xadimləri "Xarıbülbül"ə dəvət olunub.

Festivalın əsas məqsədi mədəniyyətlərarası əlaqələri gücləndirmək, sənətkarlar arasında yaradıcılıq mübadiləsinə şərait yaratmaq və gənc musiqiçilərin inkişafına dəstək verməkdir.

"Xarıbülbül"ün açılış konsertində Xalq artistləri Polad Bülbüloğlu, Tünzalə Ağayeva, Yusif Eyvazov, Əməkdar artistlər Azər Zadə, Elnarə Məmmədova, Elvin Hoca Qəniyev, Təyyar Bayramov, Əməkdar mədəniyyət işçiləri aşıq Samirə və aşıq Əli, beynəlxalq müsabiqələr laureatı Camal Əliyev, ifaçılar Habil Məmmədov və tələbələri, Sankt-Peterburq Dövlət Akademik Mariya Teatrının solisti Həmid Abdulov, eləcə də İsmayıl Zeynalov, Kiyoşi Ohira (Yaponiya), Düsseldorfda fəaliyyət göstərən "Reyndə alman operası" teatrının solisti Mara Hüseynova, həmçinin Müşfiq Quliyev, Riad Məmmədov, Uğur İşılak (Türkiyə), Azərbaycan Dövlət Rəqs Ansamblı, Fikrət Əmirov adına Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblı, Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri, Azərbaycan Dövlət Xor Kapellası, Bakı Xoreoqrafiya Akademiyasının tələbələri, Qazaxıstanın "Turan" Etno-Folk Ansamblı, Özbəkistanın "Şodlık" Rəqs Ansamblı, Türkmənistanın "Qalkınış" Rəqs Ansamblı çıxış ediblər.

* * *

Musiqi festivalı yaradıcı gənclərin bacarıq və ideyalarını göstərmələri, milli sənət ənənələrini müasir baxışla təqdim etmələri üçün mühüm platforma rolunu oynayır.

Bu baxımdan festivalın birinci gününün növbəti tədbiri xüsusi əhəmiyyət kəsb edib. Cıdır düzündə təşkil olunan konsert proqramında Qarabağ Universitetinin İncəsənət fakültəsinin tələbələri səhnəyə çıxıblar.

Gənc musiqiçilərin ifasında Azərbaycan və xarici bəstəkarların əsərlərindən ibarət rəngarəng musiqi proqramı təqdim edilib. Proqramda Qarabağ Universitetinin xanəndəlik, vokal, balaban, piano və digər sinifləri üzrə şagirdlərin çıxışları olub.

Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektoru Xalq artisti Fərhad Bədəlbəyli bildirib ki, skripka və violonçel milli alətlərimiz olmasa da, bu gün məhz həmin alətlər vasitəsilə Azərbaycan musiqisi dünyanın müxtəlif səhnələrində səslənir, fərqli auditoriyalara çatdırılır. "Mənim ən böyük arzum odur ki, Azərbaycan musiqiçiləri bütün dünya səhnələrində çıxış etsinlər, ölkəmizi layiqincə təmsil etsinlər", – deyə o vurğulayıb.




Əməkdar artist Təyyar Bayramov açıqlamasında deyib ki, festival hər zamankı kimi, yüksək səviyyədə və möhtəşəm təşkil olunub. Onun sözlərinə görə, bu cür layihələr Azərbaycan musiqisinin zənginliyini və müasir nəfəsini nümayiş etdirmək baxımından xüsusi əhəmiyyətə malikdir.

Əməkdar incəsənət xadimi Baba Vəziroğlu vurğulayıb ki, bu gün Cıdır düzündə mədəniyyətimizin ən gözəl bayramlarından biri keçirilir. İllərin sınağından çıxmış, müxtəlif mərhələlərdən keçmiş bu möhtəşəm tədbir – "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalı zaman keçdikcə daha da cavanlaşır.

Qarabağ Universitetinin İncəsənət fakültəsinin tələbəsi Nuray Paşayeva qeyd edib ki, bu cür tədbirlər dövlətin gənclərə göstərdiyi diqqət və dəstəyin bariz nümunəsidir. O bildirib ki, burada olmaq, çıxış etmək və yaradıcı mühitin bir parçasına çevrilmək böyük ruh yüksəkliyidir.

Qarabağ Universitetinin müəllimi, festivalın iştirakçısı Elxan Qurbanlı qeyd edib ki, bu cür tədbirlər gənclərin inkişafı baxımından xüsusi əhəmiyyət daşıyır. "Dövlətin dəstəyi ilə təşkil olunan festivallar onların yaradıcılıq potensialını üzə çıxarır, peşəkar səviyyəyə yüksəlməsinə şərait yaradır", - deyə o vurğulayıb.

Qeyd edək ki, festival mayın 15-dək davam edəcək.

*XQ*

# ADPU türkologiyanın pedaqoji mərkəzidir

**1926-cı ildə Bakıda keçirilmiş I Türkoloji Qurultay tarixə türk xalqları arasında elmi və mədəni inteqrasiyanın əsaslarını formalaşdıran mühüm hadisə kimi yazılıb. Möhtəşəm Bakı məclisinin 1 əsrlik yubileyi ölkəmizdə və Türk dünyasında ortaq təntənələrlə qeyd edilir. Azərbaycan Dövlət Pedaqoji Universitetində keçirilən "I Türkoloji Qurultayın 100 illiyi: Dil məsələləri" mövzusunda beynəlxalq konfrans, sadəcə, tarixi hadisənin anılması ilə məhdudlaşmır, türkologiya sahəsində müasir dövrün elmi və dil problemlərinə cavab axtarır.**

**Konfransın Təşkilat komitəsinin sədri, universitetin filologiya fakültəsinin dekanı Könül Həsənova** XQ-yə



açıqlamasında bildirdi ki, beynəlxalq konfrans akademik platforma kimi ortaq türk elmi-mədəni irsinin yenidən dəyərləndirilməsi baxımından mühüm hadisədir:

– Elmi məclis yalnız yubiley xarakteri daşımır, türkologiyanın çağdaş durumu və qarşıda dauran vəzifələri də gündəmə gətirib. Konfransın hazırlıq yüksək səviyyədə aparılıb. Məqsədimiz zəngin akademik ənənələrə malik universitetimizin adına layiq, yüksək səviyyəli beynəlxalq tədbir təşkil etmək idi. Universitet rəhbərliyinin də vurğuladığı kimi, bu tədbirin mahiyyəti məhz bu kontekstdə dəyərləndirilməlidir. Konfransın açılışında rektor Cəfər Cəfərovun və beynəlxalq məsələlər üzrə prorektor Mahirə Hüseynovanın qeyd etdikləri kimi, bu məclis yalnız keçmişə baxış deyil, həm də gələcək üçün yol xəritəsidir. Başqa sözlə, burada məqsəd təkcə tarixə istinad etmək yox, həmin irsi müasir çağırışlarla uzlaşdıraraq yeni elmi istiqamətlər müəyyənləşdirməkdir.

Müasir dövrdə qloballaşma, rəqəmsallaşma və informasiya axınının sürətlənməsi dillərin mövqeyinə yeni təsirlər göstərir. Belə şəraitdə türk dillərinin qorunması, inkişafı və ortaq elmi məkanın yaradılması strateji prioritetə çevrilir. Əgər biz bu prosesi düzgün idarə etməsək, dilimiz yalnız məişət səviyyəsində qalacaq, elmi və texnoloji diskursdan kənarda qalmaq riski ilə üzləşəcək.

Bu baxımdan keçirilən beynəlxalq konfransın əsas məqsədi yalnız elmi müzakirələr aparmaq deyil, həm də konkret əməkdaşlıq platformaları yaratmaqdır. Universitetimizdə təşkil olunan elmi toplantı müxtəlif ölkələrdən alimləri bir araya gətirərək onlarıortaq problemlərin müzakirəsini və həll yollarının axtarışını təşviq edir. Bu isə türkoloji elmin parçalanmış deyil, koordinasiyalı şəkildə inkişafına zəmin yaradır.

Yubiley çərçivəsində həyata keçirilən beynəlxalq konfrans dövlət səviyyəsində qəbul olunmuş qərarların məntiqi davamıdır və əsas məqsəd türkoloji elmi yeni mərhələyə çıxarmaqdır. Bu, yalnız akademik sahə ilə məhdudlaşmır; dil siyasəti, təhsil, mədəniyyət və hətta texnologiya sahələrini də əhatə edir.

**– Konfransın əhatə coğrafiyası və mövzu dairəsi da genişdir.**

– Doğrudan da, məclisdə iştirakçıların təmsil etdikləri ölkələrin xəritəsi geniş, müzakirəyə çıxarılan mövzuzar aktual və rəngarəngdir. Konfransa Türkiyə, Özbəkistan, Qazaxıstan, Qırğızıstan, Tatarıstan, Koreya, Rusiya Federasiyasının Altay və Kalmıkiya regionları, eləcə də Ukrayna, Moldova, Estoniya və Əfqanıstandan alimlərin qatılması tədbirin beynəlxalq miqyasını və türkoloji araşdırmaların artıq regional çərçivəni aşaraq qlobal səviyyəyə yüksəldiyini aydın şəkildə göstərir. Bu müxtəliflik həm elmi yanaşmaların zənginləşməsinə, həm də fərqli məktəblər arasında dialoqun güclənməsinə şərait yaradır.

Konfrans proqramı yalnız elmi iclaslarla məhdudlaşmır. Səfər çərçivəsində iştirakçılar ADPU-nun Şamaxı filialı ilə yaxından tanış olacaq, daha sonra isə Pirqulu Rəsədxanasını ziyarət edəcəklər. Bu proqram Azərbaycanın yalnız akademik deyil, həm də elmi və mədəni irsini təqdim etmək baxımından xüsusi əhəmiyyət daşıyır və qonaqlarda ölkəmiz haqqında daha dolğun təsəvvür formalaşdırmağa xidmət edir.

Əsas məqsəd 1926-cı ildə keçirilmiş I Türkoloji Qurultay irsini yenidən elmi dövriyyəyə gətirmək, onun dil siyasəti, əlifba islahatı və ümumtürk inteqrasiyası baxımından əhəmiyyətini müasir kontekstdə təhlil etməkdir. Eyni zamanda, bu tədbir türkdilli ölkələr arasında elmi əməkdaşlığı gücləndirmək, ortaq terminoloji və metodoloji yanaşmalar formalaşdırmaq məqsədi daşıyır.

**– Beynəlxalq konfransdan gözləntiləriniz nələrdir?**

– Türk dünyasının birliyi bu gün daha da aktualdır. Qloballaşma şəraitində dillərin qorunması, ortaq elmi məkanın yaradılması və mədəni inteqrasiya məsələləri yenidən ön plana çıxır. 1926-cı ildə qoyulan əsaslar bu gün də istiqamətverici rol oynaya bilər. Digər tərəfdən gələcəyin uğurlu modeli üçün universitetlər əsas rol oynamalıdır. Güclü elmi baza, tədqiqat mühiti və insan kapitalı olmadan heç bir strateji məqsədə nail olmaq mümkün deyil. Bu mənada Türkoloji Qurultayın ideyaları bu gün universitetlər üçün də yol xəritəsi rolunu oynaya bilər.

Ümid edirik ki, Azərbaycan Dövlət Pedaqoji Universiteti tərəfindən təşkil olunan bu mərasim yalnız elmi müzakirələrlə məhdudlaşmayacaq, həm də real əməkdaşlıqlara, birgə layihələrə və yeni tədqiqat istiqamətlərinə yol açacaq. Türkoloji Qurultayın ideyalarını yenidən canlandırmağa və onları müasir elmi müstəviyə daşımağa nail olacağıq.

*Müsahibəni hazırladı:*
*Namiq QƏDİMOĞLU*
*XQ*

# Konstitusiya Məhkəməsi Plenumunun iclası

**Konstitusiya Məhkəməsi Palatasının növbəti iclası keçirilib.**

İclasda Konstitusiyanın 130-cu maddəsinin VI hissəsinə və "Konstitusiya Məhkəməsi haqqında" Qanunun 7.1-ci maddəsinə əsasən, İnzibati Xətalar Məcəlləsinin 192, 262, 264 və 539-cu maddələrinin şərh edilməsinə dair Cəbrayıl Rayon Məhkəməsinin müraciətinə baxılaraq, Plenumun icraatına qəbul olunması haqqında qərardad qəbul edilib.




Müraciətə mahiyyəti üzrə Konstitusiya Məhkəməsi Plenumunun iyunun 5-nə təyin edilmiş iclasında baxılacaq.

*XQ*

# Torpağın hikmətini elmə gətirən akademik

**Torpağa bağlı insanlar həmişə el gözündə uca tutulub, ehtiramla yad ediliblər. Torpağa məhəbbət, xalqına xidmət insanı tanıdıb, şöhrətləndirib. Qərbi Azərbaycanın qədim bölgələrinin birində – Ağbaba-Şörəyel mahalının Oxcoğlu kəndində dünyaya göz açan akademik Məmmədtağı İbrahim oğlu Cəfərova da nüfuz qazandıran torpaq sevgisi, zəkası ilə ölkəsinin tərəqqisinə xidmət etməsi olub.**



Oxcoğlu Ağbaba-Şörəyel mahalının ən böyük kəndlərindən biri idi. 1988-ci ilin sonlarına olan məlumata görə, kənddə azərbaycanlılardan ibarət 1552 nəfər yaşayırdı. Şörəyel düzənliyində Gümrü şəhərindən 7 kilometr şimal-qərbdə yerləşən Oxcoğlu qədim və zəngin tarixin izlərini özündə daşıyır. Bu toponim ana kitabımız "Kitabi-Dədə Qorqud" dastanlarında, "Oğuznamə"lərdə, bir sıra əski türk yazılı qaynaqlarında, əfsanə və rəvayətlərdə şəxs və tayfa adı kimi xatırlanır.

Keşməkeşli ömür yolu keçən Məmmədtağı Cəfərov hələ kiçik yaşlarından həyatın sərt sınaqları ilə üzləşib. İkinci Dünya müharibəsinin ağrılı-acılı günləri, dəhşətli aclıq illəri anası Sara xanımı, altı yaşlı bacısını həyatdan vaxtsız aparsa da, Məmmədtağı Cəfərov (onda onun on yaşı var idi) bu dözülməz dərdlərə tab gətirdi. Atası İbrahim kişi müharibənin axırlarında doğma kəndinə qayıtsa da, artıq amansız tale öz işini görmüşdü

O qanlı-qadalı illərdə Oxcoğlu kənd yeddiillik məktəbində oxuyan Məmmədtağı anasının vəsiyyət etdiyi kimi torpağın bərəkəti ilə böyüdü. Torpağın bərəkəti onu mətinləşdirdi, özünə inamı gücləndirdi. Məmmədtağı Cəfərov ömrünün müdrik çağlarında yazırdı: "Torpağı yalnız ana südü ilə müqayisə etmək olar. Odur ki, torpaq məhəbbəti südlə, qan yaddaşı ilə keçir".

Oxcoğlu kənd yeddiillik məktəbini əla qiymətlərlə başa vurub İrəvan Azərbaycanlı Kənd Təsərrüfatı Texnikumuna daxil olan M.Cəfərov bu təhsil ocağını da əlaçı və nümunəvi tələbə kimi bitirdi.

Texnikumu qırmızı diplomla bitirən gənc Məmmədtağı Moskvada K.A.Timiryazev adına Kənd Təsərrüfatı İnstitutuna qəbul olunsa da, təhsilini davam etdirə bilmədi. Çünki Moskva kimi nəhəng bir şəhərdə ali təhsil almaq üçün yalnız bilik və bacarıq kifayət etmirdi, qalmağa yer, maddi vəsait lazım idi. Lakin bu ağır vəziyyət onu yolundan döndərə bilmədi, arzularının işığında qədim Gəncəyə üz tutdu.

1954-cü ildə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun (indiki Aqrar Sənaye Universiteti) aqranomluq fakültəsinə daxil oldu. Tələbəlik həyatının ilk günündən ömrünün sonunadək taleyini Gəncə şəhəri ilə bağladı. Yarım əsrdən çox müxtəlif adlar altında fəaliyyət göstərən bu ali təhsil ocağında çalışdı. 1959-1962-ci illərdə AKTİ-nin aspiranturasında oxuyan Məmmədtağı Cəfərov elmi fəaliyyətinin əsas istiqamətlərini torpağın münbitliyinin artırılmasına və fosfor balansının tənzimlənməsinə yönəltdi. Bu da səbəbsiz deyildi: axı kiçik yaşlarından o, torpaqla nəfəs almış, onun yetirdiyi nemətlərlə böyüyüb bərkimişdi.

Nəhayət, torpaq sevgisi, gərgin elmi axtarışlar öz bəhrəsini verdi. Gənc aspirant 1963-cü ildə "Gəncə-Qazax zonasının suvarılan torpaqlarında müxtəlif növ fosfor gübrələrinin effektivliyi" mövzusunda dissertasiya müdafiə edərək kənd təsərrüfat elmləri namizədi elmi dərəcəsi aldı. Beləliklə, Azərbaycan torpaqşünaslıq elmində su rejimi, torpağın münbitliyinin təmin edilməsi, aqroekoloji şəraitin nəzərə alınması və ayrı-ayrı mövsümlərdə aqrokimyanın flora və faunaya təsiri məsələləri sahəsində uğurlu bir addım atıldı. Onun əldə etdiyi elmi nəticələr yalnız Azərbaycanda deyil, keçmiş Sovetlər Birlyində torpağın məhsuldarlığının artırılmasında fosfat gübrələrindən səmərəli istifadə, ona olan tələbatın öyrənilməsi və xəritələşdirilməsi və sair sahələrdə uğurla tətbiq olundu.

Akademik Məmmədtağı Cəfərovun elmi fəaliyyətinin birinci mərhələsində (1960-1980) fosfatlar problemin araşdırılması, bu birləşmələrin bitki örtüyünün inkişafında rolu, müasir aqrar-sənaye sahələrində tətbiqi kimi əhəmiyyətli məsələlər geniş yer tutmuşdur. Çağdaş dövrümüzdə belə aktual və qlobal problemlərin tədqiqi yalnız Məmmədtağı Cəfərovun elmi maraq dairəsindən irəli gəlmirdi, həm də görkəmli akademikin torpağa bağlılığının, Vətən sevgisinin parlaq təcəssümü idi. Onun 1973-cü ildə Belarusiya Elmi-Tədqiqat Əkinçilik İnstitutunda "Azərbaycan torpaqlarında və əkinçiliyində fosfatlar problemi" mövzusunda doktorluq dissertasiyası müdafiə etməsi bu cəhətlərin nəticəsi kimi dəyərləndirilməlidir.

Məmmədtağı müəllimin elmi fəaliyyəti yalnız fosfatlar probleminin tədqiqi ilə məhdudlaşmır. O, çoxşaxəli fəaliyyətinin ikinci dövründə (1980-2007) respublikamızda eroziyaya uğramış torpaqların xəritələşdirilməsi və yararlı hala salınması, becərmə sisteminin təkmilləşdirilərək beynəlxalq standartlara uyğunlaşdırılması kimi mühüm əhəmiyyət daşıyan problemlərin elmi-nəzəri və praktik həlli ilə məşğul olmuşdur. Quba-Xaçmaz, Şəki-Zaqatala və digər bölgələrin torpaqlarının tədqiqi, suvarma zamanı torpaqların gübrələnməsi, rekultivasiyası kimi aktual məsələlər, bir sözlə, respublikamızda torpaqşünaslığın elm kimi imkişafı akademik Məmmədtağı Cəfərovun adı ilə bağlıdır. Bu baxımdan onun "Torpaq fondu və ondan səmərəli istifadə", "Kənd təsərrüfatı bitkilərinin becərilmə və yığılma texnologiyası", "Azərbaycanın əsas əkinçilik zonalarında qida maddələrinin balansı" (rus dilində), "Azərbaycan torpaqlarında və əkinçiliyində fosfatlar problemi" monoqrafiyaları, iki hissədən ibarət "Torpaqşünaslıq" dərsliyi, "Torpaqşünaslıq və geologiyanın əsasları", "İrimiqyaslı torpaq xəritələrinin tərtibi və istifadəsi" və digər əsərləri mühüm əhəmiyyət kəsb edir.

Keçən əsrin sonlarında torpaqlarımızın bir hissəsinin ekoloji qəza məkanına çevrilməsi barədə görkəmli alimin çaldığı həyəcan təbili və problemin həlli yolları bu günümüzdə də eyni aktuallıqla səslənir. Mütəxəssis-alimlər bu fikirlərində tamamilə haqlıdırlar ki, "Məmmədtağı Cəfərovun elmi konsepsiyası ekoloji təmiz məhsul istehsalının elmi əsasını vermişdir".

Öz elmi məktəbini yaradan alim, həm də görkəmli təhsil təşkilatçısı və ictimai xadim kimi tanınır. Onun pedaqoq-alim kimi Azərbaycan elm və təhsilinin inkişafında böyük xidmətləri olmuşdur. Xüsusilə, "Torpaqşünaslıq" dərsliyi çağdaş dünyamızın ekoloji problemlərinə yeni elmi-metodoloji yanaşma və konsepsiyası ilə diqqəti cəlb edir. Bu dərslik müəllim və tələbələrin, mütəxəssislərin stolüstü kitabıdır. Bu istiqamətdə Məmmədtağı müəllimin elmi-pedaqoji fəaliyyətini yüksək qiymətləndirən görkəmli akademik Həsən Əliyev yazırdı: "Azərbaycan dilində kənd təsərrüfatı məktəbi üçün "Torpaqşünaslıq" dərsliyinin ilk müəllifi professor Məmmədtağı Cəfərovun xidmətləri əvəzsizdir".

Tələbə, aspirant, müəllim, kafedra müdiri, dekan, rektor – bütün bu mərhələlər Məmmədtağı müəllimin ömür yolunun şərəfli səhifələridir. O, 1988-ci ildə ulu öndər Heydər Əliyevin fərmanı ilə bu ali məktəbə rektor təyin olunan gündən irimiqyaslı islahatlara, yeni yaradıcılıq metodlarına, kadr potensialının güclənməsinə geniş meydan açdı. Rektorluğunun ilk dönəmində bir sıra uğurlara imza atdı, rəhbərlik etdiyi təhsil ocağı nəinki keçmiş Sovetlər Birliyində, xarici ölkələrdə də tanınmağa başladı. 1989-cu ildə ölkədə hökm sürən özbaşınalıq və xaosdan istifadə edən qüvvələr onu tutduğu vəzifədən qeyri-qanuni şəkildə uzaqlaşdırsalar da, Məmmədtağı Cəfərov öz əqidəsindən dönmədi. Evi gülləyə tutuldu, iftira və böhtanlara, təqib və təzyiqlərə məruz qaldı, əyilmədi, daim haqqa, ədalətə güvəndi. Vətənin dar günlərində bu inam, dövlətçiliyimizə sədaqət onu "91-lər"lə birləşdirdi. Qaragüruhçu qüvvələrin bütün cəhdləri boşa çıxdı, Heydər Əliyev doğma xalqının imdadına yetişib yenidən hakimiyyətə qayıtdı. Bu, Azərbaycan xalqının qələbəsi, ədalətin təntənəsi idi. Bu qələbədə akademik M.Cəfərovun da danılmaz xidmətləri oldu.

O, 1995-ci ildə ikinci dəfə bu ali məktəbə rektor təyin olundu və yüksək ləyaqət hissi ilə ömrünün sonuna – 2007-ci ilə qədər bu vəzifədə çalışdı. Azərbaycançılıq ideologiyasına, dövlətçilik ənənəsinə sədaqət, elm və təhsilimizin inkişafı naminə əsl vətəndaş-ziyalı mövqeyində dayanmaq bir şəxsiyyət, alim-pedaqoq və ictimai xadim kimi akademik Məmmədtağı Cəfərovun əqidə bütövlüyünü, mənəvi əzəmətini nümayiş etdirir.

Yaşasaydı, Məmmədtağı müəllim 90 illik yubileyini qeyd edəcəkdi. Fəqət amansız tale buna macal vermədi. Məmmədtağı müəllimin əziz xatirəsi həmişə bizimlədir.

***Avtandil AĞBABA,***
***filologiya elmləri doktoru,***
***Əməkdar jurnalist***

# Sumqayıtda Xalq yazıçısı ilə görüş





**Sumqayıtydakı Heydər Əliyev Mərkəzində dünyaca məşhur detektiv yazıçısı, AYB-nin birinci katibi Çingiz Abdullayevlə görüş keçirildi. Mərkəzin AYB Sumqayıt bölməsi ilə təşkil etdiyi məclisə ziyalılar, gənc yazarlar, tələbələr və ədəbiyyatsevərlər toplaşmışdı.**

Görüşün aparıcısı yazıçı-ssenarist, kulturoloq Hafiz Ataxanlı Çingiz Abdullayevin yaradıcılığı, Azərbaycan və dünya ədəbiyyatındakı yeri, detektiv janrının xüsusiyyətləri barədə geniş məlumat verdi. O bildirdi ki, Xalq yazıçısı Çingiz Abdullayevin əsərləri dünyanın 30-dan artıq ölkəsində nəşr olunub. 150-yə qədər roman və povestin müəllifi kimi dünyada maraqla oxunan beynəlxalq "statuslu" yazıçıdır. Böyük həvəslə mütaliə olunan yazıçının kitablarının ümumi tirajı artıq çoxdan 25 milyonu keçib. Təsadüfi deyil ki, hüquq elmləri doktoru, Beynəlxalq Ədəbiyyat Fondunun sədri, bir çox respublika və nüfuzlu beynəlxalq mükafatların laureatı olan Çingiz Abdullayevin oxucularla vaxtaşırı görüşləri keçirilir, hər kəs həmin görüşlərdə böyük həvəslə iştirak edir.

AYB Sumqayıt bölməsinin sədri Gülnarə Cəmaləddin, Abşeron-Xızı Regional Mədəniyyət İdarəsinin məsləhətçisi Bayram Cəfərli, filologiya elmləri doktoru, professor Rafiq Yusifoğlu, Əməkdar müəllim Ofelya Babayeva, yazıçı Hümbət Həsənoğlu, şair İbrahim İlyaslı, "Riyakarın iflası" kitabının redaktoru Təbəssüm Muxtarova, tərcüməçisi Minurə İsmayılova və başqaları çıxış edərək yazıçının Azərbaycan ədəbiyyatının tanıdılmasında mühüm rol oynadığını qeyd edərək, belə görüşlərin gənclərin ədəbiyyata marağının artırılmasına xidmət etdiyini bildirdilər.

"Şöhrət" ordenli Xalq yazıçısı Çingiz Abdullayev oxucuların suallarını cavablandırdı, yaradıcılıq planlarından danışdı və gənclərə mütaliənin əhəmiyyətini açıqladı.

Görüşün sonunda müəllif yeni kitablarını oxucular üçün imzaladı.

***Əli NƏCƏFXANLI***
***XQ***

*15 May Beynəlxalq Ailə Günüdür*

# Sağlam ailə xoşbəxt cəmiyyətin qaynağıdır

**Həyatın sürətli axınında, rəqəmsal dünyanın bizi yeni sınaqlarla üzləşdirdiyi bir dövrdə ruhumuzun dinclik tapdığı, güc aldığımız doğma sığınacaq ailəmizdir. Hər il sevgi ilə qeyd olunan 15 May Beynəlxalq Ailə Günü bizə bu müqəddəs ocağın nə qədər gərəkli olduğunu və onun qorunması üçün üzərimizə düşən məsuliyyəti bir daha xatırladır.**

Ailə insanın həyata göz açdığı andan etibarən sevməyi, paylaşmağı və çətinliklərə birgə sinə gərməyi öyrəndiyi ən müqəddəs məkandır. Bir süfrə başında edilən söhbətlərin səmimiyyəti heç nə ilə əvəz oluna bilməz. Çünki ailə, sadəcə, eyni damın altında yaşamaq deyil, ortaq duyğuları bölüşmək və bir-birinin sevinc və kədərini təmənnasız bölüşməkdir. Bu bağlılıq elə möhkəm tellərlə toxunub ki, zaman keçsə, məsafələr uzansa da, insanın daxili tarazlığını qoruyan tükənməz güc mənbəyi olaraq dəyişməz qalır.

Lakin müasir dövrün sürətli ritmi, rəqəmsallaşma və qlobal dəyişikliklər fonunda ailə institutu ciddi sınaqlarla üz-üzədir. Ailədaxili ünsiyyətin yerini çox vaxt rəqəmsal cihazlar tutur və "eyni damın altında, lakin fərqli dünyalarda" yaşamaq təhlükəsi müasir cəmiyyətin ən ciddi mənəvi problemlərindən birinə çevrilir. Bəzən böyük uğurların ardınca qaçarkən, qapıdan içəri girəndə bizi qarşılayan o isti təbəssümün, uşaq gülüşünün və ya bir böyüyün xeyir-duasının, əslində, həyatın özü olduğunu unuduruq. Halbuki ailə həm də gələcək nəsillərin mənəviyyatının formalaşdığı ilk və ən mühüm məktəbdir. Övladlarımıza verə biləcəyimiz ən böyük miras bahalı əşyalar deyil, onlara aşılaya bildiyimiz sevgi, hörmət və bağlılıq duyğusudur. Məhz bu nöqtədə texnoloji yeniliklərin ailədaxili səmimiyyətə təsiri məsələsi aktuallaşır.



**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Ailə məsələləri şöbəsinin aparıcı məsləhətçisi Ləman Mahmudova bu təhlükənin qarşısını almaq üçün rəqəmsal savadlılığın vacibliyini ön plana çəkdi:**

– Ailə cəmiyyətin əsas sütunu, sosial sabitliyin və mənəvi dəyərlərin daşıyıcısı kimi mühüm funksiyaları yerinə yetirən institut olaraq hər zaman cəmiyyətdə xüsusi diqqət və həssas yanaşma tələb edən mövzu olaraq qalır.

Müasir dövrdə informasiya texnologiyalarının inkişafı, internetin insanların həyatına daxil olması, bilik, sosial ünsiyyətin genişlənməsinin cəmiyyətə kifayət qədər müsbət təsiri olsa da, eyni zamanda ailədə ənənəvi bağlılığın zəifləməsinə gətirib çıxarır. Texnologiyadan düzgün və balanslı istifadə xüsusilə ailə daxilində qarşılıqlı anlayışın və emosional bağlılığın qorunması baxımından mühüm əhəmiyyət daşıyır.

Xüsusilə valideynlərin uşaqlara rəqəmsal mühitdə təhlükəsiz davranış, informasiya savadlılığı, sosial media istifadəsi mədəniyyəti və düzgün seçim etmə bacarıqlarını aşılamaq istiqamətində rolu olduqca vacibdir. Çünki uşaqlar ilk davranış modelini və dəyərləri məhz ailə mühitində mənimsəyirlər. Ailə daxilində qarşılıqlı etimad, açıq dialoq və birgə səmərəli vaxt keçirmək uşaqların hərtərəfli inkişafına mühüm töhfə verir. Bu məsələ yalnız dövlət qurumlarının fəaliyyəti və ya səlahiyyətləri ilə məhdudlaşmır. Bütövlükdə cəmiyyət üzvləri bu istiqamətdə həmrəy və məsuliyyətli mövqe nümayiş etdirməlidirlər.

**Mütəxəssis sağlam ailə modelinin qurulmasında mənəvi dəyərlərin, eləcə də Komitə tərəfindən keçirilən sosial layihələrin rolundan da danışdı:**

– Sağlam ailə münasibətlərinin formalaşmasında mənəvi dəyərlər əsas müəyyənedici faktorlardandır. Dəyər anlayışı yalnız ailədaxili münasibətləri deyil, bütövlükdə, insanın həyata baxışını, sosial məsuliyyət hissini, davranış modelini və cəmiyyətə münasibətini formalaşdıran mühüm meyardır. Məhz ailə mühitində aşılanan hörmət, məsuliyyət, etimad, qayğıkeşlik və qarşılıqlı anlayış kimi mənəvi dəyərlər insanın həm fərdi keyfiyyətlərinin formalaşmasına, həm də gələcək həyatının sağlam təməllər üzərində qurulmasına təsir göstərir.

Ailə insanın ilk dəyər məktəbi hesab olunur. Şəxsin gələcəkdə faydalı fərd kimi yetişməsi, sosial münasibətlərdə düzgün mövqe sərgiləməsi, öhdəlik və məsuliyyət anlayışını mənimsəməsi məhz ailədə qazandığı dəyərlərlə bağlıdır. Güclü və ortaq dəyər sistemi üzərində qurulan ailə daha sağlam, dayanıqlı və emosional baxımdan güclü cəmiyyətin formalaşmasının əsasını təşkil edir.

Məhz bu mənada ailə dəyərlərinin qorunması, sağlam münasibətlərin qurulması və uşaqlarda düzgün davranış modellərinin formalaşdırılması istiqamətində həyata keçirilən maarifləndirici fəaliyyət xüsusi əhəmiyyət daşıyır. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən ailə institutunun gücləndirilməsi, qadınların sosial fəallığının artırılması, valideyn–övlad münasibətlərində sağlam ünsiyyətin təşviqi, uşaq və yeniyetmələrin təhlükəsiz mühitdə formalaşmasına dəstək məqsədilə müxtəlif sosial layihələr, maarifləndirici görüşlər, konfranslar, forumlar və beynəlxalq ekspertlərin iştirakı ilə ailələr və uşaqlarla çalışan mütəxəssislər üçün təlim proqramları həyata keçirilir.

**Müsahibimiz uşaqların gələcək xarakterinin məhz ailədəki sevgi və etimad mühitində formalaşdığını diqqətə çatdıraraq bildirdi ki, valideynlər müasir rəqəmsal çağırışlar fonunda övladları ilə səmimi dialoq qurmalı, texnoloji asılılıqla canlı ünsiyyət arasında düzgün balans yaradaraq onlara həm mənəvi, həm də sosial inkişafda nümunə olmalıdırlar:**

– Valideyn–övlad münasibətlərinin sağlam şəkildə qurulması davamlı diqqət, qayğı, emosional yaxınlıq və düzgün ünsiyyət mədəniyyəti tələb edir. Ailə daxilində sağlam dialoqun formalaşdırılması, uşağın fikirlərinin dinlənilməsi və duyğularının anlayışla qarşılanması onun özünü dəyərli hiss etməsinə və emosional dayanıqlılığının güclənməsinə mühüm təsir göstərir. Çünki hər bir uşaq sevgiyə, dəstəyə, anlayışa və səmimi ünsiyyətə ehtiyac duyur.



Müasir dövrdə valideynlərin üzərinə düşən əsas məsuliyyətlərdən biri də uşaqların rəqəmsal mühitdən düzgün və təhlükəsiz istifadəsinə nəzarət etməklə yanaşı, bu istiqamətdə özlərinin də davamlı maariflənməsidir. İnformasiya axınının sürətlə artdığı bir zamanda uşaqlarda sağlam düşüncə, düzgün seçimetmə bacarığı və güclü dəyər sisteminin formalaşdırılması xüsusi əhəmiyyət daşıyır. Gün ərzində vaxtın düzgün idarə olunması, texnologiya ilə canlı ünsiyyət arasında balansın qorunması, mütaliəyə və şəxsi inkişafa marağın təşviqi ailədaxili münasibətlərin daha sağlam təməllər üzərində qurulmasına töhfə verir.

Valideynlərin həm şəxsi, həm də uşaqların psixoloji, emosional və sosial inkişafı ilə bağlı davamlı maariflənməsi və əldə olunan bilikləri ailə münasibətlərində tətbiq etməsi gələcək yeni nəslin sağlam formalaşmasında mühüm rol oynayır. Çünki ailədə aşılanan sevgi, qayğı, məsuliyyət və qarşılıqlı hörmət yalnız bir fərdin deyil, bütövlükdə, sağlam və dayanıqlı cəmiyyətin əsas təməlidir. Hər nə qədər müasir tendensiyalar, rəqəmsallaşma və sürətli sosial dəyişikliklər həyatımıza təsir göstərsə də, ailə bütün dövrlərdə insan üçün ən isti, ən ülvi, sevgi, anlayış və mənəvi bağlılığın ən dərin şəkildə yaşandığı məkandır.

***Elenora HƏSƏNOVA***
***XQ***

*15 May Beynəlxalq İqlim Günüdür*

# “Yaşıl” inqilab bəşəri xilas yoludur

**Hər il may ayının 15-i dünyada Beynəlxalq İqlim Günü kimi qeyd edilir. Belə bir xüsusi günün təsis edilməsində əsas məqsəd dünyanın dayanıqlı inkişafı prosesində iqlim dəyişmələri ilə mübarizəyə beynəlxalq ictimaiyyətin diqqətini cəlb etməkdir. Respublikamız 2021-ci ildə Qlazqo şəhərində keçirilmiş BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 26-cı Sessiyası (COP26) zamanı rəsmi olaraq qlobal iqlim dəyişmələrinə təsirini azaltmaq məqsədilə təşəbbüslərə töhfə olaraq 2050-ci ilə qədər atmosferə atılan istixana qazlarının miqdarını 40 faiz azaldılmanı hədəf kimi götürüb.**



Azərbaycan Respublikası Prezidentinin iqlim məsələləri üzrə nümayəndəsi Muxtar Babayev bu günlərdə keçirilən Aqrobiznesin İnkişafı Forumunda çıxışı zamanı qeyd edib ki, “2025-ci ildə ölkə üzrə orta temperatur 14,3 dərəcəyə çatıb. Bu isə əvvəlki dövrlərlə müqayisədə 1,6 dərəcə yüksəkdir. Ölkə üzrə ən yüksək orta temperatur 2021-ci ildə 16,2 dərəcə qeydə alınıb”. M. Babayev daha sonra bildirib ki, ölkədə isti hava dalğaları da tez-tez baş verir və daha uzun davam edir.

**Elm və Təhsil Nazirliyi Coğrafiya İnstitutu PHŞ-nin iqlim şöbəsinin aparıcı elmi işçisi, coğrafiya üzrə fəlsəfə doktoru Həsən Nəbiyev** XQ-yə mövzu ilə bağlı açıqlamasında bildirib ki, iqlim dəyişmələrinin tədqiqi müasir iqlimşünaslığın çox vacib və aktual problemlərindən biridir. Onun tədqiqi



və araşdırılması Yer kürəsinin hər bir yerində olduğu kimi, respublikamızda da böyük elmi və praktiki əhəmiyyət kəsb edir. Bu dəyişmələri yaradan səbəblər mürəkkəb və müxtəlif olub kompleks təsirə malikdirlər.

İstiləşmənin əsas səbəbi kimi dünyanın əksər ölkələrində antropogen təsir nəticəsində atmosferə atılan istixana qazlarının konsentrasiyasının çoxalması göstərilir. Ölkəmiz 2015-ci ildə BMT çərçivəsində İqlim dəyişmələrinə qarşı mübarizə məqsədilə Paris razılaşmasına qoşulub. 196 ölkənin qoşulduğu bu razılaşmaya görə, atmosferə atılan istixana effekti yaradan qazların miqdarını azaltmaq, qlobal orta temperatur artımının 1,5 dərəcə həddini keçməyə imkan verməmək idi. Ölkəmiz də digər ölkələr kimi öz üzərinə öhdəliklər götürdü və onu müvəffəqiyyətlə yerinə yetirməyə başlayıb.

COP29-un Azərbaycanda keçirilməsi də bir daha göstərdi ki, ölkəmiz bu məsələyə çox ciddi yanaşır. Amma bir şeyi nəzərə almaq lazımdır ki, bu öhdəlikləri bütün ölkələr yerinə yetirməlidir, əks təqdirdə müsbət nəticə əldə etmək mümkün olmayacaqdır, çünki hava sərhəd tanımır. Təbii səbəblərin rolunu da yaddan çıxarmamalıyıq. Hələ 2019-cu ildə Beynəlxalq World Weather Attribution qrupunun alimləri qeyd etmişdilər ki, ekstremal isti hava dalğalarının təkrarlanması ötən 100 ilə nisbətən on dəfədən artıq çoxalıb. Onların məlumatına görə yüz il əvvəl müşahidə olunan isti hava dalğaları zamanı havanın temperaturu indikinə nisbətən 4 dərəcə selsi aşağı olub.

2026-cı il mart-aprel aylarında Bakıda və Azərbaycanın bir sıra regionlarında baş verən anomal hadisələr – subasma, kütləvi sel axınları və digər təhlükəli təbiət hadisələri də iqlim dəyişmələri ilə sıx bağlıdır. Mart ayının sonunda Xəzər dənizinin şimal-şərqində, troposferin orta təbəqələrində yaranan və rütubətlə ifrat doymuş yüksəklik siklonu nəinki dənizin, hətta ölkənin böyük ərazisini əhatə edərək normadan bir neçə dəfə çox yağıntı düşməsinə səbəb olmuş, şəhər ərazisində subasma ilə bağlı problemlərin yaranmasına gətirib çıxarmışdır. Belə proseslər nadir hallarda baş verir, adətən Azərbaycandan şimal-şərqdə, xüsusilə də Qərbi Sibir və Qazaxıstan üzərində antisiklon yaranır, Cənubi Qafqaz ərazisində siklonik fəaliyyətin güclənməsi ılə hava kütlələrinin ölkə ərazisinə müdaxiləsi baş verir, amma bu müdaxilə nəticəsində havanın temperaturu aşağı düşür, yağıntının miqdarı isə çox olmur. Bu qeyri-adi təbiət hadisəsini iqlim dəyişmələri ilə əlaqələndirmək olar. Aprel ayının 4-dən başlayan proses isə ölkə ərazisinə daxil olan Cənub siklonları ilə bağlıdır. Skandinaviya yarımadasından Aralıq dənizinin mərkəzi hissəsinə qədər uzanan yüksək təzyiq çökəkliyinin arxası ilə müdaxilə edən soyuq hava kütləları burada siklonların yaranma prosesini intensivləşib. Növbəti mərhələdə bu siklon şərq və şimal-şərq istiqamətdə Cənubi Qafqaz ölkələrinə doğru hərəkət etmiş və çoxlu miqdarda yağış və qar yağmasına səbəb olub.

Mütəxəssisin fikrincə, iqlim dəyişmələri Azərbaycan ərazisində təbii-dağıdıcı hadisələrin (sel, daşqın, dolu və s.) təkrarlanmasinin çoxalması ilə, sirkulyasiya şəraitinin, hakim küləklərin gücünün və istiqamətinin dəyişməsi, meridional proseslərin güclənməsi, cənub siklonlarının respublika ərazisinə müdaxiləsinin artması, her yerdə – istər düzənlik, istərsə də dağlıq ərazilərdə havanın temperaturunun artması, yağıntı miqdarının azalması, su probleminin yaranması ilə müşaiyət olunur. Apardığımız tədqiqatlar göstərdi ki, Azərbaycanda baş verən bu dəyişikliklər bilavasitə Günəş fəallığının artması ilə sıx bağlıdır. Hazırki dövrdə 25-ci 11 illik Günəş siklində (2019-2030-cu illər) günəş fəallığı daha intensivləşib və ölkədə böyük dəyişkənliyə gətirib çıxaran meridional proseslərin təkrarlanmasına və nəticədə, təbii-dağıdıcı hadisələrin artmasına səbəb olub.

Həsən Nəbiyevin fikrincə, yay aylarında daha çox müşahidə olunan meridional sirkulyasiya tipləri zamanı şimal yarımkürəsinin qütbətrafi rayonlarında yaranan antisiklonlar cənuba doğru hərəkət edir, subtropik antisiklonun yalı ilə birləşir və yaranan yüksək təzyiq qurşağı Atlantik okeanı tərəfdən gələn qərb hava axınlarının qarşısını kəsir. Şərqi Avropa və Sibir üzərində yaranan antisiklonların yalları isə Cənubi Qafqaza, o cümlədən Azərbaycan ərazisinə doğru yönəlir, burada dayanıqlı hava şəraiti yaranır və havanın temperaturunun artmasına səbəb olur.

Digər siklon isə Qərbi Sibir üzərində yerləşir və geniş bir ərazini əhatə edir. Mərkəzi və Şərqi Avropa üzərində isə subtropik antisiklonun şimala doğru yönəlmiş yüksək təzyiq yalı yerləşir. Troposferin orta təbəqələrində barik sistemlərin bu cür yerləşməsi onun aşağı təbəqələrində Avropanın cənubunda, Şimali Qafqazda Azor antisiklonu nüvəsinin inkişaf etməsinə, bəzən Azərbaycan ərazisinə qədər yayılmasına, Qafqaz üzərində zonal sirkulyasiyanın pozulmasına, meridionallığın artmasına gətirib çıxarır. Bu səbəbdən tədqiq olunan ərazidə havanın transformasiyası baş verir, nisbi və mütləq rütubətlik azalır, quraqlıq, yüksək temperatur üçün şərait yaranır.

***Müşfiq MİRZƏ***
***XQ***

# Hər dərdin dərmanı – Vətən!

*88 yaşlı Füzuli Quliyev Cəbrayıla qayıdandan sonra bütün ağrı-acılarını unudub*

**2023-cü ildə Dövlət Proqramı çərçivəsində Cəbrayıl rayonunda görülən işlərlə tanış olarkən “Azərişıq” ASC-nin yerli şöbəsində baş mühəndis işləyən Zaur Quliyevlə həmsöhbət olmuşdum. İlk söhbətimizdə bu insanın torpaq həsrətini və doğma yurda qayıdış anını səbirsizliklə gözlədiyini açıq-aydın hiss etmişdim. Həmin vaxtdan 3 il ötsə də, vaxtaşırı olaraq zəngləşir, hal-əhval tuturduq. Telefon söhbəti zamanı onun doğma rayonuna qayıdışı ilə bağlı təəssüratlarını dinləyir, iş və yaşayış şəraiti ilə maraqlanırdım.**



Zaur o vaxt deyirdi ki, əzəli yurdumuza birincilər sırasında qayıtmaq və bərpa-quruculuq işlərində iştirak etmək üçün rayonda işləməyə üstünlük verib. Əslən rayonun Süleymanlı kəndindən olan Zaur Quliyev ali təhsil aldıqdan sonra rayon mərkəzində ixtisası üzrə çalışıb. Onun sözlərinə görə, ailədə hamı kimi yaşlı atası da torpaq həsrəti ilə yaşayır, yurda dönüş anını səbirsizliklə gözləyirdi. Növbəti söhbətlərimizin birində isə o demişdi ki, 88 yaşlı atası da rayona ilk qayıdanlardan olub. İndi ata-oğul ailələri ilə bir binada, qonşu mənzillərdə yaşayırlar.

Ömürünün ahıl çağlarını yaşayan Təbriz Quliyev ilə söhbətimiz ötən günlərə işıq salır. Ağsaqqal deyir ki, 1958-ci ildən rayonda MTS-də sürücü işləyib, 1964-cü ildən isə rayon mərkəzində yaşayıb. Həyatın həm xoş, həm də çətin günlərini görüb. Rayon işğal olunanda kiçik oğlu Seymur cəbhədə idi. Ağır döyüşlərin birində uzun müddət ondan xəbər ala bilməyiblər: “Gözlərimiz günlərlə yollarda qaldı. Həyat yoldaşım ömrünün sonuna qədər o ağrıları unuda bilmədi”... Qəhər onu boğduğundan söhbətinin davamını gətirə bilmir.

“Seymur əsgər yoldaşları tərəfindən yaralı halda döyüş meydanından çıxarılıb, uzunmüddətli müalicədən sonra ikinci dərəcəli müharibə əlili olub”, – deyə qonşusu Füzuli kişi söhbətə qarışır. “Çox əziyyət çəkdik, amma şükür bugünümüzə. Prezidentimiz İlham Əliyevin qətiyyətli siyasəti və əsgərlərimizin rəşadəti nəticəsində torpaqlarımız 44 gün ərzində azad olundu. Dövlətimizin başçısının diqqət və qayğısı sayəsində işğaldan azad edilmiş bir çox ərazilərdə olduğu kimi, Cəbrayılda müasir evlər tikilərək keçmiş köçkünlərin ixtiyarına verildi. Yaşayış şəraitimiz çox yaxşıdır, qocaların rahatlığı üçün söhbətgahlar, körpələrin istirahəti üçün əyləncə yerləri quraşdırılıb. Məktəblərdə və uşaq bağçalarında yaradılmış şərait hər birimizin sevcinə sevinc qatır”.

Torpağa qayıdış anını həyatının ən xoşbəxt günü kimi qiymətləndirən həmsöhbətim maraqlı bir məqama da toxunur: “Uzun illər idi ki, təzyiqim məni son dərəcə narahat edirdi. Köçkünlük illərində Bakıda yataqxanada yaşamaq vəziyyətimi daha da ağırlaşdırırdı. Hiss edirdim ki, doğma yurdumun havası, suyu, hətta cığırı da mənə şəfa olacaq. 2024-cü il sentyabrın 26-da rayona qayıdan ilk sakinlərdən biri oldum və elə birinci gündən narahatlıqlarım azalmağa başladı. Bununla yanaşı, 30 ildən çox idi ayaqlarım ağrıyırdı, gəzə bilmirdim, indi isə xeyli yaxşılaşmışam, sərbəst hərəkət edirəm”.

Bu gün 88 yaşlı Təbriz kişi özünü gümrah hiss edir, qonşularla tez-tez görüşür, gənclərlə söhbət edir. O, bəzi hallarda rayon mərkəzindən 10 kilometr məsafədə yerləşən Horovlu kəndinə də baş çəkir: “Ora getmək mənə rahatlıq verir. Uzun illər sürücü və yanğından mühafizə sahəsində işlədiyim üçün rayonun bütün ərazilərini yaxşı tanıyıram. Mütəmadi olaraq köhnə dostlarla görüşüb keçmişi xatırlayırıq. Bir idarədə işlədiyim Fazil Bəhrəmovla isə tez-tez söhbətləşirik”.

Maraqlı xatirələri ilə hər kəsin rəğbətini qazanan Füzuli kişi isə günlərini əsasən qonşularla ünsiyyətdə keçirir. O, həm keçmişi yada salır, həm də bugününə şükür edir, dövlətin uğurlu sosial siyasətindən danışır, gənclərə düzgün yol göstərməyə çalışır.

***M.NƏRİMANOĞLU,***
***XQ-nin bölgə müxbiri***


## “Gəncə Mexanizasiya-5” ASC səhmdarlarının nəzərinə!

30 iyun 2026-cı il saat 11.00-da “Gəncə Mexanizasiya-5” ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

**Gündəlikdəki məsələlər:**

**1.** Səhmdar cəmiyyətin 2025-ci ilə aid fəaliyyətinin müzakirəsi.

**2.** Səhmdar cəmiyyətin gələcək fəaliyyət planlarının müzakirəsi.

**Əlaqə telefonu:** (055) 335-35-25, (050) 567-52-54.

**Ünvan:** Gəncə şəhəri, N.Nərimanov prospekti 38.

## “Ceyranbatan Dəmir Beton” ASC səhmdarlarının nəzərinə!

30 iyun 2026-cı il saat 11.00-da “Zoom” proqramı vasitəsilə onlayn qaydada “Ceyranbatan Dəmir Beton” ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

**Ümumi yığıncağın gündəliyi:**

**1.** Cəmiyyətin 2025-ci il üçün illik balansının, mənfəət və zərər hesabatlarının müzakirəsi və təsdiqi.

**2.** Digər məsələlər.

Görüşün təfərrüatları haqqında məlumat məktub vasitəsilə veriləcəkdir.

**Əlaqə telefonu:** 050-312-05-28.

***“Ceyranbatan Dəmir Beton” ASC-nin icra orqanı***

## “Bakı Hövsan Beynəlxalq Dəniz Limanı” ASC səhmdarlarının nəzərinə!

“Bakı Hövsan Beynəlxalq Dəniz Limanı” ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı 30 iyun 2026-cı il saat 11.00-da Bakı şəhəri, Suraxanı rayonu, Hövsan qəsəbəsi, Şakir Ziyadov küçəsi 1 nömrəli ünvanda yerləşən inzibati binada aşağıdakı gündəlikdə keçiriləcəkdir:

**Gündəlikdəki məsələlər:**

**1.** “Bakı Hövsan Beynəlxalq Dəniz Limanı” ASC-nin maliyyə-təsərrüfat fəaliyyətinin 2025-ci il üzrə hesabatının təsdiqi.

**2.** Direktorlar şurasının (müşahidə şurasının) tərkibinin yenidən seçilməsi və təsdiqi.

**3.** Digər məsələlər.

Səhmdarlar ümumi yığıncağın gündəliyinin materialları ilə iş günləri saat 10.00-dan 17.00-dək səhmdar cəmiyyətin Bakı şəhəri, Suraxanı rayonu (Hövsan qəsəbəsi), Şakir Ziyadov küçəsi 1 nömrəli ünvanda yerləşən inzibati binasında səhmdar cəmiyyətin rəhbərliyinə müraciət etməklə tanış ola bilərlər. Yığıncaqda iştirak etmək vacibdir.

**Ünvan:** Bakı şəhəri, Suraxanı rayonu, (Hövsan qəsəbəsi) Şakir Ziyadov küçəsi 1.

***Direktorlar şurası (müşahidə şurası)***

## “Giləzi-Yem” ASC səhmdarlarının nəzərinə!

29 iyun 2026-cı il saat 12.00-da Xızı rayonu, Giləzi qəsəbəsində “Giləzi-Yem” ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

**Gündəlikdəki məsələlər:**

**1.** İdarə heyətinin 2025-ci il üzrə hesabatı.

**2.** Dividendlərin bölüşdürülməsi.

**3.** İllik hesabatın təsdiqlənməsi.

**4.** Digər məsələlər.

Ümumi yığıncaqda bütün səhmdarların iştirakı vacibdir.

***“Giləzi-Yem” ASC-nin***
***Baş direktoru Yücel Sabri***

## “Şəmkir Şərab-2” ASC səhmdarlarının nəzərinə!

30 iyun 2026-cı il saat 11.00-da “Şəmkir Şərab-2 “ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

**Gündəlikdəki məsələlər:**

**1.** 2025-ci ilin yekunları üzrə ASC-nin hesabatı.

**2.** İdarə heyyətinin, müşahidə şurasının və təftiş komissiyasının tərkibinin seçilməsi.

**3.** Digər məsələlər.

**Ünvan:** Şəmkir rayonu, Çinarlı qəsəbəsi, Şəhriyar küçəsi 56.

Şəxsiyyəti təsdiq edən sənədlə birlikdə səhmdarların iştirakı vacibdir.

Nəzərənizə çatdırırıq ki, hazırda fəaliyyət göstərmirik.

***Direktor E.V.Süleymanova***

## “Sumqayıt Elektrik Dəstləşdirmə” ASC səhmdarlarının nəzərinə!

30 iyun 2026-cı il saat 11.30-da “Sumqayıt Elektrik Dəstləşdirmə” ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

**Gündəlikdəki məsələlər:**

**1.** 2025-ci ilin yekunları üzrə cəmiyyətin maliyyə-təsərrüfat fəaliyyəti barədə idarə heyətinin hesabatı.

**2.** Maliyyə-təftiş komissiyasının hesabatı.

**3.** 2025-ci il üçün illik hesabatın müzakirəsi və təsdiqi.

**4.** 2025-ci ilin yekunlarına görə dividendlərin verilməsinin müzakirəsi .

**Telefonlar:** 018 - 648-75-20 və 018 - 648-79-72.

Yığıncaq Sumqayıt şəhəri, 42-ci məhəllə, Çerkasski küçəsi 21 nömrəli ünvanda keçiriləcəkdir.

***İdarə heyəti***

## “RASİFOĞLU” ASC səhmdarlarının nəzərinə!

26 iyun 2026-cı il saat 11.00-da “RASİFOĞLU” ASC səhmdarlarının 10-cu illik ümumi yığıncağı keçiriləcəkdir.

**Gündəliyə aşağıdakı məsələlər daxildir:**

**1.** ASC-nin idarəetmə orqanlarının 2025-ci il üzrə maliyyə-təsərrüfat fəaliyyəti barədə yekun hesabatının müzakirəsi.

**2.** Digər məsələlər.

**3.** İdarə heyyətinin sədrinin seçilməsi.

Bütün səhmdarların iştirakı vacibdir.

**Telefon:** (02224) 2-26-99.

**Ünvan:** Goranboy şəhəri, C.Cabbarlı küçəsi 5.

***İdarə heyəti***

## “Azərkimya İstehsal və Xarici İqtisadi Əlaqələr” Açıq Səhmdar Cəmiyyəti səhmdarlarının nəzərinə!

30 iyun 2026-cı il saat 11:00-da Bakı şəhəri, Nərimanov rayonu, Dərnəgül qəsəbəsi, 2096-cı məhəllə, 507-ci küçə, 9 ünvanında “Azərkimya İstehsal və Xarici İqtisadi Əlaqələr” Açıq Səhmdar Cəmiyyətinin inzibati binasında səhmdarların illik ümumi yığıncağı keçiriləcəkdir.

**Yığıncağın gündəliyinə aşağıdakı məsələlər daxildir:**

**1.** 2025-ci ilin yekunu üzrə təftiş komissiyası hesabatının təsdiq edilməsi haqqında.

**2.** 2025-ci ilin mühasibat balansı və illik hesabatının təsdiq edilməsi haqqında.

**3.** 2025-ci ilin mənfəət və zərər hesabatının təsdiq edilməsi, zərərin bölüşdürülməsi haqqında.

**4.** Son illərdə Cəmiyyət rentabelli işləmədəyindən Cəmiyyətə məxsus daşınmaz əmlakların satılması məqsədi ilə qiymətləndirilməsi, satılması və satışdan əldə olunan vəsaitin səhmdarlar arasında bölüşdürülməsi haqqında.

**5.** Cəmiyyətin mülkiyyətində olan daşınmaz əmlakların yerləşdiyi torpaq sahəsi özəl olmadığından Əmlak Komitəsi ilə icarə müqavilələrinin bağlanması və yaxud özəlləşdirilməsi (tələb olunan vəsaitin mənbəyi) haqqında.

Yığıncağın gündəliyi üzrə materiallarla tanış olmaq üçün səhmdarlar bildirişdə göstərilən ünvana müraciət edə bilərlər. Müraciət olunduğu halda həmin materiallarla tanış olmaq üçün onlara lazımi şəraitin yaradılması təmin ediləcəkdir.

İllik ümumi yığıncaqda bütün səhmdarların iştirakı vacibdir.

**Əlaqə telefonu:** (050) 251-67-01

***Səhmdar Cəmiyyətin Müşahidə şurası***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 85 (31054) 15 may 2026-cı il, cümə

İDMAN

## Kamandan oxatmanın gələcək inkişafı



**Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli ilə Azərbaycan Kamandan Oxatma Federasiyasının baş katibi Fərid Xəlilov arasında işgüzar görüş keçirilib. Görüş zamanı tərəflər arasında əvvəllər imzalanmış memorandum və müqavilə çərçivəsində uğurla icra olunan layihələr nəzərdən keçirilib, həmçinin qarşılıqlı fəaliyyətin gələcək istiqamətləri ətrafında geniş fikir mübadiləsi aparılıb.**

Universitetin rektoru Gəray Gəraybəyli çıxışında idman ənənələrinin formalaşması və sağlam həyat tərzinin təbliğində bu kimi əməkdaşlıqların müstəsna əhəmiyyətini vurğulayıb. Kamandan oxatma üzrə birgə layihələrin icrasına görə federasiya rəhbərliyinə təşəkkürünü bildirən rektor, tələbələr arasında bu idman növünə olan yüksək marağın gözləntiləri üstələdiyini xüsusi qeyd edib. Eyni zamanda, görüşdə inklüzivliyin təmin edilməsi və fiziki məhdudiyyətli şəxslərin idmana cəlb olunması üçün müvafiq şəraitin yaradılmasına hər zaman dəstək verməyə hazır olduqlarını diqqətə çatdırıb.

Müzakirələrin sonunda tərəflər tələbə idmanının inkişafı və kütləviliyin artırılması istiqamətində birgə addımların davam etdiriləcəyini vurğulayıblar.

## Avropa çempionatında 2 medal



**Azərbaycan parataekvondoçusu Sabir Zeynalov (58 kq) Almaniyanın Münhen şəhərində keçirilən Avropa çempionatında gümüş medal qazanıb. İdmançı yarışla bağlı fikirlərini bölüşərkən bildirib ki, Almaniyaya yollanarkən fikrimdə yalnız qızıl medal qazanmaq var idi.**

Finalda rəqibim Yay Paralimpiya Oyunlarının qalibi oldu və ona uduzdum. Baxmayaraq ki, qarşılaşma boyunca üstün idim, son anlarda rəqib önə keçdi və qələbə qazandı. Qızıl medalı əldən buraxdığım üçün çox məyus oldum. İnşallah, məqsədim dünya çempionu olmaqdır.

Qeyd edək ki, K44 kateqoriyasında çıxış edən Sabir Zeynalov finalda israilli Asaf Yasura məğlub olub. S.Zeynalovdan başqa, digər Azərbaycan təmsilçisi İmaməddin Xəlilov (70 kq) da Avropa çempionatının gümüş medalına sahib çıxıb.

## Xankəndidə böyük futbola hazırlıq




**Xankəndi stadionunun avqust-sentyabr ayınadək tam hazır olacağı gözlənilir.**

Gənclər və idman naziri Fərid Qayıbov jurnalistlərə açıqlamasında bildirib ki, Xankəndi stadionu ilə bağlı bir az ləngimə oldu. Ötən il Xankəndidə III MDB Oyunlarının oxatma yarışı baş tutdu. Bu səbəbdən bəzi işləri ləngitməli olduq. Bu stadion UEFA standartlarına cavab verəcək. Burada beynəlxalq yarışların keçirilməsini, milli komandamızın da burada bəzi oyunları keçirməsini də istəyirik. Ot örtüyü, paltardəyişmə otaqları, tribunalar hazırdır. Bəzi tamamlama işləri gedir. Bəzi avadanlıqların xaricdən gələcəyi üçün gözləyirik. Ümid edirik ki, avqust-sentyabr ayınadək tam hazır olacaq".

*Qabil YUSİFOĞLU*
*XQ*

*Futbol tariximizdən*

# "Neftçi" Finlandiyada yüksək etimadı şərəflə doğrultmuşdu




**"İlk dəfə idi xaricə gedəcəkdik. Orada sovet insanını layiqincə təmsil etməli, ölkəmiz və futbolumuz haqda müsbət təəssürat yaratmalı idik. Buna görə də səfərə bir neçə gün qalmış bizi Bakının ən səviyyəli restoranına aparıb, çəngəl-bıçaqla yemək, onlardan necə istifadə etmək qaydalarını başa saldılar. İngiliscə bir neçə söz də öyrətmişdilər".**

Bu sətirlər müxtəlif illərdə Bakının "Neftçi" komandasının qapıçısı, rəisi, Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının (AFFA) baş katibi və Dövlət Televiziyasının şərhçisi kimi milyonların sevimli oyununun respublikamızda təbliğinə və inkişafına yorulmadan öz töhfələrini vermiş mərhum SSRİ idman ustası Çingiz İsmayılova məxsusdur və "Neftçi"–70, unudulmayan keçmiş, 1937–2007" kitabında (müəlliflər–Səbuhi Səfiyarlı, Elçin Rüstəmov) yer almışdır.

Bəs həmin xatirə qeydləri nə vaxt qələmə alınmış, SSRİ birinciliyinin "B" qrupunda oynayan "Neftçi"nin xaricə ilk səfəri neçənci ilə təsadüf etmiş, hansı ölkəyə olmuş, görüşlər necə nəticələnmişdir.

Bu barədə isə Azərbaycan idmanının yetirdiyi digər görkəmli şəxsiyyət, respublika Dövlət Bədən Tərbiyəsi və İdman Komitəsi sədrinin müavini, "Məhsul" Kənd Könüllü İdman Cəmiyyəti Respublika Şurasının sədri, "Neftçi"nin SSRİ çempionatının bürünc medallarını Bakıya gətirdiyi 1966-cı il də daxil olmaqla bir neçə il flaqman komandamızın rəisi kimi məsul vəzifələrdə çalışmış Şövkət Orduxanovun (Allah rəhmət eləsin) "Dünya dostumuzdur" kitabında ətraflı məlumat verilmişdir. 1978-ci ildə Azərbaycan Dövlət Nəşriyyatında çap olunmuş və respublika idmançılarının beynəlxalq görüşləri haqqında əhatəli məlumatlarla zəngin olan kitabda "Neftçi"nin Finlandiya səfəri də rəğbətlə xatırlanmışdır.

Oxuyaq: "1954-cü ildə "B" qrupu üzrə SSRİ birinciliyində çıxış edən "Neftçi" futbolçularına ölkədə birinci olaraq xaricdə sovet futbolunun ikinci dəstəsinin şərəfini qorumaq tapşırıldı. Finlandiya ilə ilk əlaqənin daha bir xüsusiyyəti var idi. İlk dəfə xaricə gedən Bakının "Neftçi" kollektivi "SSRİ–Finlandiya" Cəmiyyəti Finlandiya şöbəsinin dəvəti ilə bu ölkəyə səfərə çıxan sovet gəncləri nümayəndə heyətinin tərkibinə daxil idi.

Finlandiyanın bütün şəhərlərində kütləvi sülh və dostluq mitinqləri keçirildi. Bu mitinqlər ölkəmizin incəsənət ustalarının konsertləri və "Neftçi" futbolçularının iştirakı ilə keçirilən idman yarışları ilə başa çatdı.

Futbolçularımız Finlandiya şəhərlərində altı görüş keçirdilər və bütün oyunlarda parlaq qələbələr qazandılar. Bakılılar Lappenrant, Mikelli, Pietsari, Kemi, Turku şəhərlərinin yığma kollektivlərinə və Helsinkidə kommunal işçilərinin komandasına qalib gəldilər. Bu görüşlərin ümumi nəticəsi 39:0 oldu.

Bütün Finlandiya mətbuatı futbol ustalarımızın gözəl müvəffəqiyyətini geniş işıqlandırırdı. Oyunlar haqqında ətraflı hesabatlar dərc olunur, fotoşəkillər verilirdi. Qəzetlər yazırdılar ki, bakılılar "Bakı valsı" nümayiş etdirir, "Azərbaycan tempi" göstərirlər və s.

Üç ildən sonra Finlandiya futbolçuları cavab səfərinə gəldilər. Milli çempionatın üçüncü mükafatçısı–Turku şəhərinin TPS idman klubu Bakıda "Neftçi" ilə görüşdü. Bu oyunda bakılılar ərazi üstünlüyünə malik idilər. Lakin Finlandiya komandasının müdafiə xətti qapının təhlükəsizliyini təmin edə bildi. Oyun heç-heçə başa çatdı".

Beləliklə, çox dəyərli kitabların köməyi ilə bu gün xatırladıq ki, "Neftçi"nin xarici ölkələrə ilk səfəri 1954-cü ildə Finlandiyaya olmuş, komanda orada sovet futbolunu layiqincə təmsil etmiş, yüksək etimadı şərəflə–6 oyunda 6 qələbə ilə doğrulmuşdur.

*

Azərbaycan milli komandasının nisbətən yaxın keçmişdə, 2007-ci il martın 28-də Tofiq Bəhramov adına Respublika Stadionunda Avropa çempionatının seçmə mərhələsi çərçivəsində Finlandiya komandası ilə keçirdiyi oyunu da yeri gəldikdə xoş əhvalla xatırlayırıq. Həmin görüşdə yığmamızın baş məşqçisi Şahin Diniyev 66-cı dəqiqədə heyətdə dəyişiklik edərək Emin İmaməliyevi meydana buraxmış və gərgin mübarizənin taleyini də qarşılaşmanın sonuna yaxın onun vurduğu qol həll etmişdir. Qapıçımız Fərhad Vəliyev, başda komandanın kapitanı Aslan Kərimov olmaqla müdafiəçilər də inamla oynayaraq, italiyalı hakim Domeniko Messinanın final işarəsinədək qələbə hesabını qoruyub saxlaya bilmişlər–1:0.

Bu komandaların həmin ilin noyabr ayında Helsinkinin Olimpiya stadionunda keçirilmiş görüşündə də ikinci hissənin ortalarında Mahmud Qurbanov hesabı açdıqdan sonra Azərbaycan futbolçuları qələbəyə daha yaxın olmuşlar. Amma qalan vaxt ərzində Finlandiya komandası bu qola iki topla cavab vermişdir. Nəticədə lüksemburqlu hakim Alan Hammer rəqibimizin xeyrinə 2:1 hesabı qeydə almış və qələbəyə baharda Bakıda olduğu kimi, payızda Helsinkidə də meydan sahibləri sevinmişlər.

*Oqtay BAYRAMOV,*
*Əməkdar jurnalist*

# Velosiped marafonunun sonuncu dayanacağı Xankəndi oldu

**Ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş "Bakı-Xankəndi" Azərbaycan beynəlxalq velosiped yarışının həlledici – 5-ci mərhələsi mayın 14-də Tərtər rayonundan start götürüb.**





Tərtər şəhərinin Heydər Əliyev prospektində, Mərkəzi Meydanda yarışın start mərasimi keçirilib. Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədovun verdiyi start siqnalı ilə velosipedçilər prospekt boyunca hərəkətə başlayıblar. Beynəlxalq Velosipedçilər İttifaqının (UCI) təqviminə daxil edilmiş bu mötəbər yarışın beşinci günü ümumi məsafəsi 181,3 kilometr olan Tərtər-Füzuli-Şuşa-Xankəndi marşrutu üzrə təşkil olunub.

Marşrut boyunca rayon sakinləri, xüsusilə məktəblilər və gənclər idmançıları yüksək əhval-ruhiyyə və sevinc dolu şüarlarla qarşılayıb, onlara dəstək nümayiş etdiriblər. Beynəlxalq idman yarışı rayon sakinləri və qonaqlar tərəfindən böyük maraqla izlənilib.

*

**Xankəndi daha bir beynəlxalq tədbirin ev sahibinə çevrildi. Mayın 14-də "Bakı-Xankəndi" Azərbaycan beynəlxalq velosiped yarışına yekun vuruldu. Yarışın son mərhələsindən sonra Xankəndi şəhərində qaliblərin mükafatlandırılması mərasimi keçirildi.**

Mərasimində çıxış edən Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Elçin Yusubov qalibləri təbrik edərək onlara gələcək yarışlarda uğurlar arzuladı.

Yarışın yekunu Xankəndidə xüsusi coşqu və bayram əhvali-ruhiyyəsi ilə yadda qaldı. Şəhərdə təşkil olunan möhtəşəm qarşılanma mərasimində sakinlər böyük izdihamla iştirakçıları salamladılar, küçələrində səslənən alqışlar, milli ruhlu çıxışlar və musiqi nömrələri tədbirə əlavə rəng qatdı. Səhnədə təqdim olunan musiqi proqramı isə həm sakinlərə, həm də qonaqlara xoş anlar yaşatdı.

Beynəlxalq yarışın final mərasimi bir daha göstərdi ki, Xankəndi bu gün inkişafın, sülhün, dostluğun və həmrəyliyin yeni ünvanına çevrilib.

Qeyd edək ki, yarışın sonuncu – V mərhələsində finiş xəttinə İspaniyanın "Burqos" komandasının Yeni Zelandiyadan olan üzvü Coş Barnett birinci çatıb. O, Tərtərdən startı verilən bu mərhələdə Xankəndiyə qədər olan məsafəni ən qısa vaxtda qət edərək mərhələnin qalibi olub. İlk mərhələdə Çinin "Li-Ninq Star" komandasının belaruslu üzvü Aleksey Şnirko, II və III mərhələlərdə isə Qazaxıstanın "XDS Astana" komandasının üzvləri Yevgeni Fyodorov və Qleb Suritsa birinci yeri tutublar. İtaliyanın "Bardiani" komandasının üzvü Marko Manenti IV mərhələnin qalibi olub.

Beynəlxalq Velosipedçilər İttifaqının (UCI) 2.1 kateqoriyalı yarışında dünyanın 20 ölkəsini təmsil edən 24 komanda mübarizə aparıb.

*Vəli VƏLİYEV,*
*Mahir RƏSULOĞLU,*
*XQ-nin Qarabağ müxbirləri*

**Tərtər-Xankəndi**

*✓ 2022-ci ildə Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti tərəfindən Məmmədov Ülvi Ramiz oğlunun adına verilmiş DSX seriyalı, 0012933 nömrəli xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.*

*✓ Bakı şəhəri, Yasamal rayonu, Xarici dairəvi yolu, Yeni Yasamal yaşayış massivi, ev 22, mənzil 11, yeni qaydalarla AZ1070, Bakı şəhəri, Yasamal rayonu, Mir Möhsün Nəvvab küçəsi 12 M3, M5 nömrəli ünvana məxsus müqavilə itdiyi üçün etibarsız sayılır.*

*✓ "FİRAVAN" MTK tərəfindən Əyyubova - Məmmədova Aygün Sücayət qızının adına verilmiş Abşeron rayonunun İ.Abdullayev küçəsində yerləşən 3 nömrəli binanın 207-ci mənzilinin müqaviləsi itdiyi üçün etibarsız sayılır.*

*✓ 30 may 1997-ci il təvəllüdlü Abşeron rayonu Novxanı kənd sakini Əliyev Müşfiq Ərrəhman oğluna 09.07.12016-cı ildə verilmiş 0353006 nömrəli hərbi bilet itdiyi üçün etibarsız sayılır.*

HAVA

## Bakıda yağmursuz, rayonlarda yağış və dolu...



**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Mülayim cənub-şərq küləyi əsəcək.**

Havanın temperaturu gecə 15-18, gündüz 24-29 dərəcə isti olacaq. Atmosfer təzyiqi 754 millimetr civə sütunundan 750 millimetr civə sütununa enəcək. Nisbi rütubət 65-75 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında hava şəraiti əsasən yağmursuz keçəcək. Lakin gündüzdən bəzi yerlərdə havanın arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Səhər və axşam bəzi dağlıq ərazilərdə duman müşahidə ediləcək. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək.

Havanın temperaturunun gecə 14-18, gündüz 25-30, dağlarda gecə 7-12, gündüz 16-21, bəzi yerlərdə 25 dərəcə isti olacağı ehtimal edilir.

*Q.ƏLİYEV*
*XQ*

"Qaradağ" Açıq Səhmdar Cəmiyyəti səhmdarlarının nəzərinə!

30 iyun 2026-cı il saat 11:00-da Bakı şəhəri, Qaradağ rayonu, Qızıldaş qəsəbəsi ünvanında "Qaradağ" Açıq Səhmdar Cəmiyyətinin inzibati binasında səhmdarların illik ümumi yığıncağı keçiriləcəkdir.

**Yığıncağın gündəliyinə aşağıdakı məsələlər daxildir:**

**1.** 2025-ci ilin yekunu üzrə təftiş komissiyası hesabatının təsdiq edilməsi haqqında.

**2.** 2025-ci ilin mühasibat balansı və illik hesabatının təsdiq edilməsi haqqında.

**3.** 2025-ci ilin mənfəət və zərər hesabatının təsdiq edilməsi, zərərin bölüşdürülməsi haqqında.

Yığıncağın gündəliyi üzrə materiallarla tanış olmaq üçün səhmdarlar bildirişdə göstərilən ünvana müraciət edə bilərlər. Müraciət olunduğu halda həmin materiallarla tanış olmaq üçün onlara lazımi şəraitin yaradılması təmin ediləcəkdir.

İllik ümumi yığıncaqda bütün səhmdarların iştirakı vacibdir.

**Əlaqə telefonu:** (050) 330-58-98

*Səhmdar Cəmiyyətin Müşahidə şurası*

DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994 (51) 280-16-44

"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3215
SİFARİŞ 632
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
İmran BƏDİRXANLI
Çapa imzalanmışdır 00:00